AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ

BAKI SLAVYAN UNİVERSİTETİ

KƏRİM MƏMMƏDOV

# MÜSTƏQİLLİK DÖVRÜMÜZÜN PEDAQOJİ PROBLEMLƏRİ

**(TƏDRİS VƏSAİTİ)**

BAKI – 2020

**RƏYÇİLƏR:**

Kərim Alı oğlu Məmmədov. Müstəqillik dövrümüzün pedaqoji problemləri. - Bakı: 2020. -s.

Tədris vəsaitində yeni dövr pedaqogika tarixi və nəzəriyyəsinin inkişafına dair materiallar öz əksini tapır. Tanınmış pedaqoqlarımızın tədqiqatlarına dair geniş şərhlər verilir. Əldə olunmuş nailiyyətlərlə yanaşı, buraxılmış nöqsanlar da göstərilir.

Tədris vəsaiti ali məktəb tələbələri, müəllimləri, doktorantları, digər tədris işçilərinin istifadəsi üçün nəzərdə tutulmuşdur.

Vəsaitdən «Pedaqogikanın müasir problemləri» fənninin tədrisində də istifadə etmək olar.

## Mündəricat

Giriş

**Fəsil I. Yeni dövrdə pedaqogika elminin təşəkkülünə dair mülahizələr**

1.1. Pedaqogika elminin dünya təlim və tərbiyə sisteminə inteqrasiyası

1.2. Müstəqillik dövründə pedaqogikanın metodoloji əsaslarına yanaşmalar.

1.3. XX əsrin sonu, XXI əsrin əvvəllərində pelaqoji anlayışlara yanaşmalar

1.4. Yeni dövrdə pedaqogika elminin strukturuna müxtəlif yanaşmalar

1.5. Müstəqillik dövründə dünyagörüşü probleminə yeni yanaşmalar.

1.6. Müasir dövrdə siyasi mədəniyyət tərbiyəsinə yeni yanaşmalar

**Fəsil II. Yeni dövrdə pedaqoji tədqiqatların əsas istiqamətləri**

2.1. Şərq pedaqoji fikir tarixinə yeni yanaşmalar

2.2. Türk xalqlarının pedaqoji fikir tarixinin tədqiqi.

2.3. Türkiyə- Azərbaycan pedaqoji əlaqələrinin əsas istiqamətləri.

2.4. Yeni dövrdə ölkəmizdə pedaqogika elminin məzmununun təkmilləşdirilməsi

Ədəbiyyat siyahısı

# GİRİŞ

Sovetlər sisteminin süquta uğraması onun tabeliyində olan xalqlarvn siyasi, iqtisadi həyatı ilə yanaşı mənəvi həyatında da xeyli dəyişikliklərə səbəb oldu. Xalqlar azadlıq əldə etməklə yanaşı milli-mənəvi dəyərlərinin inkişafı istiqamətində də ciddi addımlar atmağa başladı. Belə dəyişikliklər Azərbaycanda da həyata keçirilməyə başladı. Bu yolda nailiyyətlərimizlə yanaşı səhvlərə də yol verilmiş oldu.

Əldə etdiyimiz ən böyük nailiyyət mənəvi həyatımızın kommunist ideologiyasından asılılığına son qoyulması idi. Kommunsit istehsal münasibətindən irəli gələn neqativ hallar xalqların mənəvi həyatına da ciddi zərbələr vurmuşdur. Ateizm ideologiyasının təbliğ edilməsi xalqlarda qanunlara, Allaha inamı azaltmış və beləliklə də mənəviyyatın deqradasiyasına geniş yol açılmışdır.

Kommunist ideologiyasının bütün sahələrdə metodologiya kimi qəbul edilməsi də xalqların mənəvi həyatına mənfi təsir göstərmişdir. Yeni dövrdə ümumbəşərilikdən uzaq olan kommunist ideologiyası da iflasa uğradı. Ümumbəşəri normativ qaydalar, qanunlar, nəzəriyyələr mənəvi həyatımızın ideologiyası kimi qəbul edildi.

Müstəqillik dövrüsüzün ən böyük nailiyyətlərindən biri  də Şərq xalqlarının pedaqoji fikir tarixinin tətbiq edilməsinə geniş yol açılması oldu. Respublikamızın tanınmış pedaqoqları H.M.Əhmədov, Ə.Ə.Ağayev, F.A.Rüstəmov və s. yeni dövrdə Şərq xalqlarının pedaqoji fikir tarixinə dair samballı tədqiqat əsərləri ortaya çıxardı.

Yeni dövrdə türk xalqlarının pedaqoji fikir tarixinin tədqiqi, Türkiyə-Azərbaycan pedaqoji əlaqələrinin genişlənməsinə də münbit şərait yarandı. Bu istiqamətdə xeyli tədris vəsaitləri, monoqrafiyalar işıq üzü gördü. Türk və Azərbaycan pedaqoqlarının əsərləri hər iki ölkədə çap edilərək oxuculara təqdim edildi.

Müstəqillik dövründə pedaqogika tarixi ilə yanaşı, onun nəzəriyyəsinə aid də samballı tədqiqat əsərləri işıq üzü gördü. A.Mehrabovun, M.İsmixanovun, R.Hüseynzadənin, L.Qasımovanın, M.İlyasovun, H.Əlizadənin dövrün tələblərinə uyğun tədqiqat əsərləri çap edilərək Azərbaycan oxucularına təqdim edildi.

Bu dövrdə əldə edilmiş nailiyyətlərlə yanaşı bir sıra səhvlərə də yol verilmiş oldu. Belə səhvlər sırasında «metodologiya» anlayışına yanaşmalar özünü göstərməyə başladı. Kommunist ideologiyasından xilas olmayanlar elmdə də milli ideologiya axtarmağa başladı. Bir sıra dərslik və dərs vəsaitlərində, dissertasiyalarda metodoloji prinsiplər ya heç açıqlanmır, ya da yanlışlığa yol verilir. Oxuculara təqdim edilən bu tədris vəsaitində metodologiyaya aid də geniş məlumat verilir.

Müstəqillik dövründə pedaqoji anlayışların işlənilməsində də bir sıra səhvlərə yol verilmişdir. Milli pedaqogika, ağıl tərbiyəsi, situasiya, priyom və s. kimi yanlış yanaşmalar, çatışmazlıqlar monoqrafiyalarda, dissertasiyalarda öz əksini tapmış oldu. Əxlaq tərbiyəsi mənəviyyaiın xeyli tərkib hissələrindən biri olduğu halda bir sıra tədris vəsaitlərində onun adı dəyişdirilərək «mənəvi tərbiyə» kimi verilmişdir.

Yeni dövrdə pedaqogika elminin strukturuna aid də bir sıra çatışmazlıqlara yol verilmişdir.

Çap edilmiş dərslik və dərs vəsaitlərində sistemlilik metodologiyasına əməl edilməmişdir. Belə tədqiqatlarda problemlərin məntiqi ardıcıllıqla öyrənilməsinə şərait yaranmır. Bu da pedaqogika elminin sistem şəklində qavranılmasına mane olur. Öyrənilən məsələlərin daxili əlaqələri pozulur ki, bu sistemli biliklərin əldə edilərək ğyadda saxlanılmasına mənfi təsir edir.

Bütün bunlar oxuculara təqdim edilən bu tədris vəsaitində geniş şəkildə şərh edilir. Ümumiyyətlə, tədqiqatımızın əsas məqsədi pedaqogika elmini yad ünsürlərdən qorumaq və onu sistem halında təqdim edərək oxucuların istifadəsinə verməkdən ibarətdir.

Tədqiqatımızı bitmiş hesab etmək olmaz. Göstərilən məsələlərin geniş tədqiq edilməsi gələcək tədqiqatçılar üçün istiqamətverici stimul ola bilər.

# FƏSİL I. YENİ DÖVRDƏ PEDAQOGİKA ELMİNİN TƏŞƏKKÜLÜNƏ DAİR MÜLAHİZƏLƏR

## 1.1. Pedaqogika elminin dünya təlim və tərbiyə sisteminə inteqrasiyası

Kommunist rejimi bütün sahələrdə olduğu kimi tərbiyə elmini də dünya təlim-tərbiyə sistemindən təcrid etmişdi. Xarici dövlətlərdə tətbiq edilən səmərəli təlim və tərbiyənin forma, metod və vasitələrinin adı dəyişdirilərək sovet təhsil sisteminə uyğunlaşdırılmışdır (briqada-laborator, problemli təlim, təlim prosesinin alqoritmləşməsi və s.) ideoloji yanaşmalar pedaqogika elmindən də yan keçməmişdir.

Ümumbəşəri mahiyyət kəsb edən əxlaq, əmək, estetik tərbiyəyə, dünyagörüşü problemlərinə sovet ideoloqları ideoloji don geydirərək onları kommunist əxlaqı, kommunsit əməyi, kommunist dünyagörüşü kimi təqdim edərək gənc nəslin şüur və əqidəsinin yanlış istiqamətdə formalaşmasına səy göstərirdilər. Ümumbəşəri elmi, mənəvi dəyərlərin məktəbə yol açmasına ideoloji yanaşmalar maneəyə çevrilmişdir.

Sovetlər sistemi süquta uğradıqdan sonra xalqların milli və ümumbəşəri dəyərlərdən istifadəsinə geniş imkanlar yarandı. Cürbəcür dövlət, xalqlarla siyasi, iqtisadi, mədəni əlaqələr genişləndi. Bu proses təlim və tərbiyə sisteminin də inkişafına müsbət şərait yaratdı. Qərbdə çoxdan tətbiq edilən təlim texnologiyaları Azərbaycan məktəblərinə də yol açdı. Azərbaycan alimləri yuxarıda göstərildiyi kimi, milli və ümumbəşəri dəyərləri əks etdirən samballı elmi əsərlər meydana gətirə bildi. Mənəvi dəyərlərimizin inkişaf etdirilməsi üçün geniş islahatlar həyata keçirildi ki, bu da Azərbaycan təhsil sisteminin dünya təhsil sisteminə inteqrasiya olunması üçün zəmin yaratdı. Bu prosesdə Azərbaycan xalqının milli xüsusiyyətlərini qorumaqla ümumbəşəri ideyalara qovuşmaq məqsədi təlim və tərbiyə ocaqları qarşısında duran əsas tələb kimi ön plana çəkildi. Tərbiyə, təhsil ocaqlarının strukturunda, bütün pillələr üzrə təhsilin məzmununda da köklü dəyişikliklər həyata keçirildi.

Yeni Təhsil Qanununun qəbul edilməsi islahatların dinamikliyini daha da sürətləndirdi. Bu da təsadüfi deyildi. Cəmiyyətin sosial sifarişindən irəli gəlirdi. Azərbaycan dünyəvi, demokratik dövlət kimi formalaşmaq istiqamətində ciddi addımlar atmağa başlamışdır. Bazar iqtisadiyyatının bərqərar olması da təhsildə, elmdə geniş islahatların aparılmasını tələb edirdi. Burada pedaqoji prosesin də dünya təlim-tərbiyə sisteminə inteqrasiyası qaçılmaz olmuşdur. Təhsilin modernləşdirilməsi, rəqabətədavamlı təhsil sisteminin formalaşması bilavasitə dünya təcrübəsindən yararlanmağı da tələb edir. Bu heç də kor-koranə dünya təcrübəsini Azərbaycan təhsil sisteminə tətbiq etmək demək deyil. Hələ XIX əsrdə rus pedaqoqu K.D.Uşinski xaricdə qadın təhsilinin qoyuluşunu  tədqiq edərkən yazırdı ki, təhsil sisteminin inkişafında milli, regional xüsusiyyətlərin də nəzərə alınması əsas şərtlərdəndir. Bu prinsipə bu gün də əməl etmək dövrümüzün əsas tələblərindəndir. Təlim-tərbiyə problemlərini həll edərkən varislik ənənələrinə sadiq olmaq pedaqogika elmi qarşısında duran əsas tələblərdəndir. «Pedaqoji prosesdə təhsil ön plana çəkilir, tərbiyə də bu prosesdə  həyata keçirilir», - deyib tərbiyə nəzəriyyəsinin lazımsız olmasını söyləyənlər də var idi. Əxlaq, estetik tərbiyənin, dünyagörüşünün nə olduğunu bilməyən müəllim didaktik prosesdə onu necə həyata keçirə bilər? Nəzəriyyəni bilməyən müəllim, tərbiyəçi tərbiyəni elmi əsaslarla həyata keçirə bilərmi?

Tərbiyəyə aid Sokrat, Aristotel, Əl-Fərabi, İbn Sina, Bəhmənyar, N.Tusi və s. nəzəri irsini öyrənmədən müəllim  hazırlığını, pedaqoji prosesi həyata keçirmək olarmı?

Sovetlər birliyi dövründə pedaqogika elmi varislik ənənələrinə söykənərək sistemlilik metodoloji tələblərinə uyğun elmi əsaslara söykənən pedaqogika elmi formalaşdırmışdır.

Müstəqillik dövründə bunların hamısının üstündən xətt çəkib yeni pedaqoji sistem yaratmağa meyl daha aydın görünməkdədir. Nə milli, nə də regional xüsusiyyətlər nəzərə alınmır.

«Xaricdə belədir, biz də bele hərəkət elməliyik!» - deyib hər şeyi inkar etmək olmaz. Bu XX əsrin əvvəllərində meydana gələn «proletkultçular»

hərəkatına bənzəyir. «Köhnə mədəniyyəti ataraq, yeni proletar mədəniyyəti yaradaq», - deyənlərin mülahizələrinə bənzəyir. Sonradan həyat təsdiq etdi ki, yeniliyə varislik prinsipinə əməl etməklə nail olmaq olar.

Azərbaycan təhsil sisteminin dövlətimizin sosial-iqtisadi, siyasi maraqlarına uyğun milli, regional xüsusiyyətləri nəzərə almaqla dünya təhsil sisteminə inteqrasiya edilməsi günümüzün əsas tələblərindəndir.

Müasir pedaqoji ədəbiyyatda Azərbaycan təhsil sisteminin inkişaf tendensiyası dünya təhsil sisteminə inteqrasiya edilməsinin keyfiyyət əlamətləri aşağıdakı kimi səciyyələndirilir:

- cəmiyyətin inkişaf tempinin yüksəldilməsi istiqamətində vətəndaşların buna hazır olması;
- iqtisadiyyatın dinamik inkişafı, rəqabət mühitinin təkmilləşməsi;
- əməkdaşların ixtisasının artırılması və yenidənhazırlanması, onların peşə qabiliyyətlərinin təkmilləşməsi;
- insan kapitalının rolunun yüksəldilməsi;
- ölkənin təhsil sisteminin aparıcı dövlətlərin təhsil sistemi sırasına çıxarılması və onun dinamik inkişafının təmin edilməsi;
- elm, təhsil sahəsində ölkələrarası əməkdaşlığın təmin edilməsi və s. (5; 6; 34).

Azərbaycan təhsil sisteminin dünya təhsil sisteminə inteqrasiya edilməsi təhsilin məzmununda da yeniliklər özünü göstərdi. Beynəlxalq siyasi, iqtisadi, mədəni əlaqələrin genişləndirilməsi yeni ixtisasların meydana gəlməsinə səbəb oldu ki, bu da tədris planı, proqramlar, dərslik və dərs vəsaitlərinin yeniləşdirilməsi və təkmilləşməsinə münbit şərait yaratdı.

Müstəqillik dövrümüzün pedaqoji problemi kimi təhsil sisteminin unifikasiyası istiqamətində Boloniya təhsil sisteminə ölkəmizin qoşulması (2005-ci il) bir sıra Avropa ölkələri ilə mədəni əlaqələrin yaranmasına imkan yaratsa da, bütövlükdə problemin həllinə nail olmaq mümkün olmamışdır. Bu da təbiidir, çünki bütün ölkələrin mədəni, sosial-iqtisadi siyasəti eyni mahiyyət daşımır. Cəmiyyətlərin, dövlətlərin bazisindəki fərqli cəhətlər dünyada təhsilin unifikasiya

edilməsinə obyektiv olaraq maneələr yaradılır. Buna görə də bir çox ölkələr Boloniya təhsil sisteminə daxil olmağa tələsmir və ya heç maraq da göstərmir.

Təhsil sisteminin unifikasiyası SSRİ dövründə müvəffəqiyyətlə həyata keçirildi. Çünki bütün müttəfiq respublikalarda vahid siyasi, sosial-iqtisadi, mədəni proqramlar həyata keçirilirdi. Bunu nəticəsi idi ki, 1930-cu illərdə savadsızlıq tam ləğv edildi. Dövlət ümumi – icbari ibtidai təhsilin həyata keçirilməsinə başladı.

1958-ci ildə ümum-icbari 8-illik təhsilin, 1972-ci ildən isə ümumi-icbari orta təhsilin həyata keçirilməsinə başlandı. On il ərzində savadsızlığın tam ləğv edilməsi məhz təhsilin unifikasiyası ilə başa gəldi.

1906-cı ildə «Vestnik obrazovaniya» jurnalı belə bir proqnoz vermişdi. Əgər təhsil indiki templə inkişaf etsə, Rusiyada 500 ildən, Qafqazda və Orta Asiyada 800 ildən, Rusiyanın ucqarlarında isə 1200 ildən sonra savadsızlığı ləğv etmək mümkün olacaq.

Misaldan göründüyü kimi təhsilin unifikasiyası sosial-iqtisadi, siyasi, mədəni həyat tərzi ilə şərtləndirilir.

Ümumiyyətlə, Azərbaycan təhsil sisteminin dünya təhsil sisteminə inteqrasiya edilməsi bir sıra pozitiv addımların atılmasına imkan yaratdı. Pedaqoji prosesin forma, metod və vasitələrinin təkmilləşməsinə münbit şərait yaratdı. Milli dəyərlərimizə əsaslanaraq, innovativ yanaşmaların həyata keçirilməsinə geniş imkanlar açıldı. Azərbaycan təhsil sisteminin strategiyasını müəyyən edən Yeni Təhsil Qanunu qəbul edildi. Bunu aşağıda göstərdiyimiz faktlarla göstərmək olar:

1. Aparıcı ölkələrin təhsildəki təcrübəsini nəzərə alaraq təhsil sisteminin strukturunda yeniliklər həyata keçirildi.

2. Pedaqoji prosesin yeni dövrün siyasi, sosial-iqtisadi, mədəni həyatına cavab verən yeni elmi-pedaqoji araşdırılmalarını həyata keçirilməsinə imkan yarandı.

3. Pedaqogika elmindəki yeni pedaqoji təfəkkürün formalaşması, ideoloji yanaşmalar əvəzinə ümumbəşəri dəyərlər ön plana çəkildi.

4. Təhsil sisteminin demokratik dəyərlər əsasında həyata keçirilməsinə imkan yarandı.

5. Təhsil sisteminin humanistləşməsi, insan amilinin cəmiyyətdə idarəetmədə rolunun möhkəmlənməsinə şərait yarandı.

6. Cəmiyyətin sosial-iqtisadi, mədəni həyat tərzinin tələblərinə uyğun pedaqoji prosesin məzmununun təkmilləşdirilməsi həyata keçirildi.

7. Keyfiyyətli təhsil sisteminin həyata keçirilməsində müasir təlim texnologiyalarında istifadə edilməsinə münbit şərait yarandı.

8. Tələbə mübadiləsi, kadr hazırlığına dair dünya təcrübəsindən istifadə olundu və s.

Əldə edilən nailiyyətlərlə kifayətlənmək olmaz. Elmdə, təhsildə zamanın tələblərinə uyğun çeviklik və dinamizmin həyata keçirilməsi vacib tələblərdəndir.

## 1.2. Müstəqillik dövründə pedaqogikanın metodoloji əsaslarına yanaşmalar.

Sosialist sistemi süquta uğrayandan sonra xalq təsərrüfatının bütün sahələrində, o cümlədən də təhsil sahəsində, köklü dəyişikliklər baş verdi. Bunu elmlərin metodologiyasında da müşahidə etmək mümkün oldu.

Məlumdur ki, metodoloji əsası möhkəm özül üzərində qurulan elm sahələri doğrudan da dövrün tələblərinə uyğun təkmilləşərək inkişaf edir. Metodoloji tələblər ümumbəşəri tələblər olaraq, hər bir dövrdə öz aktuallığını qoruyub saxlayır.

Sovetlər birliyi dövründə ümumbəşəri mahiyyət daşıyan metodoloji problemləri kommunist ideologiyası ilə eyniləşdirmək və ona elmi don geydirmək meylləri özünü göstərirdi. Elmi dünyagörüşü, əxlaqi dəyərlər olan vətənpərvərlik, humanizm və s. ümumbəşəri dəyərlər olsalar da, onlar «kommunist dünyagörüşü», «sovet, sosialist vətənpərvərliyi» və ya «humanizmi» anlayışları kimi səciyyələndirilirdi.

Müstəqillik dövrümüzdə pedaqogikanın metodoloji problemlərini elmi əsaslarla işıqlandırmağa ehtiyacın olması aydın görünməkdədir. Belə ki, bir sıra elmi tədqiqat işlərində onilliklərlə təkrar edilən belə bir cümlə işlədilir: «Tədqiqatın metodoloji əsasını pedaqoji fakt, hadisə və prosesləri öyrənmək, dərk

etmək, dəyişdirmək, sistemləşdirmək məqsədi ilə tətbiq olunan nəzəri müddəaların, prinsiplərin, metodların və vasitələrin məcmusu təşkil edir».

Metod və vasitələr zaman və məkan şəraitində dəyişdiyindən bunları bütün dövrlər üçün normativ nəzəriyyə kimi qəbul etmək mümkün deyil. İkinci bir tərəfdən də pedaqogikanın nəzəriyyəsi və tarixinin metodologiyası eyni ola bilməz.

Mövcud dərslik və dərs vəsaitlərində bu problemə ya toxunulmur, ya da geniş şərhi nəzəri cəlb etmir (1; 11; 25; 52).

Deyilənləri nəzərə alaraq bu yarımfəsildə metod və metodologiya anlayışlarına aydınlıq gətirməyə çalışacayıq.

Sovetlər birliyi dövründə kommunist ideologiyası hakim mövqedə olduğundan bütün təlim və tərbiyə ocaqları, mətbuat və informasiya kanalları, bədii ədəbiyyat, teatr, kino və s. bu ideologiyanın təbliğinə yönəlirdi. Həmin ideologiyanın tələblərinə müvafiq elmi-tədqiqat işləri həyata keçirilir, bədii əsərlər, kinofilmlər və s. meydana gəlirdi. Kommunist ideologiyası metodoloji tələblər sistemi kimi formalaşdığından, onun tələblərindən kənara çıxan, sinfilik, partiyalılıq ideyasını həyata keçirə bilməyən elmi-tədqiqat işləri, bədii əsərlər, kinofilmlər və s. həyata vəsiqə ala bilmirdi. Sovetlər birliyi süquta uğradıqdan sonra kommunist ideologiyası da  həyatın səhnəsindən silinərək yox oldu, ümumbəşərilik ideyaları prioritet mövqe qazandı. Lakin hazırkı dövrdə, təəssüflə qeyd etmək lazımdır ki, bir sıra alimlər, təhsil işçiləri, yazarlar yenə də hansısa ideologiyanın elmdə, ədəbiyyatda, mədəniyyətdə, təlim və tərbiyə sistemində vacib olduğunu iddia edir və «milli ideologiyamız formalaşmayıb, biz nədən yazaq» və ya «tərbiyəni necə həyata keçirək?» - deyə gözləmə mövqeyində durmağı üstün tuturlar. Bu cür düşünənlərə 1997-ci il Azərbaycan yazıçılarının qurultayında Heydər Əliyev cənablarının verdiyi cavab təqdirəlayiqdir: «İdeologiya, milli ideologiya haqqında danışırlar. İndi kommunist rejimində olduğu kimi ideologiyamız yoxdur. Buna ehtiyac da yoxdur. Bizim ideologiyamız iki il bundan öncə  Azərbaycanın qəbul etdiyi dövlət Konstitusiyasında öz əksini tapmışdır».

Heydər Əliyev cənablarının söylədiyi bu fikir bir daha sübut edir ki, demokratiya və plüralizm ideyalarının bərqərar olduğu bir dövrdə hansısa öir

qurumun, partiyanın ideologiyası yox, ümumbəşəri ideyalar prioritet mövqedə dayanır.

Bu sətirlərin müəllifinin doktorluq dissertasiyasının müdafiəsi zamanı üzləşdiyi «milli ideologiyamızın formalaşmadığı bir dövrdə elmi dünyagörüşünə aid tədqiqatın meydana gəlməsi təəccüb doğurur» (prof. Ə.Əfəndizadə) və ya «fəlsəfi qanun, nəzəriyyələri metodologiya kimi qəbul etmisən, bu ideologiya deyilsə, bəs nədir? » (prof. Z.Qaralov) kimi ifadələr bir daha sübut edir ki, çoxları ideologiya, metod və metodologiya anlayışlarını kommunist sistemində olduğu kimi qəbul edir.

«Metodologiya çox mücərrəd anlayışdır, onu sxemləşdirmək mümkün deyil», - deyən alimlərə də rast gəlmək mümkündür.

Bu cür düşünənlərin diqqətinə çatdırmaq istəyirik ki, «metodologiya» anlayışı dünya xalqları tərəfindən qəbul edilən normativ, tənzimləyici qanunlar, qaydalar, nəzəriyyələrdir. «İdeologiya» isə bir şəxsin, bir xalqın, bir partiyanın, dövlətin irəli sürdüyü ideyalardır (xristian, islam, buddizm, kommunist ideologiyaları).

İdeologiyanın nə olması haqqında «Tərbiyə sinfi xarakter daşımır» (Azərbaycan müəllimi qəzeti, 1995, №19), «İdeologiya və ideya-siyasi tərbiyə» (yenə orada, 1996, №22), «Qanun, yoxsa ideologiya?» (Xalq qəzeti, 1997, №290), «Pedaqogika elminin metodoloji problemləri» («Fəlsəfə» jurnalı, 2006, №3,4) adlı məqalələrimizdə geniş şərh vermişik.

Bunları nəzərə alaraq metodologiya haqqında daha ətraflı şərh verməyi vacib hesab edirik.

Metod və metodologiya anlayışları leksik mənada eyni kökdən əmələ gələn sözlər olsalar da, fərqli cəhətləri də mövcuddur. Əgər «metod» anlayışı yanaşma, fəaliyyət tərzi, üsul, yol mənası daşıyırsa, «metodologiya» anlayışı daha geniş məna kəsb edir. O normativ, tənzimləyici nəzəriyyə, qayda, qanun mənası daşıyır. Fəlsəfi ədəbiyyatda «metod» sözü ətraf mühitin, fakt, hadisə və proseslərin öyrənilməsi tərzi kimi qiymətləndirilirsə, «metodologiya» sözü metod haqqında

təlim, normativ tədqiqat tərzi, hər hansı bir elmdə və ya elmi-tədqiqatlar sistemində tətbiq edilən tənzimləyici metod, tərzlərin birliyi kimi qiymətləndirilir.

Pedaqoji anlayış kimi «metod» sözü təlim və tərbiyə prosesinin həyata keçirilməsi tərzi, yolları kimi qəbul edilirsə, «metodologiya» anlayışı elmi dəyərlərə söykənən, tətbiq edilmə sahəsi geniş miqyaslı fənləri əhatə edən normativ, tənzimləyici qanun, nəzəriyyə, qayda kimi qəbul edilir.

Mövcud pedaqoji ədəbiyyatda metodologiya aşağıdakı növlərə ayrılır: ümumelmi, ümumfəlsəfi və fəndaxili metodoloji prinsiplər.

Ümumelmi metodoloji tələblər ən çox elmi-tədqiqat işlərində istifadə edilir. Buraya tarixilik, məntiqilik, tamlıq, bütövlük, sistemlilik və ardıcıllıq, fərziyyə və digər elmi apparaturanın, fakt, hadisə, proseslər arasında əlaqələrin qurulması, düzgün proqnozların verilməsi qaydaları, faktların arqumentliliyi, mövcud təcrübəyə münasibət, analiz və sintez, qruplaşdırma, təsnifat, qiymətvermə, nəticə, təklif və tövsiyələrin verilməsi və s. daxildir.

Daha ətraflı məlumatı tərəfimizdən hazırlanmış «Elmi-tədqiqat işlərinin metodikası» adlı dərs vəsaitindən əldə etmək olar.

Ümumfəlsəfi metodoloji tələblər pedaqogika elminin tədrisi və bu sahədə elmi-tədqiqat işlərinin aparılmasında daha geniş istifadə edilir. Buraya aid edilən metodoloji tələblərə bir növ universal məna, məzmun kəsb etməklə təbiət, cəmiyyət, insan şüurunun qanunauyğunluqlarının öyrənilməsində tətbiq edilən normativ fəlsəfi tələblər, qaydalar, nəzəriyyələr, qanun və kateqoriyalar daxil edilir. Bu qrup metodoloji problemlərin əhatə dairəsinin daha geniş olduğunu və buna yanaşmanın qeyri-müəyyənliyini nəzərə alaraq, bu haqda bir qədər geniş məlumat vermək istərdik.

Ümumfəlsəfi metodoloji tələb kimi idrak nəzəriyyəsinin pedaqoji prosesə tətbiq edilməsi daha aktual problemlərdəndir. Təlim və tərbiyə prosesində idrak nəzəriyyəsinin müəyyən etdiyi yolla, yəni «canlı müşahidədən abstrakt təfəkkürə, oradan da təcrübəyə» ideyasının tələblərinə əməl edilməsi idrakı prosesin səmərəliliyini təmin edir. Canlı müşahidə aparmadan abstrakt təfəkkür formalaşdırmaq mümkün deyil. Öyrənilən obyektin əlamət və keyfiyyətini hiss

etmədən, obyekt haqqında bilikləri qavramaq, təsəvvür yaratmaq, daha sonra anlayış formalaşdırmaq, onun haqqında mühakimə yürütmək, nəticə çıxarmaq da mümkün deyil.

Son illərdə fəlsəfə elmində aktual problem kimi araşdırılan sistem-struktur yanaşma metodunun tələblərindən ayrı-ayrı elm sahələrində istifadə edilməsi məsələsi də metodoloji tələblərdəndir. Bu metod hər hansı bir elmin özünün strukturunun düzgün müəyyən olunmuş qayda əsasında qurulması, həm də fəndaxili problemlərin sistemli, ardıcıl, məntiqi əlaqələrlə bağlı şəkildə işıqlandırılması və ya şərh edilməsini tələb edir. Sistem-struktur yanaşma metodundan həm təbiət, həm cəmiyyət, həm də insan şüurunun qanunauyğunluqlarının öyrənilməsi və ya tədqiq edilməsində də istifadə edilir. Bunu üçün sadəcə olaraq sistemin və strukturun nə olduğunu aydın təsəvvür etmək vacib şərtdir.

Fəlsəfi ədəbiyyatda «eyni keyfiyyət, əlamət, məzmun və mənaya malik, qarşılıqlı əlaqələri yeni keyfiyyət yaradan obyektlər birliyi sistem adlanır. Struktur isə sistemin daxili formasıdır. O, elementlərin qarşılıqlı əlaqə və qarşılıqlı təsir tərzini əks etdirir» (64, s.19-24).

Bu qaydaya müvafiq dünyagörüşün formalaşmasının, təlimin, idrak prosesinin strukturunu, proqram, dərslik, dərs vəsaitlərinin, elmi tədqiqat işlərinin və s. strukturunu düzgün müəyyənləşdirmək mümkündür.

Sistemlilik hadisə fakt, pedaqoji prosesin hərtərəfli, qarşılıqlı əlaqədə öfrənilməsini tələb edir, nəzəri və praktik məsələlərin məntiqi əlaqələrini göstərir. Sistemlilik həm də mövcud elmi biliklərin və ya elmi-tədqiqat işlərinin tamlığı, bütövlülüyü ilə səciyyələnir. Tamlıq və bütövlülük isə strukturdakı elementlərin əlaqələrini, onların birliyi ilə şərtlənir. Obyektlərin və ya struktur elementlərinin qarşılıqlı təsir tərzi yeni keyfiyyət yaradır.

Sistem-struktur yanaşma metodikanın elmi dünyagörüşün formalaşmasına tətbiq edilməsi metodikası 1.5. yarımfəslində şərh edilir.

Ümümfəlsəfi metodoloji problemlər sırasında dialektik qanunların pedaqoji prosesə tətbiq edilməsi də dayanır. Məlumdur ki, təlim və tərbiyənin hərəkətverici

qüvvələri bu prosesdə meydana çıxan ziddiyyətlərdir. Dialektika öyrədir ki, ziddiyyətlər olmayan yerdə inkişaf da ola bilməz. Bu ideya təbiətə də, cəmiyyətə də, insan şüuruna da şamil edilə bilər. Dialektik tələb olan əksliklərin vəhdəti və mübarizəsi qanunu öyrədir ki, ayrı-ayrı tərəflər, tendensiyalar arasındakı ziddiyyətlər inkişafa lazımi şərait yaradır. Deməli, təlim və tərbiyə prosesində də belə ziddiyyətlər meydana gəlir ki, bu da təlim və tərbiyənin hərəkətverici qüvvəsi kimi, pedaqoji prosesin səmərəliliyini artırır. Hələ dialektik qanunların mövcud olmadığı bir dövrdə XI əsrdə Əl-Qəzali, XIII əsrdə isə N.Tusi ziddiyyətlərin inkişafın mənbəyi olduğu haqqında dəyərli mülahizələr yürütmüşlər (8, s.54; 43, s.121). Lakin, təəssüflə qeyd etmək lazımdır ki, bu məlum həqiqəti tərsinə çevirərək, «ziddiyyətlər təlim və tərbiyə prosesinin səmərəliliyini azaldır», - fikrini söyləyənlər də meydana gəldi. (32, s.34, 288).

Bu fikrin müəllifi elə oradaca ziddiyyətli fikir söyləyir: «Yadda saxlamaq lazımdır ki, pedaqoji prosesə xas olan ziddiyyətlər yalnız üzə çıxarıldıqda və dəf edildikdə onun hərəkətverici qüvvələrinə çevrilir» (yenə orada).

Müəllifin «ziddiyyətlər üzə çıxarıldıqda və dəf edildikdə» fikri də mübahisə doğurur. Çünki ziddiyyətlər şagirdin yönümündəki çatışmazlıqları üzə çıxarır. Çatışmazlıqları aradan qaldırmaq üçün isə pedaqoji prinsip, metod və vasitələrdən istifadə edilir.

Müəllif «Milli pedaqogika yollarında» əsərində «ziddiyyətlər» anlayışını «konflikt» anlayışı, şəxsiyyətlərarası münaqişə anlayışları ilə eyniləşdirir (32, s.36-39).

O yazır: «Uşağın yeni inkişaf səviyyəsi ailədə və məktəbdə onun əvvəlki həyat tərzindən kənara çıxır: yəni ziddiyyətlər baş verir. Ziddiyyəti vaxtında aradan qaldırmaq əvəzinə uşaqlarda baş verən yeni keyfiyyətləri məhdudlaşdırmaq, hətta onların qarşısını almaq üçün tənbehedici tədbirlərə əl atılır. Bu isə ziddiyyətləri daha da kəskinləşdirir» (32, s.39).

Müəllifin bu və digər yanlış mövqeyinə öz münasibətimi onun kafedra müdiri işlədiyi dövrdə aşağıdakı məqalələrimlə öz münasibətimi bildirmişəm:

«Elmi yenilik, yoxsa elmə yamaq» («Təhsil» qəzeti, 2001-ci il № 88), «Alimə yenilikçi adını elmi ictimaiyyət verir» («Azərbaycan press» qəzeti, 2004, № 8, 9).

Zənnimizcə, pedaqoji prosesin hərəkətverici qüvvələrini müəyyən etmək üçün fəlsəfənin «Əksliklərin vəhdəti və mübarizəsi» qanununun tələbləri əsas götürülməlidir. Tərəflər və tendensiyalar arasında meydana gələn ziddiyyətlərin inkişafın mənbəyi olmasını metodoloji tələb kimi qəbul etmək lazımdır.

Pedaqoji ədəbiyyatda təlim və tərbiyənin hərəkətverici qüvvələri şagirdlərin yönümü, yəni məlumat, bilik əldə etməyə hazır olması və bu prosesdə irəli sürülən tələb, vəzifələr arasında meydana çıxan ziddiyyətlər adlanır. Bu ideyanı mürəkkəbləşdirərək, ona əlavələr etməyə ehtiyac yoxdur.

Ümumfəlsəfi metodoloji qayda və nəzəriyyələrin özü də bütöv bir sistemdə, qarşılıqlı əlaqədə tətbiq edilir. Belə ki, tərbiyə proseçinin hərəkətverici qüvvələrinin düzgün müəyyənləşdirilməsində, idrak nəzəriyyəsini pedaqoji prosesə tətbiq edərkən sistemin və strukturun gözlənilməsi vacib tələb kimi irəli sürülür. Canlı müşahidənin struktur elementləri (hissetmə, qavrama, təsəvvür) abstrakt təfəkkürün elementləri ilə (anlayış, mühakimə, nəticə) bir sistem yarada bilmirsə, elementlər birliyi yeni keyfiyyət yaratmırsa, deməli, idrakı proses lazımi şəkildə həyata keçirilmir. Adıçəkilən dialektik qanun, nəzəriyyələrin tələblərinə düzgün əməl edilməlidir ki, pedaqoji proses daha səmərəli olsun.

Fəndaxili metodoloji tələblərə nəzəri və praktik məsələlərin həllinə yönələn ayrı-ayrı fənlərin elmi əsaslarla sübut edilən normativ qaydaları, qanunları, nəzəriyyələri daxil edilir (riyazi, fiziki, kimyəvi qayda, qanun və s.).

Pedaqogika elminə isə fəndaxili metodoloji tələb kimi şəxsiyyəti formalaşdıran amillər, pedaqogikanın qanun və qanunauyğunluqları, təlim və tərbiyənin prisip və metodları, alqoritm qaydaları, interaktiv təlim və s. aid normativ qaydalar daxil edilir.

Problemin daha geniş şərhi tərəfimizdən hazırlanan «Elmi-tədqiqat işlərinin metodikası» adlı dərs vəsaitində şərh edilmişdir.

Hazırki dövrdə pedaqogikaya dair bütün dərslik və dərs vəsaitlərində bu problemin geniş şərhinə ehtiyac vardır.

Azərbaycan dilində işıq üzü görən tədris vəsaitlərində yalnız 1964-cü ildə M.Muradxanovun redaktəsilə çapdan çıxan «Peadqogika» dərsliyində, M.İsmixanovun «Pedaqogikanın əsasları» tədris vəsaitində metodologiya anlayışına düzgün yanaşma müşahidə edilir.

Adıçəkilən birinci vəsaitdə pedaqogikanın metodoloji əsasları aşağıdakı kimi şərh edilir:

- tərbiyə cəmiyyətin inkişafı ilə şərtlənir;
- təbiət və cəmiyyətdə hər şey dəyişmədə, yeniləşmədə və inkişafda olduğu kimi, tərbiyə hadisələri də dəyişmədə, yeniləşmədə və inkişafdadır;
- təbiət və cəmiyyətdəki bütün cisim və hadisələr bir-birindən ayrı və təcrid edilmiş halda olduğu kimi, tərbiyəni də cəmiyyətdə gedən hadisələrdən ayrı götürmək olmaz;
- başqa sahələrdə olduğu kimi, tərbiyə sahəsində də inkişaf ziddiyyətlərin mübarizəsi yolu ilə başa gəlir (K.M. Müəllif «Əksliklərin vəhdəti və mübarizəsi» qanununa işarə edir);
- cəmiyyət bir tarixi formasiyadan yeni bir tarixi formasiyaya keçdikdə köhnə tərbiyə sistemini əvəz edən yeni tərbiyə sistemi yaranır. Çünki bazisin dəyişməsi ilə əlaqədar olaraq tərbiyə də üstqurum hadisəsi kimi dəyişir (K.M. Müəllif «İnkarın inkar qanununa» işarə edir). Digər qanun və kateqoriyalar da eyni qayda ilə pedaqoji prosesə tətbiq edilir;
- öyrənmə prosesinin mahiyyətini, onun metodikasını araşdırarkən idrak nəzəriyyəsinə, əxlaq tərbiyəsi məsələlərini öyrənərkən etikaya, estetik tərbiyənin mahiyyəti və məzmununu öyrənərkən estetika elminə istinad edilir (44, s.15-16).

Prof. M.İsmixanovun çap etdirdiyi «Pedaqogikanın əsasları» adlə tədris vəsaitində pedaqogikanın metodoloji əsasları qısa verilsə də, reallığı düzgün əks etdirir (25, s.13).

## 1.3. XX əsrin sonu, XXI əsrin əvvəllərində pelaqoji anlayışlara yanaşmalar

Müstəqillik əldə ediləndən sonra pedaqogika tarixinin təşəkkülü ilə yanaşı, pedaqogikanın nəzəriyyəsində də dirçəliş müşahidə edilməyə başladı. Alimlərimiz

bu istiqamətdə pedaqogika üzrə proqramlar, dərslik və dərs vəsaitləri çap etdirməyə başladılar. Kölgədə qalan bir sıra problemlərin düzgün həllinə yönələn fikir və mülahizələrə yol açıldı. Kommunist ideologiyası məngənəsindən xilas olmaq, demokratiya və fikir müxtəlifliyi prinsipinə uyğun milli dəyərlərə əsaslanan çap materialları ortaya çıxmağa başladı. Bu sırada oxuculara təqdim edilən bu vəsait müəllifinin «Tərbiyə sinfi xarakter daşımır» adlı məqaləsi geniş diskussiya mənbəyinə çevrildi (40).

Bir sıra müəlliflər məni tənqid atəşinə tutdular ki, tərbiyə sinfidir. Lakin mənim heç tanımadığım alimlər, məktəb müəllimləri mənim mövqeyimi müdafiə edərək, kommunist ideologiyasının mayası olan sinfilik anlayışının tərbiyə ilə heç bir əlaqəsinin olmadığını söylədilər. Mənim söylədiyim «hər bir dövrdə tərbiyənin məqsədi və vəzifələrinin sosial-iqtisadi, mədəni həyat tərzi ilə şərtləndiyini və varlıların da, yoxsulların da bu məqsədə uyğun tərbiyənin həyata keçirilməsi» ideyasını dəstəklədilər. Bundan sonra «Azərbaycan müəllimi» qəzeti «Pedaqogikanın aktual problemləri» rubrikasını açdı. Bu geniş müzakirələrdən sonra mənim fikrimə tənqidi münasibət bəsləyənlər öz dərslik və dərs vəsaitlərindən «sinfilik» anlayışının üstündən xətt çəkəsi oldular.

Həmin dövrdə pedaqogika elmimizin korifeylərindən olan prof. Yusif Rəhim oğlu Talıbovun tərbiyənin məqsədinə dair çox samballı, dövrün tələblərinə tam cavab verən bir məqaləsi dərc edildi («Azərbaycan müəllimi», 16 yanvar 1996-cı il). Tərbiyənin məqsədini lakonik şəkildə o, belə verdi: «Milli və ümumbəşəri dəyərlərə yiyələnən kamil şəxsiyyətin formalaşdırılması».

Müəllif nə üçün «millilik» anlayışını ön plana çəkmişdir?

Sovetlər birliyi dövründə «xalqların tarixi birliyi» olan «sovet xalqı» anlayışı formalaşdırılmışdır ki, bu da milli dəyərləri kölgədə qoyurdu. Prof. Y.R.Talıbov milli dəyərlər əsasında gələcək nəsillərin formalaşmasını vacib hesab edirdi. Onun söylədiyi «kamillik» anlayışı da geniş məna kəsb edir. Kamillikdə zehni, əxlaq, əmək, fiziki, estetik tərbiyənin məzmunu cəmləşir ki, bu da indiki dövrümüzün tələblərinə tam cavab verir.

Tərbiyənin məqsədi və vəzifələri anlayışına yanaşmalara dair müxtəlif fikir və mülahizələr söyləyənlər də tapıldı. Onu sovet sistemindən qalan miras kimi qiymətləndirilərək tərbiyənin yeni məqsəd və vəzifələrinin işlənməsi ideyasını irəli sürdülər. 1992-ci ildə qəbul edilmiş təhsil qanununda «… ölkəmizi yüksək zirvələrə qaldıran, sərhədlərimizi qoruya biləcək şəxslərin formalaşdırılması» kimi təmtəraqlı, ibarəli ifadələrlə zəngin olan, təxminən bir səhifədə verilən və nəticə olaraq yenə də hərtərəflilik ideyasına qayıdan müəlliflər «ölkəmizi yüksəkliklərə qaldırmağın», «sərhədlərimizi qorumağı bacarmağın» əxlaqi dəyər olduğunu bilmirlərmi?

Həmin ifadə bütövlükdə yeni dövrün sosial-iqtisadi, siyasi, mədəni həyat tərzini tam əhatə etmədiyindən öz aktuallığını itirmiş oldu.

Müstəqilliyimizi əldə etdikdən sonra pedaqogika elminə aid xeyli sayda dərslik və dərs vəsaitləri meydana gəldi. Alternativ fikir və mülahizə yürütmək üçün geniş meydan açıldı. Tanınmış pedaqoqlarımız Y.Kərimov, Ə.Ağayev, A.Həsənov, Ə.Paşayev, A.Mehrabov, L.Qasımova, F.Rüstəmov, M.İlyasov, R.Hüseynzadə, H.Əlizadə və digərləri yeni dövrün tələblərinə uyğun dəyərli tədqiqatlar ortaya çıxararaq, pedaqogika elminin inkişafına dəyərli töhfələr verə bildilər. Təlim texnologiyaları və burada internet resurslarının tətbiq edilməsinə dair son dərəcə dəyərli fikir və mülahizələr söyləyərək pedaqogika elminin daha da zənginləşməsinə nail ola bildilər. Geniş oxucu kütlələri bunları rəğbətlə qarşıladı. «İş olan yerdə çatışmazlıqlar da ola bilər», - deyiblər. Dərslik və dərs vəsaitlərində pedaqoji anlayışlara dair fikir və mülahizələrimizi alimlərimizlə bölüşməyi vacib hesab edirik. Zənnimizcə, bu pedaqogika elminin daha da zənginləşməsinə xidmət edə bilər.

Belə ki, bir sıra dərslik və dərs vəsaitlərində müəlliflərin yanaşmalarında anlayışların işlənilməsində bir sıra səhvlərə yol verilmişdir.

Belə səhvlər sırasında tərbiyənin tərkib hissələrinə aid söylənilən fikirləri göstərmək olar.

Ta qədim dövrlərdən başlayaraq sovetlər sisteminin süqutuna qədər tərbiyənin tərkib hissələrinə aşağıdakılar aid edilmişdir: zehni, əxlaq, əmək, fiziki

və estetik tərbiyə. Ötən əsrin 80-ci illərində iki hissəyə bölünmüş Almaniyanın kommunist ideologiyasını qəbul etmiş Demokratik Respublikasının pedaqoqları tərbiyənin bu beş tərkib hissələrinə əlavə olaraq «ideya-siyasi» tərbiyəni də əlavə etmişdilər (68, 166).

O dövrdə bunu reallığı əks etdirən hal kimi qəbul etmək olardı. Çünki o, kommunist ideologiyasının təbliğinə yönəlirdi. Bu, cəmiyyətin sosial sifarişi idi. Onsuz, yuxarıda qeyd etdiyimiz kimi, heç bir bədii, incəsənət əsərləri, elmi əsərlər və s. həyata vəsiqə ala bilməzdi. Kommunist sistemi süquta uğradıqdan sonra ideya-siyasi tərbiyə, yəni kommunist ideologiyasının təbliğinə yönələn anlayış da öz aktuallığını itirdi. Bundan istifadə edən bir sıra müəlliflər siyasi biliklərin öyrənilməsini yenə də kommunist ideologiyasına xidmət edən hal kimi qiymətləndirməyə başladılar. O zaman «Azərbaycan müəllimi» qəzetində «İdeologiya və ideya-siyasi tərbiyə» adlı məqalə çap etdirərək bunların mahiyyətini açıqlamağa çalışdıq. Ümumbəşəri siyasi biliklərin öyrənilməsinin vacib olduğunu sübut edərək ona kommunist ideologiyasının təzahürü kimi yanaşmanın yanlış olduğunu sübut etdik (1996, №22).

Müstəqillik dövrümüzdə tərbiyənin yuxarıda göstərilən beş tərkib hissələrindən olan əxlaq tərbiyəsinin adını dəyişdirib onu mənəvi tərbiyə kimi təqdim edənlər oldu (1, s.122).

Oxucuların nəzərinə çatdırmağı vacib hesab edərək qeyd edirik ki, «əxlaq» anlayışı özü elə mənəviyyatın tərkib hissəsidir. Geniş məna və məzmun kəsb edən «mənəviyyat» anlayışı özündə dini dəyərləri, əxlaqı, mədəniyyəti, incəsənəti, hüququ, fəlsəfəni, psixologiyanı, adət-ənənələri və s. birləşdirir. Ona görə də onu yalnız əxlaq anlayışı kimi qəbul etmək olmaz.

«Zehni tərbiyə» anlayışına da yanaşmalarda səhvə yol verilmişdir. Onun əvəzində «ağıl tərbiyəsi» anlayışının işlədilməsinin vacib olduğunu söyləyənlər də tapıldı (32, s.292-296). Bu fikrin müəllifi rus dilində çap edilmiş pedaqoji lüğət, dərs vəsaitlərində işlədilən «umstvennoye vospitaniye» anlayışını «ağıl tərbiyəsi» kimi tərcümə edərək yazır: «Ağıl tərbiyəsi biliklərin, vərdişlərin və dünyagörüşü

əsaslarının formalaşması, şagirdlərin inkişafı və əqli əmək mədəniyyətinin aşılanmasıdır» (yenə orada).

Qeyd etmək lazımdır ki, «ağıl» sözü ruscaya «razum» kimi tərcümə edilir. «Umstvennoye vospitaniye» anlayışının tərcüməsini Azərbaycanın görkəmli pedaqoqları prof. Ə.Seyidov, akademik M.Mehdizadə, prof. M.Muradxanov, prof. Ə.Haşımov çox doğru ekvivalent seçərək onu «zehni, əqli» tərbiyə kimi qəbul etmişlər. Bu ölçülüb biçilmiş fikrə zidd olmaq yanlış yanaşmadır.

Müstəqillik dövrümüzdə pedaqoji ədəbiyyatda işlədilən «mənəvi tərbiyə» və «ağıl tərbiyəsi» anlayışlarına geniş şərh verməyə ehtiyac duyulur. Belə ki, «ağıl» anlayışının haqlı olaraq daha geniş məna kəsb etdiyini bədii nümunələrlə sübut etməyə çalışan müəllif onu belə dar çərçivəyə salır. «um» və «razum» anlayışlarına fərq qoymur.

«Ağıl» anlayışı, doğrudan da geniş məna kəsb edərək özündə zehni, əxlaq, estetik tərbiyəsini də cəmləşdirir. Elə isə müəllif «ağıl tərbiyəsi» ilə yanaşı nə üçün əxlaq, estetik tərbiyəni də tərbiyənin tərkib hissəsi hesab edir.

Tərbiyənin tərkib hissələrinin çoxalmasına cəhd edənlərə müstəqillik dövrümüzdə də rast gəlmək mümkündür. Hüquq tərbiyəsini də tərbiyənin tərkib hissəsi kimi təqdim edənlər də var (1, s.152-155; 52, s.473-502).

Yanlış olaraq hüquq tərbiyəsini də əxlaq tərbiyəsindən ayırmaq hansı məntiqə sığışır. «Hüquq» anlayışının kökündə «haqq» sözü dayanır. «haqq», «ədalət» isə əxlaq tərbiyəsinin onlarla komponentlərindən biridir. Hüquq məcəlləsində əks olunan ideyalar birbaşa əxlaqi dəyərləri əks etdirir. Tanınmış türk alimi Ziya Göyalpın da mövqeyi belədir (54, s.271). Elə isə onu «əxlaq tərbiyəsi» mövzusunda araşdırmaq daha səmərəli olmazdımı?

Bir sıra pedaqoji ədəbiyyatda ekoloji tərbiyə də tərbiyənin bir tərkib hissəsi kimi baxılır. Ekoloji tərbiyə həm zehni, həm əxlaq tərbiyəsi ilə sıx əlaqədədir. Onu araşdırarkən bu əlaqələr aspektində şərh vermək daha doğru olmazdımı?

Bu fikri iqtisadi tərbiyəyə də şamil etmək olar. Bunların bir problem kimi araşdırılması müasir dövrümüzün vacib tələbidir. Lakin bu üç problemi tərbiyənin ənənəvi tərkib hissələrindən ayırmaq ideyası məntiqsiz görünür.

Müstəqillik dövrümüzdə pedaqogikanı bir elm kimi milliləşdirməyə səy göstərmək tendensiyası da diqqəti çəkir. Belə ki, bu ideyanın müəllifi canfəşaqlıqla onun doğru yanaşma olduğunu sübut etmək üçün yazır: «Milli pedaqogika əsas dörd mənbədən qidalanmalıdır: 1. Azərbaycanda müasir pedaqoji təcrübədən. 2. Müasir Azərbaycan pedaqoji fikrindən. 3. Azərbaycanın keçmiş pedaqoji irsindən. 4. Azərbaycan şifahi xalq yaradıcılığı nümunələrindən» (32, s.426). Müəllifin göstərdiyi bu dörd mənbələrdə əks olunan fikir və ideyalar ümumbəşəriliyi əks etdirmirmi? O, Yusif Məmmədəliyevin azərbaycanlı olduğu üçün onun ixtiralarının da milli olduğunu sübut etməyə çalışır. Belə çıxır ki, dünya şöhrətli alimlər Bəhmənyar, Nəsrəddin Tusi, Lütfizadənin də azərbaycanlı olduğu üçün ixtiraları da millidir. Axı, adıçəkilən alimlərin ixtiraları ümumbəşəri dəyərlər kimi qəbul edilərək dünya xalqları tərəfindən bu gün də istifadə edilməkdədir. Deməli, ixtiraları müəlliflərin milliyyəti parametrləri ilə yox, həmin ixtiranın ümumbəşəriliyi baxımından qiymətləndirmək lazımdır.

Türk xalqının görkəmli oğlu tanınmış sosioloq, pedaqoq, millilik və ümumbəşərlik ideyalarının araşdırıcısı Ziya Göyalp yazır: «Elmi bilgi əqlidir, nağıla istinad etməz… Ağılın qəbul etdiyi bir səbəbdir ki, elmi bir qanun yapar. Elmi bilgi qeyri şəxsidir. Onu hər kəs qəbul edər, təcrübə edər. Elmdə ayrılıq ola bilməz. İnsanlarn zəkasında ayrılıq ola bilər. Elm obyektiv və müsbət olduğu üçün beynəlmiləldir. Buna görə də elmdə türkçülük ola bilməz» (55, s.133). «… elmi bilik qeyri şəxsi olmalıdır» (54, s.6-8).

Bu misallar bir daha sübut edir ki, elm ümumbəşəridir. Onu bir şəxsin, bir xalqın, dövlətin mülkiyyəti hesab etmək olmaz.

Millilik ideyasının müəllifinin mövqeyinin yanlış olduğunu mətbuatda çap edilən aşağıdakı materiallarda da görmək olar: prof. Ə.Paşayev «Milli pedaqogika elmi yaratmaq məsələsinə dair» (Azərbaycan müəllimi, 11-17 may, 2000-ci il); prof. Ə.Ağayev «Milli pedaqogikaya dair» (Azərbaycan müəllimi, 11 dekabr 1991), dos. K.Məmmədov «Elmi yenilik, yoxsa elmə yamaq» (Təhsil qəzeti, № 88, 2002), dos. K.Məmmədov «Alimə yenilikçi adını elmi ictimaiyyət verir» (Azərbaycan press qəzeti №8, 9, 2004).

Pedaqogika elmini milliləşdirmək ideyasının yanlış olduğunu 2002-ci ilin yanvarında ideya müəllifinin iştirakuı ilə keçirilən dəyirmi masada da sübut edildi. «Milli pedaqogika, yaxud pedaqogikada millilik» mövzusunda keçirilən bu dəyirmi masada söylənilən fikirlərdən fraqmentləri təqdim edirik:

1. Prof. Ə.Ağayev: «Pedaqogika elmdirsə, ona milli pedaqogika demək olmaz. Elm obyektiv qanun və qanunauyğunluqlara söykənir. O ümumbəşəridir. Odur ki, pedaqogika elmini milli pedaqogika formasında qəbul etmək olmaz».
2. Prof. Ə.Paşayev: «Elm məhəlli deyil, bəşəridir. Tarixin inkişaf prosesində cilanana-cilanana gələn qanunauyğunluqlardır. Onu milliləşdirmək yanlış fikirdir».
3. Dos. K.Məmmədov: «Milli pedaqogika ideyasının müəllifinin məntiqinə görə cürbəcür elm sahələri üzrə edilən milyonlarla kəşflər onları ixtira edənlərin milli mənsubiyyəti ilə bağlıdır. Onun üçün də həmin elmi yeniliklər milldir. Müxtəlif xalqların nümayəndələrindən ibarət alimlərin kəşfləri dünya xalqları tərəfindən istifadə edilirsə, onu milliləşdirmək olarmı? N.Tusinin, Lütvizadənin, Y.Məmmədəliyevin ixtiralarını necə milli adlandırmaq olar? Axı onların ideyalarından dünya xalqları bəhrələnir».

Daha sonra respublikamızın tanınmış alimləri akademik H.Əhmədov, yazıçı-pedaqoq prof. A.Rəhimov, prof. Ş.Əskərov, prof. M.Zeynalov, jurnalist-pedaqoq dos. A.Eminov və digərləri çıxış edərək elmi özəlləşdirməyin yanlış mövqe olduğunu inkaredilməz dəlillərlə təsdiq etdilər (Azərbaycan müəllimi, 1-7 fevral 2001).

Pedaqoji ədəbiyyatda dilimizə yad olan və Azərbaycan dilində səlist ekvivalenti olan bir çox terminlərdən də istifadə edilir. Elmi məqalələrdə, dissertasiya işlərində «situasiya», «priyom» sözlərindən də geniş istifadə edilir. «Situasiya» anlayışı əvəzinə kontekstə uyğun «mühit, şərait» və ya «vəziyyət» anlayışından istifadə etmək daha doğru olmazdımı?

Bunu «priyom» anlayışı haqqında da söyləmək olar. Mövcud lüğətlərdə bu termin «yol», «üsul» kimi verilir. Pedaqoji ədəbiyyatda onu «tərz» kimi işlətmək olmazmı?

Müstəqillik dövrümüzdə şəxsiyyəti formalaşdıran amillər haqqında da mülahizə yürüdən müəlliflərə rast gəlmək olur. Belə ki, əsrlərlə formalaşan üç obyektiv amilə – irsiyyət, mühit, tərbiyə anlayışlarına subyektiv amil olan əmək və fəaliyyəti də artırmağa cəhd edildi (32). Əl-Fərabi, İbn Sina, Bəhməyar, Əl-Qəzali, Nizami, N.Tusi, Əli Xınalızadə, Didro, Ziya Göyalpa və s. düzəliş etməyə çalışan müəllif «əməyin», yəni şəxsiyyəti formalaşdıran 3-cü amilin – tərbiyənin vasitəsi olduğunu bilmirmi?

Tarixin bütün dönəmlərində «əmək» filosof və pedaqoqlarımız tərəfindən tərbiyənin vasitəsi kimi qiymətləndirilir.

Sovetlər birliyi dövründə şəxsiyyətin formalaşmasında akselerasiya prosesinin roluna da toxunulur. Pedaqoji ədəbiyyatda onun aşağıdakı üç mənbələri də göstərilirdi: 1) Müasir dövrdə insanların maddi rifah halının yüksəlməsi; 2) İnformasiya kanallarının insan həyatında geniş yer alması; 3) Bədən tərbiyəsi və idmanın kütlələr arasında geniş yayılması. «Kapitalist» adlandırılan ölkələrdə söylənilən daha iki mənbə - Yer kürəsində iqlim şəraitinin istiləşməsi və urbanizasiya proseslərinə isə tənqidi yanaşılırdı. Sonuncu amilə tənqidi münasibəti sovet alimləri aşağıdakı kimi əsaslandırırdılar:

«Kommunizm quruculuğu dövründə şəhərlə kənd arasındakı fərq getdikcə yox olur. Şəhər tipli kəndlər salınır. Kənd əhalisinin məişət şəraiti şəhər əhalisinin məişət şəraitinə uyğunlaşır». Bunun əksinə olaraq SSRİ dövründə də, elə indi də şəhərə axın açıq aydın görünməkdədir. Hal-hazırda şəhər mühiti doğrudan da akselerasiya prosesinə ciddi təkan verir. Elə isə bu gün akselerasiya prosesinin insan şəxsiyyətinin formalaşmasına göstərdiyi təsiri danmaq nə dərəcədə doğru hesab edilə bilər?

Bunu iqlim şəraitinin istiləşməsi amili haqqında da söyləmək olar. Alimlər isti iqlim şəraitinin insan orqanizminə təsirini bu gün də qeyd etməkdədirlər.

Rus və Azərbaycan dillərində çap edilən bir sıra mənbələrdə «özünütərbiyə» anlayışı da tərbiyə metodları sırasında araşdırılır.

Bunun yanlış yanaşma olduğunu sübut etmək üçün tərbiyə metoduna verilən tərifə nəzər salaq: «Tərbiyə metodları müəyyən olunmuş keyfiyyətləri şagirdlərdə tərbiyə etmək məqsədilə onların şüuruna, iradəsinə, hisslərinə, davranışına təsir göstərmək üçün nizama salınmış fəaliyyətdir» (46, s.338).

Deməli, tərbiyə metodu ikitərəfli fəaliyyətdir: valideyn və övlad, müəllim və şagird münasibətlərini əks etdirir. Kim isə kimi doğru yola yönlədir, fəaliyyətini tənzimləyir. Özünütərbiyə prosesində isə özü özünü tərbiyə edir ki, bu da özünənəzarət, özünəqiymət, özünütənqid vasitəsi ilə başa gəlir ki, bu da tərbiyə bölməsində yox, haqlı olaraq bir sıra mənbələrdə olduğu kimi «İnkişaf, tərbiyə və şəxsiyyətin frmalaşması» bölməsində araşdırılır.

Tərbiyənin qanun və qanunauyğunluqları probleminə aid də ziddiyyətli fikirlər söylənilir. Onu tərbiyənin prinsipləri ilə qarışıq salanlar da olur. Yadda saxlamaq lazımdır ki, qanun və qanunauyğunluqlar obyektiv, normativ qayda və nəzəriyyələrdir. Fəlsəfənin, fizikanın, kimyanın, biologiyanın və s. obyektiv qanunları olduğu kimi pedaqogikanın da özünəməxsus qanun və qanunauyğunluqları mövcuddur. Təəssüflə qeyd etmək lazımdır ki, pedaqogikanın əsas qanunu olan «tərbiyənin ictimai münasibətlərdən asılılığı» qanunu Azərbaycan dilində çap edilən dərslik və dərs vəsaitlərində əks olunmamışdır.

Tərbiyənin bu qanununu belə şərh etmək olar:

Hər bir dövrdə tərbiyənin məqsədi, vəzifələri cəmiyyətin sosial-iqtisadi, siyasi, mədəni həyat tərzinə uyğun müəyyənləşdirilir. Üstqurum olan məktəb, onun təlim və tərbiyə sistemi cəmiyyətin bazisi ilə şərtlənir. İbtidai icma quruluşundan başlayaraq, bu günümüzə qədər bu, normativ tələb kimi qəbul edilir. Bunun dərslik və dərs vəsaitlərində əks edilməsi indiki dövrümüzün əsas tələblərindəndir.

Bir sıra mənbələrdə tərbiyənin qanun və qanunauyğunluqları onun prinsipləri ilə eyniləşdirilir.

Mövcud pedaqoji ədəbiyyatda «qanun», «qanunauyğunluq» normativ qayda, nəzəriyyə kimi, prinsip anlayışı isə müəllim və tərbiyəçinin praktik fəaliyyətinə verilən metodiki tələb kimi səciyyələndirilir.

Zənnimizcə, rus dilində çap edilən pedaqoji ədəbiyyatda verilən qanun və qanunauyğunluqlar reallığı daha doğru əks etdirir. Bunları ümumiləşdirib aşağıdakı kimi təqdim etmək normativ qaydalara uyğun təsnifat kimi qəbul etmək olar: 1) Tərbiyənin ictimai münasibətlərdən asılılığı qanunu; 2) Təlim, təhsil, tərbiyə və inkişafın dialektik vəhdəti; 3) Tərbiyənin uşaq təbiətinə müvafiqliyi qanunu; 4) Pedaqoji prosesdə tərbiyənin məqsədi, vəzifələri, məzmunu, forma və metodlarının dialektik vəhdəti; 5) Pedaqoji prosesin həyatla, təcrübə ilə əlaqələndirilməsinin zəruriliyi.

Göstərilən təsnifatı bitmiş hesab etmək olmaz. Sosial-iqtisadi, siyasi, mədəni həyat tərzinə uyğun bunların daha da təkmilləşməsinə ehtiyac vardır.

Müstəqillik dövründə interaktiv təlim metoduna yanaşmalarda da yanlışlıq müşahidə edilir. Belə ki, onu Sovetlər sistemi süquta uğrayandan sonra meydana gələn yeni təlim metodu kimi qiymətləndirənlərə də rast gəlmək olur. Onlrala dissertasiya, monoqrafiya, dərslik və dərs vəsaitlərində ona «yeni təlim metodu» kimi yanaşan müəlliflər unudurlar ki, ötən əsrin 70-ciillərindən başlayaraq sovet təhsil sistemində tətbiq edilən «problemli təlim» metodu qərbdən əxz edilən «interaktiv təlim» metodu idi. Sovet alimləri Mahmutov, Skatnin, Lerner və s. «problemli təlim» adı altında onlarla monoqrafiya, tədris vəsaitləri, məqalələr çap etdirərək onu o dövrün tələblərinə cavab verən metod kimi qiymətləndirdilər. Nə üçün ötən əsrin əvvəllərində Dalton-plan sovet təhsil sisteminə ayaq açanda ona «briqada-laborator» metodu adının verilməsi pedaqoji ədəbiyyatda əks olundu, lakin «interaktiv» metodunun o dövrdə «problemli təlim» kimi təqdim edilməsinə pedaqoji ədəbiyyatda münasibət bildirilmir?

Sovetlər birliyi dövründə tətbiq edilən «problemli təlim» və «interaktiv təlim» metodlarının əsas tələbi şagirdlərə obyekt kimi yox, təlim prosesinin subyekti kimi yanaşmağı, təlimi evristik metod əsasında aparmağı tələb edir.

«İnteraktiv» sözü yunanca «inter» - qarşılıqlı, «aktiv» - fəal deməkdir. Yəni şagird – müəllim fəallığının təmin edilməsi.

Pedaqoji ədəbiyyatda həm «interaktiv», həm də «fəal təlim» anlayışı da işlədilir. Bunun da çaşqınlıq yaratdığı müşahidə edilir. «İnteraktiv» sözünün mahiyyətini başa düşməyənlər «fəal təlim» və «interaktiv təlim» metodlarını ayrı-ayrı metodlar kimi başa düşürlər.

Problemli və interaktiv təlim metodlarının adları müxtəlif olsalar da mahiyyət etibarı ilə onları aşağıdakı kimi səciyyələndirmək olar:

1. Düşünməyi öyrətmək, ümumiləşmələr aparmaq, mühakimə yürütmək, nəticə çıxarmaq bacarığı formalaşdırmaq;
2. Fakt və hadisələrə müstəqil münasibət formalaşdırmaq;
3. Müstəqil düşünmə, problemə yaradıcı yanaşma;
4. Fənlərarası əlaqələri düzgün qurmaq bacarığı formalaşdırmaq;
5. İnteraktiv dialoq, qarşılıqlı fəallığın təmin edilməsi;
6. Qarşılıqlı əməkdaşlığın təşkili;
7. Yaş dövrlərinə müvafiq didaktik oyunların təşkili;
8. Ünsiyyət və davranış təcrübəsi qazanmaq;
9. Şagirdləri qruplara bölərək diskussiya aparmaq;
10. Dairəvi söhbət;
11. Rollu oyunlar;
12. Qruplarda zəncirvari işin təşkili;
13. Yeni tədris materialı şərh edilmir, o, sonrakı dərsdə birgə müzvkirə edilir;
14. Müzakirələr sual-cavab əsasında həyata keçirilir və s.

Bütün bunlar pedaqoji ədəbiyyatda işlədilən anlayışlar sisteminə diqqətlə yanaşmapğı tələb edir.

### 1.4. Yeni dövrdə pedaqogika elminin strukturuna müxtəlif yanaşmalar

Müstəqillik əldə etdikdən sonra ayrı-ayrı elm sahələrində, o cümlədən də ictimai elmlərdə, nəzərə çarpacaq dəyişikliklər baş verdi. İdeoloji yanaşmalardan xilas olmaq cəhdi fəlsəfədə, tarixdə, ədəbiyyatda, pedaqoji elmlərdə, sosial

elmlərdə açıq-aşkar təzahür etməyə başladı. Cürbəcür elm sahələri üzrə ciddi araşdırmalar həyata keçirildi. Bu yolda nailiyyətlər də, çatışmazlıqlar da meydana gəldi. Tədris müəssisələrində bu və ya digər fənlərə layiqincə qiymət verilmədi. Tədris planlarında onlar öz layiqli yerini ala bilmədi. Bunu fəlsəfə elminin nümunəsində görmək mümkündür. Bütün elmlərin metodoloji əsasını təşkil edən fəlsəfə elmi bir sıra ali pedaqoji məktəblərdə tədris planından kənarda qaldı. Üzləşdiyim bir məsələni nümunə olaraq göstərmək istəyirəm.2014/15-ci tədris ilində Azərbaycan Müəllimlər İnstitutunda dövlət imtahanı zamanı biletə daxil edilən «Tərbiyənin hərəkətverici qüvvələri» sualına cavab verən tələbədən soruşandakı «Burada hansı dialekt qanuna əsaslanmaq lazımdır? Həmin ali məktəbdə çalışan imtahan komissiyasının üzvləri birağızdan cavab verdilər ki, onlar fəlsəfə elmini öyrənməmişlər».

Əgər gələcək müəllimlər «əksliklərin vəhdəti və mübarizəsi» fəlsəfi qanunu bilməyirlərsə, tərbiyənin hərəkətverici qüvvəsi olan ziddiyyətləri necə qiymətləndirə bilər?

İdrak nəzəriyyəsinin, onun mərhələləri və struktur elementlərinin nədən ibarət olduğunu bilməyən müəllimlər təlim prosesinin elmi əsaslarını həyata keçirə bilərmi?

Fəlsəfədə mövcud olan sistem-struktur yanaşma metodunun mahiyyətini dərk etmədən təlimin, elmi dünyagörüşün formalaşmasına nail olmaq olurmu?

Deməli, müəllim hazırlayan ali məktəblərdə əvvəlcə fəlsəfə elmini, daha sonra isə pedaqoji elmləri öyrənmək vacib tələbdir.

Bunu psixologiya elmi haqqında da söyləmək olar. Məktəblilərin psixoloji qanunauyğunluqlarını öyrənmədən təlim və tərbiyə prosesini səmərəli təşkil edib, həyata keçirmək mümkün deyildir.

Ali məktəblər bu qanunauyğunluqları nəzərə alaraq tədris planına əvvəlcə fəlsəfə, psixologiya elmlərini, daha sonra isə pedaqoji elmlərin daxil edilməsini nəzərdən qaçırtmamalıdırlar.

Bütün elm sahələrində fəlsəfənin formalaşdırdığı sistem-struktur yanaşma metodu mütləq şəkildə diqqət mərkəzində saxlanılır. Ümumelmi metodoloji tələb

olan sistemlilik prinsipinə əməl edilmədən nə bədii əsərlər, nə incəsənət nümunələri, nə elmi araşdırmaları həyata keçirmək mümkün deyil. Bütün sahələr üzrə tərtib edilən dərslik və dərs vəsaitləri də elə bu prinsip əsasında tərtib edilir. Dilin qrammatikasına dair  ən sadə bir misala müraciət edək.

Əgər şagirdlər fonetika bəhsini öyrənməsələr, morfologiya bəhsində sözlərin dəyişdirilməsi qaydalarını mənimsəməsələr, sintaksisdə sözlərin birləməsinin qanunauyğunluqlarını da qavraya bilməzlər. İsmi öyrənmədən feilin qaydalarını da mənimsəmək olmaz, ismi öyrənmədən sifət haqqında da məlumatı dərk edib yadda saxlamaq olmaz və s. Yəni bütün biliklər sistemli şəkildə ardıcıl olaraq bir-birinə məntiqi əlaqələrlə bağlanaraq öyrənməyə təqdim edilir. Bir bilik digərinin davamı olaraq şərh edilir ki, bunları da yadda saxlamaq mümkün olur. (sistem-struktur yanaşma metodu haqda 1.2. yarımfəslində məlumat əldə etmək olar).

Bəs müasir dövrdə pedaqogika elminə aid dərslik və dərs vəsaitlərində bu tələbə əməl edilirmi?

Bunu aşağıdakı şərhimizdə verməyi vacib hesab edirik. Belə ki, sovetlər sistemi dövründə pedaqogika fənninin öyrənilməsindən əvvəl «Pedaqogikaya giriş» fənni öyrədilirdi. Qardaş Türkiyə respublikasında da Nurəddin Fidan və Münürə Erdemin müəllifliyi ilə çap edilən «Egitimə giriş» fənni öyrədilir. Deməli, bizdə də əvvəlcə müəllim sənəti, onun cəmiyyətdə yeri haqda məlumat verilməli, müəllimin hüquq və vəzifələrinin nədən ibarət olduğu haqla biliklər təqdim edilməli, Təhsil Qanunu, əsasnamələr, məktəb nizamnamələrinin tələbləri ilə tanış edilməli, təhsilin hər pilləsi qarşısında duran vəzifələri öyrənməli və daha sonra pedaqogika elminin öyrənilməsinə başlanılmalıdır. Təhsil sisteminin qurulması prinsipləri, onun strukturunu və s. öyrənməyən gələcək müəllim öz işinin planlaşdırılması və onun elmi əsaslarla həyata keçirilməsində çətinliklərlə üzləşər və səhvlərə də yol verə bilər. Mövcud dərslik və dərs vəsaitlərində bu tələblərə əməl edilirmi?

Bütün çap edilmiş materiallarda müəllim haqqında məlumat ya verilmir, ya vəsaitin ortasında, ya da sonunda təqdim edilir.

«Pedaqogikanın ümumi əsasları»na da aydınlıq gətirməyə ehtiyac duyulur. Nə üçün bu fəsil «Pedaqogikanın ümumi əsasları» adlanır? Çünki orada araşdırılan bütün problemləri pedaqogikanın bütün fəsillərinə şamil etmək vacib tələbdir. Şəxsiyyətin formalaşması, pedaqogikanın metodoloji əsasları, tərbiyənin məqsədi və vəzifələrinə və s. aid verilən biliklərdən bütün bölmələrdə istifadə edilir. Bəzən bir sıra dərs vəsaitlərində tərbiyənin məqsəd və vəzifələri yarımfəsli yanlış olaraq «Tərbiyə nəzəriyyəsi» bölməsində araşdırılır. Didaktik prosesdə də, təhsilin idarı olunmasında da tərbiyənin məqsədi və vəzifələri diqqət mərkəzində dayanmalıdır.

Bir sıra dərslik və dərs vəsaitlərində əvvəlcə «Didaktika» bəhsi, sonra isə «Tərbiyə nəzəriyyəsi» bölməsi araşdırılır ki, bu da sistemlilik və ardıcıllıq ümumelmi metodoloji prinsipinin tələblərinə uyğun gəlmir (1; 11; 31; 46).

Əgər tələbə əxlaq tərbiyəsi, onun məzmunu, əxlaqi dəyərlərin mahiyyəti haqqıda «Tərbiyə nəzəriyyəsi» bölməsində əsaslı bilik əldə etməsə, didaktik prosesdə əxlaq tərbiyəsinin həyata keçirilməsi metodikasmını necə qavraya bilər?

Fiziki tərbiyə, estetik tərbiyənin mahiyyəti, məzmunu, məqsəd və vəzifələrini öyrənmədən bunların həyata keçirilməsi metodikasını qavramaq olarmı?

Bunu dünyagörüşü bölməsinə də şamitl etmək olar. Dünyagörüşün mahiyyət və məzmunu, onun formalaşması strukturunu öyrənmədən bu prosesi həyata keçirmək çətin olar. Deməli, bunları «Tərbiyə nəzəriyyəsi» bölməsini sistemli şəkildə hərtərəfli öyrənmək lazımdır ki, didaktik prosesi, məktəbin idarə edilməsini elmi əsaslarla izah etmək mümkün olsun.

Müstəqillik dövründə bir sıra dövlətlərin təcrübəsinə əsaslanaraq pedaqogikanın «Tərbiyə nəzəriyyəsi» bölməsinin lazımsız bölmə olduğunu iddia edənlər də tapıldı. Onların fikrincə, respublikamızda «Təhsil Nazirliyi» qurumu bir anlayış kimi qəbul edilib və fəaliyyət göstərirsə, didaktik prosesdə tərbiyə həyata keçirilirsə, «Tərbiyə böməsinin» araşdırılmasına nə ehtiyac vardır? Bu sualın cavabını elə yuxarıda söylədiymiz fikirlə vermiş oluruq. İkinci bir tərəfdən də ta qədim dövrlərdən başlayaraq bu dövrümüzə qədər yaşayıb yaradan filosof və pedaqoqların pedaqoji irsinə diqqət yetirmək kifayətdir ki, belə mülahizələrin

yanlış olduğunu görmək mümkün olsun. Zehni, əxlaq, əmək, fiziki tərbiyə haqqında Aristotel, Əl-Fərabi, İbn-Sina, Bəhmənyar, Nizami, Əl-Qəzali, N.Tusi, bütün Avropa pedaqoqlarının pedaqoji irsində tərbiyəyə dair söylənilən mülahizələr tərbiyə bölməsinin vacib tələb kimi dərsliklərdə əks edilməsini tələb edir.

Bu ideya islam dinində də özünə layiqli yer qazanmışdır. O dövrdə «Əxlaq elmi» kimi təqdim edilən «tərbiyə» anlayışı cəmiyyətin sosial sifarişi kimi qəbul edilmişdir. Qurani-Kərimin demək olar ki, bütün surə və ayələri tərbiyə elmini əks etdirir. Dinimizdə «əxlaq elmi» bütün elmlərin ən şərəflisidir» kimi qiymətləndirilir (9, s.15-16).

Hələ ötən əsrin əvvəllərində türk sosioloqu Ziya Göyalp yazırdı: «Təhsilləndirici təlimlə yanaşı tərbiyəedici təlim də vardır ki, bu cür təlimin məqsədi hər bir şəxsin cəmiyyətə qulluq etməsi, onun dəyərlərinə uyğun davranmasıdır» (56, s.24).

Deyilənlərdən belə nəticə hasil olur ki, «Tərbiyə nəzəriyyəsi» pedaqogikanın ən aparıcı bölməsidir. Bu nəzəriyyənin mahiyyət və məzmununu öyrənmədən pedaqoji prosesi elmi əsaslarla həyata keçirmək mümkün olmaz.

## 1.5. Müstəqillik dövründə dünyagörüşü probleminə yeni yanaşmalar.

Tarixin bütün dönəmlərində insanlara elmi dəyərlərin aşılanması filosof və pedaqoqların diqqqət mərkəzində olmuş, onun insan həyatındakı rolunu yüksək qiymətləndirmişlər. Şərqin görkəmli filosofları Əl-Fərabi, İbn Sina, Bəhmənyar, Əl-Qəzali, N.Tusi və s. həyatda baş verən bütün qəbahətlərin savadsızlıq ucbatından baş verdiyini söyləmişlər. Şər əməlləri yox etmək üçün insanları elm öyrənməyə səsləyirlər. Elmi biliklər əldə etməyi insanları xoşbəxtliyə aparan yol kimi qiymətləndirmişlər. Əl-Fərabi qeyd edir ki, elmi biliklər sayəsində insanlar təbiətin, cəmiyyətin sirlərinə yiyələnir, özünün və başqalarının davranış və hərəkətlərindəki özəllikləri və eybəcərlikləri, yaxşı ilə pisi qiymətləndirə bilir (67, s.217).

İbn Sina yazır: «…ləyaqətdən, biliklərdən uzaq olanlar cahilliyə uğramış olur, tez də qüsur və nöqsanlara düçar olurlar» (58, s.11).

Belə misallardan istənilən qədər nümunələr vermək mümkündür.

Deməli, elmi dünyagörüşün insanlarda formalaşması bu günümüz üçün də aktual problem olaraq qalmaqdadır. Mövcud elmi əsərlər, dərslik və dərs vəsaitlərində bu problemə yanaşma necədir?

Sovetlər birliyi dövründən başlamış bu günümüzə qədər, demək olar ki, bu problem toxunulmamış qalmışdır. M.F.Axundov adına Respublika kitabxanasının kataloqunu araşdırarkən bu problemə dair Azərbaycan dilində yalnız ateist tərbiyəsinə həsr udilmiş onlarla tədqiqat əsəri, monoqrafiyalara rast gəlmək mümkündür.

Müstəqillik əldə etdikdən sonra «ateizm» anlayışı da öz mahiyyətini itirdi. Plüralizm prinsipinin bərqərar olmasından sonra dindəki ümumbəşəri dəyərlərdən də geniş istifadə olunmağa başlandı. Dinə qarşı barışmaz mövqe aradan qaldırıldı. 1964-cü ildə M.Ə.Muradxanovun redaktəsi ilə çap edilmiş «Pedaqogika» adlı dərs vəsaitində dünyagörüşünə həsr edilmiş materialda da ideoloji yanaşma ön plana çəkilmiş, problem materializm və idealizm cərəyanları arasında gedən mübarizə kimi şərh edilmişdir ki, burada dünyagörüşün mahiyyət və məzmununa, onun formalaşması metodikasına dair heç bir məlumat əldə etmək mümkün olmur.

1996-cı ildə M.Kazımov və Ə.Haşımovun müəllifliyi ilə çapdan çıxan «Pedaqogika» adlı dərs vəsaitində yeni dövrün tələbləri nəzərə alınmamış, dünyagörüşü probleminə ideoloji yanaşma yenə də ön plana çəkilmişdir.

Şagirdlərin elmi dünyagörüşünün formalaşması məktəb qarşısında duran ən vacib bir vəzifə olsa da, pedaqogika üzrə dərslik və dərs vəsaitlərində bu problemə ya heç toxunulmur, ya məhdud şəkildə bilik verilir, ya da yanlış yanaşmalar özünü göstərir.

N.Kazımovun «Milli pedaqogika yollarında» adlı kitabında dünyagörüşünə belə tərif verir: «təbiət və cəmiyyət hadisələrini adamın dərk etməsinə, fəaliyyət göstərməsinə istiqamət verən vahid baxışlara dünyagörüşü deyilir» (s.313). Müəllif burada «insan şüurunun qanunauyğunluğu» ifadəsini unudur. Sovetlər birliyi

dövründə çap olunmuş dərs vəsaitlərində dünyagörüşünə verilən tərifin mahiyyətini təhrif edərək yazır: «Dünyagörüşünə verilmiş bu təriflə milli pedaqogika razılaşa bilməz. Əvvəla, təbiət, cəmiyyət və təfəkkür elə dünya deməkdir, mahiyətcə eyniyyət təşkil edən anlayışların təkrarlanması tərifin yüklənməsinə səbəb olur. İkincisi, dünyagörüşü bütün elmlərə, ictimai şüurun ayrılıqda bütün formalarına müraciət etmək düzgün hesab edilə bilməz. Çünki fəlsəfi baxışlar da, yaxud estetik baxışlar da müxtəlif ola bilər» (32, s.311-312).

Müəllif burada elmi dünyagörüşü ilə digər dünyagörüşləri eyniləşdirir. Dini dünyagörüşü, kommunist dünyagörüşü və s. ümumbəşəri mahiyyət kəsb etmədiyindən onları elmi adlandırmaq olmaz. Müəllifin tənqid etdiyi müəlliflərin elmi dünyagörüşünə verdikləri tərifləri qüsurlu saymaq heç bir elmi əsaslara söykənmir.

Müəllifin söylədiyi «dünyagörüşü bütün elmlərə, ictimai şüurun ayrılıqda bütün formalarına müncər etmək düzgün hesab edilə bilməz» ifadəsini də məqbul hesab etmək olmaz. Ümumbəşəri mahiyyət kəsb edən əxlaqi və estetik dəyərləri elmi dünyagörüşündən ayrılıqda təsəvvür etmək mümkün deyil.

Müəllif burada da elmi dünyagörüşü digər ideologiyaları əks etdirən dünyagörüşlərlə eyniləşdirdiyi nəzəri çəkir. Bu tərifdə müəllifin söylədiyi «təbiət, cəmiyyət və təfəkkür elə dünya deməkdir» ifadəsi də qüsurludur. Ayrı-ayrı məzmun kəsb edən «təfəkkür» və «şüur» anlayışlarını eyniləşdirir. Tərifdəki «insan şüurunun qanunayuğunluqları» ifadəsini qarışdırır. Şüurun formaları olan dini, əxlaqı, fəlsəfəni, hüququ, psixologiyanı, mədəniyyəti, incəsənəti təbiətin inkişaf qvnunauyğunluqları ilə necə eyniləşdirmək olar?

Mövcud fəlsəfi və pedaqoji ədəbiyyatda elmi dünyagörüşün tərifi dövrün tələblərinə uyğun aşağıdakı kimi verilir: Elmi dünyagörüşü təbiət, cəmiyyət və insan şüurunun qanunauyğunluqlarına aid bilik, baxışlar, ideyalar sistemi, şəxsiyyətin bunlara münasibəti və mövqeyidir (72, s.365).

Əgər əldə edilən biliklərə, fakt və hadisələrin mahiyyətinə münasibət bildirilmirsə, şəxs, fərd öz mövqeyini bunlara göstərə bilmirsə, bu bilikləri elmi dünyagörüşü adlandırmaq olmaz.

Elmi-dünyagörüşü düşünmə tərzi, ətraf aləmə, fakt və hadisələrə, şüur və onun formalarına münasibətdir.

Müasir pedaqogika elmində elmi dünyagörüşün keyfiyyət əlamətləri aşağıdakı kimi səciyyələndirilir:

1) Dünyagörüşün elmiliyi və müəyyən ideya, məzmun kəsb etməsi;
2) Onun sistemliliyi, ardıcıllığı, tamlığı və bütövlüyü;
3) Məntiqi ardıcıllığı və arqumentliliyi;
4) Aydınlığı, konkretliliyi;
5) Onun həyatla, fəaliyyətlə əlaqəsi.

Mövcud pedaqoji və psixoloji ədəbiyyatda elmi dünyagörüşün formalaşması strukturuna da münasibət birmənalı deyildir. Bir sıra müəlliflər elmi dünyagörüşün formalaşması strukturu ilə onun məzmununu eyniləşdirməyə cəhd göstərir. Bu prosesdə üfuqi və şaquli sferaların olduğunu qeyd edirlər (70, s.41-42).

V.V.Boquslovskinin redaktəsilə 1973-cü ildə çap edilmiş «Obşaya psixologiya» tədris vəsaitində də dünyagörüşün formalaşması strukturuna münasibətdə yanlışlıq müşahidə edilir. «Əqidə» elmi dünyagörüşünün struktur elementi olduğu halda «elmi dünyagörüşün əqidəyə çevrildiyi» göstərilir (69, 73).

Bu cür çaşqınlıqlar ötən əsrin 70-ci illərində fəlsəfə elmində formalaşan sistem-struktur yanaşma metodu haqqında müəyyən olunmuş metodoloji prinsiplərə əməl olunmaması ilə bağlıdır. Sistem-struktur yanaşma metodunun tələblərinə əməl edilmədən elmi dünyagörüşün düzgün istiqamətdə formalaşmasına nail olmaq mümkün deyil. Bunun üçün fəlsəfi ədəbiyyatda sistemin və strukturun nə olduğunu bilmək vacib şərtdir.

Fəlsəfi ədəbiyyatda bu aşağıdakı kimi şərh edilir: Eyni keyfiyyət, əlamət, məzmun və mənaya malik, qohum əlaqələrlə bağlı olan elementlər birliyi, onların əlaqələri sistem adlanır. Bu əlaqələr zəncirvari bütöv bir sistem yaradır. Tanınmış filosof V.Q.Afanasyevin yazdıbına görə «qarşılıqlı əlaqələri yeni keyfiyyət yaradan obyektlər birliyi sistem adlanır. Struktur isə sistemin daxili formasıdır. O, elementlərin qarşılıqlı əlaqə və qarşılıqlı təsir tərzini əks etdirir» (64, s.19-24).

Bu qaydaya müvafiq elmi dünyagörüşün formalaşması strukturunu müəyyən etmək vacib tələbdir.

O dövrdə rus dilində çap edilmiş bir sıra pedaqoji ədəbiyyata nəzər salaq. XX əsrin II yarısında pedaqogika elmində dünyagörüşü üzrə tanınmış simalardan olan E.İ.Monoszon və R.M.Roqovanın problem üzrə çapdan çıxmış əsərlərinə nəzər yetirək (71; 73). Bu müəlliflərin elmi dünyagörüşün formalaşması strukturuna dair söylədikləri mülahizələrə müraciət edək. Onlar elmi dünyagörüşün formalaşması strukturunu aşağıdakı kimi təklif edirlər:

1) Dünyagörüşün intellektual sferası. Buraya anlayış, bilik, baxış, əqidə aid edilir.

Bu strukturu elmi dəyərlərə söykənən real yanaşma olaraq qəbul etmək olar. Çünki anlayış olmadan elmi dünyagörüşün əsası olan biliklər də əldə etmək mümkün deyil. Bilik olmadan baxış və əqidə də formlaşdırmaq olmaz. Bu elementlər birliyi doğrudan da sistem yaradır. Çünki onun daxili quruluşundakı elementlər yeni keyfiyyət yaradır. Bir element sonrakı elementin yaranmasına şərait yaradır.

2) Dünyagörüşün emosional-iradi sferası.

Buraya müəlliflər ideal, qiymətvermə motivləri daxil edirlər. Buradakı «ideal» anlayışın birinci sferanın sonuncu struktur elementi kimi qəbul etmək daha doğru olardı. «İdeya» sözündən əmələ gələn «ideal» anlayışı mövcud pedaqoji ədəbiyyatda elmi dünyagörüşün formalaşmasının yüksək struktur elementi kimi qiymətləndirilir. Sovetlər birliyi dövründə rus dilində çap edilən bütün dərslik və dərs vəsaitlərində «elmi ideyalılıq dünyagörüşü səciyyələndirən ən vacib struktur elementi» kimi qiymətləndirilir.

Bunu dahilərin söylədikləri aşağıdakı misallarla da sübut etmək olar.

Dahi Azərbaycan şairi Səməd Vurğun özünün «Məslək eşqi və gənclik» adlı əsərində yazır: «Öz məsləki uğrunda odlardan və alovlardan keçən, həyatının şəxsi mənasını məslək vüqarına qurban verən insanların xatirəsi tarix üçün daima əziz olmuşdur. Yer kürəsinin fırlanmasını sübut edən Qaliley ölüm cəzasına məhkum edildiyi zaman son nəfəsində: «Mən yer fırlanmır desəm də, o fırlanır» kimi qısa

və mənalı cavabı ilə inandığı elmi həqiqəti can qorxusuna, can qeydinə qurban vermədi.

Böyük Azərbaycan şairi Nəsimini diri-diri soyduqları zaman ona istehza ilə «Rəngin niyə saralmışdır» deyənlərə: «Günəş batdığı vaxt rəngi saralır» - cavabını vermişdi. İnsan iradəsinin bu böyük Günəşini yaradan yalnız məslək eşqi olmuşdur» (49, s.149).

Müəllifin «məslək» ifadəsi «ideya» anlayışının sinonimi kimi işlədilmişdir. «İdeya» anlayışı haqqında Karl Marks yazır ki, «ideya fikrimizə hakim kəsilir, əqidəmizi özünə tabe edir. O, elə bir kəmənddir ki, ürəyi parçalamadan ondan xilas olmaq olmaz» (65, s.118). Bu iqtibaslardan aydın görünür ki, ideya günyagörüşün ən yüksək struktur elementidir. İnsan onun şüurunda formalaşan ideyaların təsiri altında fəaliyyət həyata keçirir.

Bu sferada qeyd edilən «qiymətvermə» anlayışı birinci sferada göstərilən «baxış» elementi ilə üst-üstə düşür.

3) Dünyagörüşün fəaliyyət sferası.

Müəlliflər buraya davranış, hərəkət və fəaliyyəti daxil edirlər.

Bu sfera da mübahisə doğurur. Çünki dünyagörüşü lazımi şəkildə formalaşmadıqda nə ikinci sferada göstərilən motiv formlaşar, nə də motivdən yaranan hərəkət, fəaliyyət həyata keçirilə bilər. Deməli, motiv, fəaliyyət, davranış dünyagörüşün məhsulu kimi qiymətləndirilə bilər.

Buradan belə bir nəticəyə gəlmək olur ki, dünyagörüşün formalaşması metodikasını üfüqi və şaquli sferalara bölməyə ehtiyac yaranmır. Mövcud fəlsəfi ədəbiyyatda üfüqi əlaqələr eyni tipli, eyni səviyyəli komponentlər arasındakı əlaqələr nəzərdə tutulur. Şaquli əlaqələr isə növlər, tiplər arasında əlaqələr nəzərdə tutulur (75, s.135). daha ətraflı məlumatı rus dilində çap etdirdiyimiz «ümumbəşəri dəyərlərin mənimsənilməsi əsasında yuxarı sinif şagirdlərinin elmi dünyagörüşünün formalaşması» vəsaitindən əldə etmək olar (66).

Elmi dünyagörüşün formalaşması prosesində şaquli əlaqələri əsas götürmək daha məqsədəuyğundur. Çünki bilik əldə etmədən, onu duyub dərk etmədən əldə

edilən biliklərə baxış da formalaşdırmaq mümkün deyil. Baxış olmadan əqidə də formalaşdırmaq olmaz, əqidə olmayan yerdə ideya da yoxdur.

Şaquli və üfüqi əlaqələri ayrı-ayrı fənlərin öyrənilməsi prosesində, siyasi və dəqiq elmlərdə, idarəetmədə müvəffəqiyyətlə tətbiq etmək olar. Öz hiyləgərliyi ilə məşhur olan ermənilər «Dağlıq Qarabağ Azərbaycanla üfiqi əlaqələrlə birgə yaşaya bilər» təklifi də bu ideyaya söykənir. Bu o demək idi ki, Azərbaycan dövləti kimi bizim də müstəqil xarici və daxili siyasətimiz, pul vahidimiz və s. olmalıdır.

Deyilənləri nəzərə alaraq elmi dünyagörüşünün formalaşmasının strukturunu aşağıdakı kimi müəyyən etmək olar:

Bilik (dünyagörüşün əsasıdır) – dərketmə – baxış (yəni qiymətvermə bacarığı) – əqidə - ideya. Bu struktura uyğun elmi dünyagörüşünü formalaşdırmaq daha asan başa gələ bilər.

Elmi dünyagörüşünün formalaşmasında rasional-məntiqi və emosional-obrazlı dərketmənin də rolu böyükdür.

Rasional-məntiqi dərketmədə dəqiq elmlərin öyrənilməsi, emosional-obrazlı dərketmədə isə bədii nümunələr, incəsənət nümunələri vasitəsilə reallığın dərk edilməsi həyata keçirilir.

### 1.6. Müasir dövrdə siyasi mədəniyyət tərbiyəsinə yeni yanaşmalar

Son illərdə cəmiyyətdə gedən iqtisadi, ictimai-siyasi dəyişikliklər siyasi mədəniyyət tərbiyəsinə yeni münasibət formalaşdırmağı tələb edir. Bu da təsadüfi deyildir. Çünki Sovetlər birliyi dövründə (1917-1992) siyasi tərbiyə ümumbəşəri siyasi biliklərin öyrənilməsinə yox, yalnız kommunist ideologiyasının təbliğinə yönəlirdi. Yuxarıda qeyd etdiyimiz kimi, o tərbiyənin yeni bir tərkib hissəsi kimi qiymətləndirilirdi. Kommunist hakimiyyəti avtoritar siyasət həyata keçirməklə, öz ideologiyasını gənc nəslə də aşılamağa çalışırdı. Təlim və tərbiyə ocaqları da ideoloji mübarizələr məkanına çevrilmişdir. Bu səbəbdən də yeni dövrdə bu problemə neqativ münasibət formalaşmış, müstəqillik dövrümüzdə o diqqətdən kənarda qalmışdır. Elmi-tədqiqat işlərində, dərslik və dərs vəsaitlərində siyasi

mədəniyyət tərbiyəsi kölgədə qalmışdır. Lakin həyat göstərir ki, bu problem bu günümüz üçün də aktual olaraq qalmaqdadır. Ümumbəşəri dəyərləri əks etdirən siyasi bilikləri gənc nəslə aşılamasaq, gələcək politoloqların yetişməsində əvəzsiz rol oynaya bilər. Hələ XIII əsrin dahi mütəfəkkiri Nəsrəddin Tusi yazırdı: «Həkim Aristatolis siyasəti dörd qismə ayırmışdır: Ölkə siyasəti, qələbə siyasəti, karamət siyasəti (K.M. insanlara sənət vermə mənasında), camaat siyasəti. Ölkə siyasəti bütün siyasətləri əhali arasında yayır və hər təbəqəni özünəmüvafiq siyasətlə idarə edir. Beləliklə, onların daxili qabiliyyətlərinin zahiri işə çevrilməsinə nəzarət edir» (43, s.175-176).

Daha sonra o qeyd edir ki, dövlət əhalinin bütün təbəqələrini siyasi biiklərlə silahlandırmalıdır ki, hər kəs öz hüquq və vəzifələrini aydın təsəvvür etsin, səhvlərə, qəbahət işlərə yol verməsin. O yazır: «Ünsiyyət və əlaqə yalnız o zaman baş tutar ki, nəyin nizama aparıb çıxarmasını, nəyin pozğunluğa səbəb olacağını, hər kəslə təkbətək necə davranmaq lazım olduğunu öyrədən elmi  yaxşı biləsən. Bu elm ictimaiyyat elmidir. Deməli, hamı bu elmi öyrənməyə səy etməlidir ki, fəziləğ sahibi olmağı bacarsın; əks halda rəftar, müaşirət və davranışda səhvlərə yol verilər, dünyada qanunsuzluqlar olar» (43, s.177).

Siyasi mədəniyyət tərbiyəsinin bütün dövrlər üçün aktual olduğunu dahilərin söylədikləri aşağıdakı misallarla da təsdiq etmək olar.

Qədim yunan filosofu Aristotel özünün «Siyasət» əsərində qeyd edirn ki, hər bir dövlət başçısı gənclərin siyasi tərbiyəsinə xüsusi diqqət ayırmalıdır. Bu məsələ diqqətdən kənarda qalarsa, bu zaman dövlət ziyanlarla üzləşə bilər. Düzgün həyata keçirilən tərbiyə sistemi dövlətçiliyin qorunmasına da xidmət edə bilər (74, s.35).

Şərqin görkəmli filosofu Əl-Fərabi siyasət elminin mərkəzinə insan faktorunu qoyur. Onu cəmiyyətdə hərəkət və davranış qaydalarını etik normalar çərçivəsində araşdırır. Etika və siyasət elmlərinin sıx əlaqədə olduğunu söyləyir. O qeyd edir ki, əgər etika əxlaqi dəyərləri, şəxsiyyətin iradə və davranışını araşdırırsa, siyasət elmi cəmiyyət, dövlət məsələlərini əxlaqi dəyərlərlə birgə araşdırır. O qeyd edir ki, insan yaxşı əməllər üçün dünyaya gəlir ki, bu da yaxşı əməllərə adət etməklə başa gəlir (67, s.24-25).

Görkəmli türk mütəfəkkiri Əli Xınalızadə (1510-1572) özünün «Əxlaqi-Əlayi» əsərində siyasi mədəniyyət tərbiyəsini dövlət əxlaqı kimi qiymətləndirir. Hər kəsin bu elmə yiyələnməsini vacib şərt hesab edir. O qeyd edir ki, insanların cəmiyyətdə fəaliyyətinə görə bir-birinə bağlı olması, bir-birinin kömək və yardımına ehtiyacı olması onların bir araya gələrək davranması, həmrəylik şəraitində yaşaması vacib şərtdir. Cəmiyyətdəki problemləri təkbaşına həll etmək mümkün deyildir. Onun üçün cəmiyyətdə yaşayan hər bir fərd bu bağlılıqda öz öhdəsinə düşən hər bir vəzifəni layiqincə yerinə yetirməlidir ki, ölkənin firavanlığına lazımi töhvə verə bilsin. İnsanlar da bir arada yaşayıb bir-birinə yardım və qulluq etməyə borcludurlar (3, s.431).

Deyilənlər bir daha sübut edir ki, siyasi mədəniyyət tərbiyəsi bu günümüz üçün də aktual problem olaraq qalmaqdadır. Onun pedaqoji ədəbiyyatda geniş şərhinə ehtiyac vardır. Elmi-texniki tərəqqinin yaratdığı imkanlardan istifadə edərək onun məzmununa, forma, metod və vasitələrinin təkmilləşməsinə xüsusi diqqət ayırmaq dövrümüzün əsas tələblərindəndir.

Hazırkı dövrün siyasi mədəniyyət tərbiyəsinin əsas məqsədi gənc nəsli vətənin, xalqın mənafeyinə xidmət edən ideyalarla, ümumbəşəri siyasi biliklərlə silahlandıraraq vətənpərvər, multikulturalizm ideyalarına sadiq olan şəxsiyyətlər yetişdirməkdən ibarətdir. Onun məzmununa aşağıdakı məsələlər daxil edilir:

- hər bir şagirdə ümumbəşəri və mütərəqqi, milli dəyərlərə əsaslanan siyasi biliklər aşılamaq;
- cəmiyyətin ehtiyacına yönələn əmək növlərinə hörmətlə yanaşmaq və hər hansı bir əmək fəaliyyətinə hazır olmaq;
- doğma yurdun, xalqın səadəti və azadlığı, Respublikamızın suverenliyi, ərazi bütövlüyünü qorumağa hazır olmaq;
- uşaqları ədalətli ideyalar sisteminə tərəfdar olmaq, həm də bu ideyalara sadiq qalmaq ruhunda tərbiyə etmək;
- onlarda şüurluluğu, vətəndaşlıq hisslərini və ictimai fəallığı artırmaq;
- neqativ fakt və hadisələrə qarşı barışmaz olmaq;
- döyüş və əmək ənənələrini qoruyub inkişaf etdirmək;

- şagirdlərin ictimai aktivliyini artırmaq üçün səmərəli forma və metodlardan istifadə etmək və s.

Hazırkı dövrdə siyasi mədəniyyət tərbiyəsini vətənpərvərlik və beynəlmiləlçilik tərbiyəsindən ayrı təsəvvür etmək mümkün deyil. Vətənpərvərlik və beynəlmiləlçilik tərbiyəsi əxdaqi dəyərlər olsalar da, onları dövlət siyastindən ayrı təsəvvür etmək mümkün deyil.

Multikulturalizm ideyalarına sadıq olan dövlətimiz bu istiqamətdə səmərəli siyasət həyata keçirməkdədir. Torpağımızın 20%-dən çoxunun erməni işğalı altında olduğu bir dövrdə vətənpərvərlik, hərbi vətənpərvərlik tərbiyəsi xüsusi aktuallıq kəsb edir. Elmi ədəbiyyatda, dərslik və dərs vəsaitlərində bu problem lazımi səviyyədə işıqlandırılmır. Bu istiqamətdə elmi araşdırmaların da aparılmasına ehtiyac duyulmaqdadır.

Vətənpərvərlik ümumbəşəri və tarixi bir kateqoriyadır. Onun əsas vəzifəsi vətənə, xalqa, torpağa bağlılıq hisslərinin, dilimizə, mədəniyyətimizə, tariximizə, adət-ənənələrimizə hörmət və qayğı hislərinin formalaşmasından ibarətdir.

Lakin Sovetlər birliyi dövründə ona ideoloji don geydirməyə çalışmaq dövlət siyasətinə çevrilmişdir. Elmi ədəbiyyatda sovet, sosialist vətənpərvərliyi anlayışları geniş vüsət almışdır. Sovet ideoloqları vətənpərvərliyi sovet dövlətinə sadiqlik, sevgi, məhəbbət prizmasından yanaşaraq onu "sovet vətənpərvərliyi" kimi səciyyələndirirdilər.

Ötən əsrin ortalarında cürbəcür dövlətlərdə hərbi çevrilişlər etməklə dünyada sosializmin qalib gəldiyini iddia edən kommunist rejimi "sosializm vətənpərvərliyi" ideyalarının təbliğinə geniş yer ayırırdı. Gənc nəslin sosializm ideyalarına sadiqlik ruhunda tərbiyə etmək dövlət siyasətinə çevrilmişdir ki, bu da vətəepərvərlik anlayışının ümumbəşərliyinə kölgə salmış olurdu.

Vətənpərvəlik, torpağa bağlılıq tarixin bütün dönəmlərində insanların qanına, canına hopmuş və ümumbəşəri dəyər kimi bu gün də yaşamaqdadır. Görkəmli türk sosioloqu, dövlət xadimi Ziya Göyalpın təbirincə desək, «Onun yüksək olması milli həmrəyliyimizin özülüdür, təməlidir» (55, s.75).

Müstəqillik dövrümüzün ən aktual problemi kimi vətənpərvərlik tərbiyəsinin dövrün tələblərinə cavab verən müxtəlif forma, metod və vasitələri mövcuddur. Lakin bunların sırasında şüur və əqidəni formalaşdıran metodun vasitəsi olan nümunənin rolu əvəzsizdir. Xalqımızın döyüş və qəhrəmanlıq ənənələri əsasında vətənpərvərlik tərbiyəsi xüsusi yer tutur. Türk xalqlarının keçmişi, bu günü, azadlıq mücahidlərinin, Böyük Vətən müharibəsi, Qarabağın azadlığı uğrunda şəhid olan qəhrəmanlarımızın nümunələri bu gün ən dəyərli tərbiyə vasitəsi hesab edilə bilər.

Türk tayfalarından olan Hun dövlətinin başçısı Mete Xaqanın qəhrəmanlıq nümunəsi bu günkü gənclərimizin vətənpərvərlik tərbiyəsində ən dəyərli vasitədir. Mete Xaqanın qəhrəmanlıq nümunəsini əks etdirmək üçün şagirdlərə aşağıdakı hadisənin öyrədilməsini vətənpərvərlik tərbiyəsinin əsas vasitəsi hesab etmək olar. Tunquz xanı müharibə elan edib Hun torpağını tutmaq məqsədilə bəhanələr axtarır. Mete Xaqandan onun atını istəyir. Mete Xaqan xalqını müharibənin müsibətlərinə məruz qoymamaq üçün şəxsi atını Tunquz xana göndərir. Tunquz xanı bununla kifayətlənməyib Mete Xaqandan onun çox sevdiyi kənizini istəyir. Mete Xaqan buna da razılıq verir. Üçüncü dəfə Tunquz xanı Mete Xaqandan torpaq sahəsinin verilməsini istəyir. O zaman Mete Xaqan ərənləri döyüşə səsləyərək deyir: «Torpaq bizim vətənimizidr. Vətən isə bizim mülkümüz deyildir. Heç kəsə bir qarış da olsa torpaq verməyəcəyik», - deyərək düşmən üzərinə hücum çəkərək qalib gəlir (55, s.114).

Vətənpərvərlik, xüsusilə də hərbi vətənpərvərlik tərbiyəsində, nümunənin rolu haqqında gənc nəslə Böyük Vətən müharibəsi ilə Qarabağ müharibəsi qəhrəmanlarının şücayəti haqqında həm tədris prosesində, həm də sinifdənxaric tədbirlərdə məlumat vermək məktəb qarşısında duran ən vacib vəzifələrdəndir. Həzi Aslanov, İsrafil Məmmədov, Mehdi Hüseynzadə, Qarabağ qəhrəmanları, dost xalqların mərd oğulları İskəndər (türk), Aqaronov (yəhudi), Kovalyov (rus) və digərlərinin nümunəsi ən təsirli tərbiyə vasitələrindəndir.

Müstəqillik dövründə belə qəhrəmanların nümunəsi Azərbaycnda vətənpərvərlik tərbiyəsinin beynəlmiləl mahiyyət kəsb etməsinin bariz

nümunəsidir. Vətənimiz burada yaşayan yəhudilərin də, talışların da, ləzgilərin də, tatların da, kürdlərin də, türklərin də doğma yurdudur. Ona görə də Qarabağ müharibəsi başlayanda bütün xalqların nümuyəndələri bir yumruq kimi birləşərək erməni qəsbkarlarına qarşı  ayağa qalxdılar. Yüzlərlə qəhrəmanlar yetişdirərək, Azərbaycanda vətənpərvərliyin kütləvi xarakter aldığını nümayiş etdirdilər.

Azərbaycanda vətənpərvərliyin kütləviliyi haqqındla daha bir hadisənin gənc nəslə çatdırılması onlarda vətənə, torpağa bağlılıq hisslərini daha da gücləndirə bilər.

Üç vətənpərvər məktəblinin kəsib saxladığı qəzet materiallarını da bu kitaba daxil etməyi vacib hesab etdik.

## BALACA DÖYÜŞÇÜLƏR

Bakıda, mikrorayondakı Binəqədi kuçəsində yaşayan Anarın 14, Əzimin və Adilin isə 13 yaşı var. Dostlar bir gün yoxa çıxdılar. Binanın sakinlərinin narahatlıq hissini başa düşmək çətin deyildi...

...Təşəbbüskar Əzim oldu. Anar və Adil də ona qoşulub evdən qaçdılar və... Qarabağa, döyüşə yollandılar. Valideynlərinin, qohumlarının narahatlıq keçirdikləri günlərdə dostlar Cəbrayıl rayonunda döyüşçülərə kömək edirdilər.

Bu günlərdə Anar və Əzim redaksiyaya gəlmişdilər. Çoxlu «dəyüş epizodu» danışdılar...

Əziz uşaqlar, biz sizin də, döyuşçülərə kömək edən yaşıdlarınızın da vətənpərvərlik hisslərini yüksək qiymətləndiririk. Ancaq valideynləri, qohum-tanışları narahat edib cəbhəyə qaçmaq da olmaz. Cəbhədə sizin böyük qardaşlarınız mərdliklə vuruşurlar. Sizin yaxşı oxumağınız ata-ananızın sözünə baxmağınız, Vətənə layiq övlad kimi yetişməyiniz onları daha da ruhlandırar.

**Sədiqə Bəşirova**



**Şəkildə soldan: Adil, Əzim və Anar**

## МАЛЬЧИШКИ БЕГУТ НА ВОЙНУ

Трое друзей — 11-летний Адыль Ибрагимов, годом старше — Азим Гусейнов и 14-летний Анар Исламов решили лично принять участие в Карабахской войне. Долго ли они готовились к побегу из дома, они не рассказывают и сегодня. Но, раздобыв немного денег: каждый принес столько, сколько смог, они отправились на вокзал. Поезд, стоял «под парами». Пройдя вдоль состава, они остановили свой «выбор» на третьем вагоне, уж очень вызвал у них доверие проводник. И не ошиблись. Проводник выслушал их внимательно, одобрил решение ребят защищать родную землю, взял с них за проезд 73 рубля, и разместил всех на одной полке.

Было это 16 июля, поезд отошел в 21 ч. 35 мин. На станции Махмудлы мальчишки вышли, ехавший с ними в одном купе житель Джебраила, поняв замысел беглецов, пригласил их к себе домой, пообещав помочь добраться до линии фронта. Но доверие у сорванцов он не вызвал. И как только он ушел из дому, те поняли, что он приведет милицию, и вновь сбежали.

Ребята рассказывают, что на передовой им побывать все же удалось, подержали даже оружие в руках, отведали солдатских харчей, послушали

рассказы о войне. Именно здесь их и разыскал начальник милиции Джебраильского района Вагиф Магеррамов, вернув беглецов домой.

Ребята, наверное, с гордостью рассказывают сейчас своим сверстникам истории про войну, зажигая их желанием испытать подобное. А нам, взрослым, стоило бы задуматься; чем могла закончиться подобная история и для самих мальчишек, и для их родителей. Ведь столько взрослых охотно «помогли» детям осуществить задуманное.

**Д. Ахунд-заде.**

Bu hadisə 1993-cü il Qarabağ müharibəsinin qaynar çağında baş vermişdir. Bakı şəhəri Nəsimi rayonu 4-cü mikrorayon, indik Ə.İskəndərov küçəsi $5^a$ saylı evdən 13-15 yaşlı üç nəfər məktəbli oğlan birdən-birə yoxa çıxdı. Ata, anaları təşviş içində onların axtarışına çıxdılar. Polisə məlumat verildi. Bir neçə gündən sonra məlum oldu ki, 13 yaşlı Əzim Arif oğlu Hüseynov, 14 yaşlı Anar Aydın oğlu İslamov və 13 yaşlı Adil Etibar oğlu İbrahimov ön cəbhədə, Cəbrayıl bölgəsində düşmənlə üzbəüz dayanaraq vətənin müdafiəsindədirlər. «N» saylı hərbi hissənin rəhbərləri onları inandırdılar ki, parta arxasında oturub elm öyrənmək də vətənpərvərlikdir. Buna görə də onların məktəbə qayıtması məsləhət görülmüşdür.

Bu körpələrin vətənpərvərlik addımları Azərbaycanda vətənpərvərliyin kütləviliyindən xəbər verir. Bu faktların yetişən nəslə çatdırılması vətənpərvərlik tərbiyəsinin ən təsirli vasitəsidir.

Azərbaycan xalqının belə qəhrəmanlıq nümunələrinin bədi əsərlərdə də əks olunması günümüzün vacib tələblərindəndir.

Müstəqillik dövrümüzün pedaqoji problemlərindən biri də sovetlər birliyi dövründə aktual problem kimi araşdırılan beynəlmiləlçilik tərbiyəsidir. Bu dövrdə formalaşan «sovet xalqı» anlayışı xalqların tarixi birliyi kimi qəbul edilmişdir ki, bu da SSRİ-də yaşayan xalqların milli-mənəvi dəyərləri arxa plana keçirmişdir. SSRİ süquta uğradıqdan sonra bu problem yeni məzmun kəsb etdi. Problem bu günümüz üçün də aktual olaraq qalmaqdadır. Lakin problemə maraq o qədər də nəzəri cəlb eləmir. Bunun da siyasi səbəbləri vardır. SSRİ dövründə

beynəlmiləlçilik bayrağı altında kommunistlər cürbəcür dövlətlərdə çevrilişlər edir. Çevrilişlərdə iştirak edən döyüşçüləri beynəlmiləl döyüşçülər kimi təqdim edərək, sosializm sisteminin dünya miqyasında qalib gəldiyini sübut etməyə çalışırdılar.

Kommunist sosioloqları Sovetlər birliyinin ilk illərində ümumbəşəri dəyər olan beynəlmiləlçiliyi "sovet beynəlmiləlçiliyi", sonrakı dövrlərdə isə sosializmin dünya miqyasında qələbə çaldığını iddia edərək ona ideoloji don geydirib "sosialist beynəlmiləlçiliyi" kimi təqdim etməyə başladılar. Sosialist ideoloqlarının bu yanaşmaları indiki dövrümüz üçün yararsız olduğu elmi dəlillərlə sübut edilərək, yeni dövrdə də dillər, xalqlar, mədəniyyətlərarası dialoqun vacib problem olduğu özünü təsdiq etdi. Tolerantlıq, multikulturalizm anlayışları leksikonumuzda özünə yer qazandı, yeni dövrdə də problemin aktuallığını sübut etdi. Politoloji problem kimi onun nəzəri əsasları cürbəcür tədqiqatlarda araşdırılır. Onun pedaqoji aspektinin araşdırılması günümüzün ən vacib tələblərindən biri kimi qalmaqdadır.

Bu problem tarixin bütün dövrlərində filosofların, sosioloq və pedaqoqların diqqət mərkəzində olmuşdur. Nizaminin «Yeddi gözəl», «İskəndərnamə» əsərlərində beynəlmiləlçiliyə dair kifayət qədər epizodlara rast gəlmək olur.

Tanınmış türk sosioloqu Ziya Göyalp yazır: «Mədəni əxlaq (K.M. beynəlmiləlçilik) ilkin yurddaşlarımızı, sonra dindaşlarımızı, ən sonra da bütün insanları sevməkdən və hörmələ layiq bilməkdən ibarətdir. Bütün fərdlərin həyatına, mülkiyyətinə, hürriyyətinə, heysiyyatına təcavüz etməmək mədəni əxlaqın irəli sürdüyü vəzifələrdəndir» (55, s.77).

Daha sonra o yazır: «Vətənə bağlı əxlaq (K.M. vətənpərvərlik) xaricdən mərkəzə doğru olduğu halda mədəni əxlaq mərkəzdən xaricə doğrudur» (yenə orada).

Məktəblilərin beynəlmiləlçilik tərbiyəsində bir millət, iki dövlət olan Türkiyə – Azərbaycan xalqlarının dostluğunu əks etdirən tarixi materialların öyrənilməsi xüsusi əhəmiyyət kəsb edir. Bu sırada Türkiyədə qırğınlar törədib sonralar bolşeviklərə qoşularaq Azərbaycan ərazisinə soxulan erməni daşnakları Bakıda, Şamaxıda, Qubada, Lənkəranda müsəlman olduqlarına görə minlərlə günahsız uşaqları, qadınları, qocaları süngüdən keçirərək əsil soyqırım törətmiş,

havadarlarının köməyi ilə torpaqlarımızı zəbt etdikləri haqqında tarixi sənədlərin məktəbdə öyrənilməsi, Qafqaz-İslam ordusunun Nuru paşanın rəhbərliyi ilə Azərbaycan ərazisinin daşnak-bolşevik dəstələrindən təmizlənməsi faktları beynəlmiləl tərbiyənin formalaşmasında müstəsna əhəmiyyət kəsb edir.

Bu iki xalqın tarixi dostluğuna dair daha bir faktın şagirdlərin diqqətinə çatdırılması beynəlmiləl tərbiyəyə bariz nümunə ola bilər. Belə ki, Azərbaycan Xalq Komissarları Sovetinin sədri N.Nərimanov 23 mart 1921-ci il tarixində Kamal Atatünkə yazdığı məktubda türk dövlətinə öz minnətdarlığını belə bildirirdi: «Paşam, 1918-ci ildə siz bizi mütləq bir ölümdən qurtardınız. Buna görə sizə dərin təşəkkürümü bildirirəm» (22, s.25).

Tarixi materiallar sübut edir ki, N.Nərimanov da çətin günlərində Türkiyə xalqına dayaq olmuşdur. Bunu Kamal Atatürkün Şərq ordusunun komandiri general Kazım Qarabəkirə göndərdiyi məktubda da görmək olar: «Dövlətin pulu qalmadı. İndiki halda heç bir yerdən kömək istəməyə ümid də yoxdur. Başqa çıxış yolu tapana qədər Azərbaycan hökumətindən borc almağınızı rica edirəm» (yenə orada).

Kazım Qarabəkir Atatürkün xahişini birbaşa N.Nərimanova çatdırır. 19 avqust 1920-ci ildə N.Nərimanov Atatürkə cavab məktubu göndərərək yazır: «Qardaş qardaşa borc verməz. Qardaş hər zaman qardaşın əlindən tutar. Biz qardaşıq və hər zaman əlinizdən tutacayıq» (yenə orada).

Azərbaycan hökuməti çox keçmir ki, 500  (beş yüz) kiloqram qızılı Türkiyəyə göndərir. Qardaş köməyi bununla bitmir. N.Nərimanov Rusiyadan aldığı 10 (on) milyon qızıl rublu da Türkiyəyə ünvanlayır. 23 mart 1921-ci ildə isə Türkiyənin müraciətini gözləmədən Azərbaycan hökuməti təmənnasıx müxtəlif vaxtlarda 103 (yüz üç) sistern yanacaq da göndərir (yenə orada).

Tədris prosesi, sinifdənxaric tədbirlərdə belə faktların şagirdlərə çatdırılması siyasi tərbiyədə daha təsirli vasitələrdəndir.

Deyilənlər bir daha sübut edir ki, qloballaşan dünyamızda vətənpərvərlik və beynəlmiləlçilik tərbiyəsinin həyata keçirilməsi məktəb qarşısında duran əsas vəzifələrdəndir.

# FƏSİL II
# YENİ DÖVRDƏ PEDAQOJİ TƏDQİQATLARIN ƏSAS İSTİQAMƏTLƏRİ

## 2.1. Şərq pedaqoji fikir tarixinə yeni yanaşmalar

Şərq dünyası maarif, mədəniyyət, incəsənət beşiyi olmuş, neçə-neçə samballı filosof, astronom, riyaziyyatçı, şair, yazıçı, pedaqoqlar yetişdirmişdir. Onların kəşfləri, söylədikləri elmi mülahizələri bu gün də dünya xalqdarı tərəfindən sevilə-sevilə öyrənilir və bu, gələcəkdə də davam etdiriləcəkdir. Əl-Fərabinin fəlsəfi, pedaqoji baxışları, İbn-Sinanın pedaqogika və tibbə dair mülahizələri əsrlərin sınağından keçərək bu günümüzə gəlib çıxmış, gələcək nəsillər üçün də mayaq olaraq qalacaqdır.

Lakin sovetlər birliyi dövründə Şərqin görkəmli alimlərinin söylədiyi elmi mülahizələr, kəşfləri diqqətdən kənarda qalmış, onların irsinin öyrənilməsinə o qədər də geniş yer verilməmişdir. Pantürkist, panislamist damğasından ehtiyat edən tədqiqatçılar Şərqin zəngin elmi dəyərlərinin araşdırılmasına can atmamışdılar.

Ateizm ruhunda formalaşmış sovei ideoloqları dindəki, o cümlədən də islam dinindəki ümumbəşəri fikir və ideyalara toxunmamış, sinfilik ideologiyasına müvafiq elm dinlərə qarşı qoyulmuş və gənc nəslin dinlərdəki dəyərlərin öyrəniməsinə maneələr yaratmağa çalışmışdılar.

Kommunist rejiminin süqutundan sonra tədqiqatçılarımız Şərqin mənəvi dəyərlərinin öyrənilməsinə üz tutmuş və bu istiqamətdə samballı əsərlər ortaya qoymuşdular. Tədqiqatçılarımız ilk növbədə «Qurani-Kərim»dəki mənəvi dəyərlərin öyrənilməsinə daha geniş yer ayırdılar.

Yeni dövrün tələblərinə uyğun Qurandakı mənəvi dəyərlərin araşdırılmasına dair tədqiqatlardan nümunələr verməyi vacib hesab edirik.

Azərbaycanın tanınmış pedaqoqu prof. Y.R.Talıbov «Qurani-Kərim»də tərbiyə məsələlərini araşdıraraq orada əks edilən əxlaqi motivlərə, ailə tərbiyəsinə daha geniş yer verərək, onların öyrənilməsinin gənc nəslin mənəvi tərbiyəsindəki rolunu ətraflı şərh etmişdir. «Qurani-Kərim»dən fraqmentlər göstərərək, onların gələcək nəsillər üçün də örnək olacağını sübut etmişdir (53, s.36-40).

«Qurani-Kərim»də təlim və tərbiyə motivlərinə akademik H.M.Əhmədov da geniş yer verərək oradakı əxlaq tərbiyəsi və onun məzmununu təşkil edən dəyərlərin şərhinə daha geniş yer ayırmış, cürbəcür surə və ayələrdən fraqmentlər verərək, onların müasir gənclərin tərbiyəsində əhəmiyyətini elmi əsaslarla şərh etmişdir (10, s.15-23).

Prof.F.Ə.Seyidov öz tədqiqatında islamın pedaqoji fikrin inkişafı və zənginləşməsinə təsiri problemini araşdıraraq müasir gənclərin əxlaq, zehni, əmək, estetik, fiziki, ekoloji tərbiyəsindəki onun rolunu göstərmişdir. Qurandan, Həzrəti Məhəmmədin kəlamlarından, din xadimlərinin dediklərindən nümunələr verərək, onların bugünkü nəslin tərbiyəsində əhəmiyyətini sübut etmişdir (51, s.134-163).

Şərq pedaqoji fikir tarixinin araşdırılmasına dair 2011-ci ildə çapdan çıxmış «Şərq pedaqoji fikir tarixindən» adlə tədris vəsaitində biz də öz fikir və mülahizələrimizi şərh etmişik. Tədqiqatda miladdan əvvəl VII əsrdə meydana gəlmiş zərdüştizm dininin yadigarı olan «Avesta»nın pedaqoji təhlili verilmiş, oradakı hatalarında söylənilən əxlaqi dəyərlərin mahiyyəti açıqlanmış, ailə tərbiyəsi məsələlərinə toxunulmuş, onların bu günümüz üçün də aktual olduğu şərh edilmişdir. Bu tarixi abidənin gənc nəslin elmi dünyagörüşündəki roluna da toxunulmuşdur.

Tədqiqatımızda «Qurani-Kərim»in bütün surə və ayələrinə toxunulmuş, onların zehni, əxlaq, əmək, fiziki tərbiyə, hüquq tərbiyəsi, ailə tərbiyəsi məsələlərində rolu əsaslandırılmışdır. Əsər 2014-cü ildə Anadolu türkəsinə də çevrilmişdir.

Bu tədris vəsaitində XI əsr islam dininin tanınmış filosofu Əl-Qəzalinin «Əməllərin mizanı» adlı əsərinin də pedaqoji təhlili aparılmışdır. Bu əsərin tərkibində onun «Oğluma nəsihət» əsəri də yer almışdır (8).

Əl-Qəzali bu əsərində idrak prosesi, onun mərhələləri, struktur elementləri, yönüm və motivlər haqqında dəyərli mülahizələr söyləmişdir (8, s.20-26).

Bu görkəmli alim uşaqların yaş və fərdi xüsusiyyətlərinin nəzərə alınmasını, sistemlilik və ardıcıllığı tərbiyənin əsas prinsiplərindən hesab edir (8, s.49).

Əl-Qəzali bu əsərində şəxsiyyətin formalaşmasına təsir edən amilləri göstərir. Burada özünütərbiyənin roluna xüsusi yer ayırır (yenə orada).

Müəllif müasir pedaqogika elmi üçün aktual olan tərbiyənin hərəkətverici qüvvələrinə də toxunur. Burada ziddiyyətin rolunu xüsusi qeyd edir (8, s.53-54).

Əl-Qəzali bu əsərində müəllim qarşısında duran vəzifələrə də toxunur. Müəllimin təlim və tərbiyənin aparılmasında rolunu göstərir (8, s.108-114).

Qurani-Kərimin Şərqin intibahındakı roluna prof. F.Rüstəmov da geniş yer vermişdir. O, «Şəprq pedaqoji fikir tarixi» əsərində müsəlman məktəblərinin yaranması, islamda ibtidai, orta, ali təhsilin formalaşması, tərbiyəyə dair Həzrəti Məhəmməd və onun davamçılarının söylədiyi kəlamlar bu tədris vəsaitində geniş yer almışdır (47).

Müəllif burada ərəb mütəfəkkirlərinin də tərbiyə haqqında söylədikləri fikir və mülahizələri işıqlandırmışdır. Əl-Kindi, Məhəmməd İbn Səhnun, Əl-Qəzali, İbn Rüşd, İbn Xəldun və s. kimi tanınmış alimlərin tərbiyəyə dair söylədikləri fikirləri təhlil edərək onların müasir tərbiyə sistemində yerini göstərmişdir.

Bu tədris vəsaitində müəllif təkcə müsəlman xalqlarının yox, digər Şərq xalqlarının da pedaqoji fikir tarixinə dair samballı mülahizələr söyləmiş, Qədim Şumerdə, Misirdə, Hindistanda, Çində məktəb və tərbiyəyə aid faktların araşdırılmasına geniş yer vermişdir.

Adıçəkilən vəsaitlərin tədris müəssisələrində geniş istifadə edilməsi gənc nəslin mənəvi tərbiyəsində əhəmiyyətli rol oynaya bilər.

## 2.2. Türk xalqlarının pedaqoji fikir tarixinin tədqiqi.

Müstəqillik dövrümüzdə türk xalqlarının məktəb və pedaqoji fikir tarixinə dair daha çox, həm də soxsahəli tədqiqat işləri həyata keçirilmişdir. Bunu qanunauyğun hal hesab etmək olar. Çünki əsrlərlə rus imperiyasının tərkibində olan xalqların mənəvi dəyərləri ruslaşma siyasəti nəticəsində kölgədə qalmış, hətta milli dəyərlərə istinad edənlər təqiblərə, cəzalara məhkum edilmişdir. Çar Rusiyası dövründən başlamış, Sovetlər birliyi dövründə də davam etdirilən ruslaşma siyasəti nəticəsində bizim xalqımız da öz soykökündən ayrı düşmüş, zəngin floklor

nümunələrimiz əsasında tərbiyə xalqımıza yad olan bədii nümunələrlə həyata keçirilməyə başlanmışdır. «Dədə Qorqud», «Koroğlu», «Manas» dastanları əvəzinə «İqor polku», «Vladimir Monamaxın nəsihətləri» və s. kimi əsərlərinin öyrənilməsi geniş vüsət almışdır.

Sovetlər sistemi süquta uğradıqdan sonra milli və ümumbəşəri dəyərlərin öyrənilməsi ön plana keçirilmiş və bu sahədə fundamental tədqiqatların aparılmasına real imkanlar yaranmışdır. İlk olaraq «milli və ümumbəşəri» anlayışlarını pedaqoji prosesə daxil edən azərbaycanın görkəmli pedaqoqu Yusif Rəhim oğlu Talıbov olmuşdur. O, ötən əsrin 90-cı illərində tərtib etdiyi proqramlarda, 16 yanvar 1996-cı ildə «Azərbaycan müəllimi» qəzetində çap etdirdiyi məqaləsində yeni dövrdə tərbiyənin məqsədi probleminə milliliyin də daxil edilməsini yeni dövrün aktual problemi olduğunu sübut etdi (daha ətraflı 1.3. yarımfəslində məlumat verilmişdir).

Yeni dövrdə türk xalqlarının pedaqoji fikir tarixinin tədqiq edilməsinə prof. F.Ə.Seyidovun tədqiqatlarında daha geniş yer ayrılmışdır. Bunu onun 1997-ci ildə çap etdirdiyi «Türk xalqlarının tərbiyə və məktəb tarixinə dair» əsərində də görmək mümkündür (50).

Müəllif burada islamdan əvvəlki türk dünyasındı tərbiyə məsələlərinə toxunur, ənənələrin, milli bayramların, oyunların, dastanların tərbiyə imkanlarını araşdırır. Prof. F.Ə.Seyidov islamdan  sonrakı dövrdə də türk xalqların görkəmli alimlərinin pedaqoji irsini araşdırır. Yusif Xas Hacibin, Mahmud Kaşkarinin, Əhməd Yuqnakinin, Əhməd Yasəfinin tərbiyəyə dair fikir və mülahizələrinə geniş yer verir, Qəznəvi və səlcuq türklərində tərbiyə məsələlərini araşdırır.

Bu dəyərli tədqiqat əsərində F.Ə.Seyidov Azərbaycan türklərinin pedaqoji irsini araşdırılmasına geniş yer ayırır.

Prof.F.Ə.Seyidov 2004-cü ildə çap etdirdiyi «Soy kökümüzdən gələn pedaqoji fikir» əsərində də türk xalqlarının pedaqoji fiikir tarixinin tədqiqinə geniş yer verir. O burada Orxon Yenisey abidələrində tərbiyə məsələlərini araşdırır (51).

Müəllif burada Gültəkin, Bilgə Xaqan, Tonyuk abidələrində tərbiyə məsələlərini araşdıraraq oxuculara təqdim edir. Orxon Yenisey abidələrində

ənənələrin tərbiyədə roluna toxunur. Adqoyma, salamlaşma, evlənmə mərasimlərində, bayramlarda əməl edilən ənənələrin tərbiyəvi imkanlarını araşdırır.

Tədqiqatçı bu kitabında dastanların tərbiyəvi əhəmiyyətinə daha çox yer ayırır. «Manas», «Alpamış», «Dədə Qorqud», «Koroğlu», «Tahir və Zöhrə», «Abbas və Gülgəz», «Valeh və Zərnigar», «Novruz və Qəndab» dastanlarının indiki nəslin mənəvi tərbiyəsində rolunu geniş şərh edir.

Yeni dövrdə türk xalqlarının pedaqoji fikir tarixinin araşdırılmasına prof.F.A.Rüstəmovun 2002-ci ildə çapdan çıxmış «Şərqdə pedaqogika tarixi» adlı əsərində də geniş yer verilmişdir. Müəllif şumer dövründən başlayaraq XX əsr türk xalqlarının pedaqoji fikir tarixini araşdırır. Qaraxanlı türkləri, Qəznəvi türkləri, Osmanlı türklərində tərbiyə məsələlərini tədqiq edir (47).

Tədqiqatın üstünlüklərindən biri də Volqaboyu, Sibir, Krım türklərində tərbiyə və məktəb tarixinin araşdırılmasıdır.

Müəllifin bu tədqiqatı təkcə pedaqoji baxımdan yox, həm də tarixi baxımdan xüsusi əhəmiyyət kəsb edir. Burada zaman-zaman parçalanın türk dünyasının coğrafiyasının nə qədər geniş arealda məskunluşmaları haqqında müfəssəl məlumat verilir. Belə materialların yetişən nəslə çatdırılması milli-mənəvi keyfiyyətlərin aşılanmasına xidmət edir.

Yeni dövrdə türk xalqlarının pedaqoji fikir tarixinin araşdırılmasına həsr edilmiş, 2017-ci ildə çapdan çıxmış «Türk xalqlarının pedaqoji fikir tarixindən nümunələr» adlı tədris vəsaitində biz də tədqiqata ehtiyacı olan məsələlərə toxunmuşuq. Əl-Fərabi, İbn Sina, Bəhmənyar, Əli Xınalızadə, Ziya Göyalp və s. kimi görkəmli filosof və pedaqoqların Azərbaycan dilində olmayan irsinə müraciət etmiş, onların fikir və mülahizələrinin tədqiqinə geniş yer vermişik. Bu mənbələrdə şəxsiyyətin formalaşması, tərbiyənin prinsip və metodlarına və s. dair kifayət qədər elmi əsaslara söykənən fikir və mülahizələrə toxunulmuşdur ki, pedaqogikaya aid müasir mənbələrdə bunlar ya heç işıqlandırılmamış, ya da bir-iki səhifəlik materiallarda qısa məlumat verilmişdir. Bizim tədqiq etdiyimiz Əl-Fərabi, İbn Sina, Bəhmənyarın əsərləri rus dilində olduğundan tədqiqatçılar buna o qədər də

diqqət ayırmamış, mənəvi dəyərələrlə zəngin olan bu əsərlər nə sovetlər birliyində, nə də yeni dövrdə respublikamızda hərtərəfli araşdırılmamışdır.

Adıçəkilən bu sərlərimizdə Şərqin Aristoteli, «ikinci müəllim» adına layiq görülmüş, türk hərbi xidmətçisi ailəsində dünyaya gələn Əl-Fərabinin rus dilində çap edilən (K.M. onun əsərləri Azərbaycan türkcəsinə çevrilməmişdir) «Fəlsəfi traktatlar», «Təhsil əl-səadət», «Elmlərin siyahısı», «Sosial-etik traktatlar», «Məntiqə aid traktatlar», «İdrak və elm haqqında» və s. əsərlərinin pedaqoji təhlili verilmişdir» (39, s.12-25).

Əl-Fərabinin yaradıcılığını araşdırarkən diqqətimizi aşağıdakı məsələlərin həllinə yönəltmişik:

- Əl-Fərabi elmi biliklərin faydası və onun əldə edilməsi metodikası haqqında;
- Əl-Fərabi əxlaq tərbiyəsi haqqında;
- Əl-Fərabi siyasi mədəniyyət tərbiyəsi haqqında və s.

«Türk xalqlarının pedaqoji fikir tarixindən nümunələr» əsərində İbn Sinanın pedaqoji görüşlərinə də geniş yer ayırmışıq (39, s.25-41).

Abu Əli İbn Sina Şərqin görkəmli filosofu, pedaqoqu, təbibi kimi tarixə düşmüşdür. O, öz fəlsəfi, pedaqoji, tibbi görüş və mülahizələrini poetik dillə də şərh etmişdir. Çünki onun dövründə poeziyaya maraq güclü olduğundan öz fikir və mülahizələrini poetik dillə kütlələrə çatdırmağa çalışmışdır. XII əsrdə bu ənənəni Nizami Gəncəvi də davam etdirmişdir.

Adıçəkilən tədris vəsaitimizdə İbn Sinanın poeziyasının filoloji tərcüməsini vermiş, sonra isə onun pedaqoji təhlilini aparmışıq.

İbn Sina poeziyasında elmi biliklərin faydası, idrak prosesi və onun mərhələləri, uşaqların yaş və fərdi xüsusiyyətləri, əmək tərbiyəsi, fiziki tərbiyə haqqında da dəyərli fikir və mülahizələr yürüdür.

O, qəzəlləri, qəsidələri, rübailəri, poemalarında əxlaq tərbiyəsinə daha geniş yer ayırır. Əxlaq tərbiyəsinin məzmunu haqqında dəyərli mülahizələr söyləyir.

İbn Sina tərbiyənin prinsip və metodlarına da toxunur. Müasir pedaqogika elmində formalaşan tələb və hörmətin vəhdəti prinsipinə toxunaraq yazır ki,

uşaqlara təsir göstərərkən onlara qarşı nəzakət və yumşaqlıq nümayiş etdirməli, nəsihət verməli, kobudluğa yol verilməməlidir (2, s.29).

Adıçəkilən tədris vəsaitində İbn Sinanın «Danışnamə» (Bilik kitabı) əsərinin pedaqoji təhlilinə də geniş yer ayırmışıq (59, s.33-41).

Bu əsərində İbn Sina elmlərin təsnifatını verir, elmdə onların yerini müəyyənləşdirir. Ön sırada dili, fəlsəfəni, riyaziyyatı yerləşdirir. Məntiqi, tibbi, etikanı, təbiət elmlərini tətbiqi elmlər sırasına daxil edir. Hələ dialektik qanunların mövcud olmadığı dövrdən ziddiyyətlər haqqında mülahizələr söyləyir. O yazır ki, bir-birinə zidd olan mülahizələr elə bir yanaşmadır ki, təsdiq və inkar arasında meydana gəlir. Əgər birinci mülahizə təsdiqedicidirsə, digəri inkredici və ya əksinə olan yanaşmalardır. Bunlardan biri mütləq doğru, o biri isə yanlışdır (59, s.104).

İbn Sinanın bu dəyərli fikri metodoloji prinsip kimi bu günkü pedaqogika elmində yer alan tərbiyənin hərəkətverici qüvvələri ideyasına tam uyğun gəlir.

Müəllif bu əsərində elmi-tədqiqat işlərinin aparılması metodikasına da toxunur. Tədqiqatın elmi əsaslarla aparılmasının yollarını göstərir.

İbn Sina bu əsərində əxlaq və onun məzmununa daxil edilən elementlər haqqında da dəyərli mülahizələrə söyləyir. Hər bir əxdaqi dəyərin mahiyyət və məzmununu açıqlayır. Belə dəyərlərin insanlarda formalaşması metodikasını açıqlayır.

İbn Sina bu gün təlim prosesinin metodoloji əsası hesab edilən idrak nəzəriyyəsi, onun strukturu daxili quruluşuna dair də dəyərli mülahizələr söyləmişdir. Daha ətraflı məlumatı tərəfimizdən çap edilən «Türk xalqlarının pedaqoji fikir tarixindən nümunələr» adlı tədris vəsaitindən əldə etmək olar.

Sovetlər birliyi dövründə Əbülhəsən Bəhmənyarın (bəzi mənbələrdə o, Bəhmənyar Əl-Azərbaycani kimi də verilir) da pedaqoji görüşlri respublikamızda kifayət qədər araşdırılmamışdır. Onun «Əl-Təhsil» əsəri Bakıda rus dilində 1986-cı ildə «Elm» nəşriyyatında çapdan çıxmışdır. Onun onlarla əsəsrləri arasında ərəb dilində yazılmış «Əl-Təhsil» əsəri müxtəlif dillərə tərcümə edilmiş, nüsxələri Tehran, İstanbul, Vatikan, Qahirə, London, Beyrut şəhərlərinin kitabxanalarında saxlanmışdır.

«Əl-Təhsil» əsərində təkcə məntiq, fəlsəfə, təbiətin dialektikasına aid fikir və mülahizələr yox, həm də təlim, tərbiyə prosesi və burada əsas metodoloji amil kimi qəbul edilən idrak prosesi, onun mərhələləri sistemi və hər mərhələnin daxili quruluşu haqqında da dəyərli fikir və mülahizələr yürütmüşdür ki, onun əsasında bugünkü idrak nəzəriyyəsi formalaşa bilmişdir.

Bəhmənyar idrak prosesini iki mərhələyə ayırır: xarici və daxili sferalar. Bugünkü idrak nəzəriyyəsində bu canlı müşahidə və abstrakt təfəkkür kimi təqdim edilir. Bəhmənyarın da heç adı çəkilmir. Bu görkəmli alim xarici sferaya toxunma, görmə, eşitmə, qoxubilmə, dadbilməni daxil edir.

Daxili sferaya isə o, hiss, vəhm, xəyala gətirən qüvvə, təsvir edən qüvvə, yadda saxlayan qüvvə, təfəkkür qüvvəsini daxil edir. Daha ətraflı «Türk xalqlarının pedaqoji fikir tarixindən nümunələr» tədris vəsaitindən məlumat əldə etmək olar.

Bəhmənyar hərəkətə təhrik edən qüvvə, yəni motiv, haqqında da dəyərli mülahizələr söyləyir. O yazır ki, hərəkətə təhrik edən qüvvə hansısa orqanın musqulunda yer alan hərəkət sayəsində başa gəlir. Sonra qətiyyət, ondan sonra cəhd, səygöstərmə, daha sonra təfəkkür və təsəvvür baş verir. Daha sonra yazır ki, bütün bunlar qarşıya qoyulan məqsədə nail olmaq üçün həyata keçirilir. O, məqsədsiz elmi biliklər əldə etməyin mümkün olmadığını söyləyərək yazır ki, məqsəd hərəkətin həyata keçirilməsini istiqamətləndirir. Məqsəd olmadan hərəkət, inkişaf dayanır (60, s.206-207, 212-213).

XX əsrin əvvəllərində A.S.Makarenkonun kollektivin inkişaf dinamikasında dialektik tələb olan məqsədin müəyyənləşdirilməsinin rolu haqqında söylədiyi mülahizələr Bəhmənyarın XI əsrdə söylədiyi bu fikirlə tam üst-üstə düşür.

Bəhmənyar bu əsərində şəxsiyyəti formalaşdıran amillərə, əxlaq tərbiyəsi və onun məzmununa, ziddiyyətlərin inkişafın mənbəyi olmasına, pedaqoji prinsip və metodlara dair dəyərli mülahizələr söyləmişdir. Bu fikirlər bu gün də öz aktuallığını saxlamaqdadır.

Müstəqillik dövründə Nəsrəddin Tusi yaradıcılığının araşdırılması da pedaqoqlarımızın diqqət mərkəzində olmuşdur. Tanınmış pedaqoqlarımız

H.M.Əhmədov, Y.R.Talıbov, F.Ə.Seyidov, F.A.Rüstəmov və digərləri onun yaradıcılığına müraciət edərək samballı əsərlər ortaya qoymuşlar.

Onun yaradıcılığının dövrümüz üçün nə qədər aktual olduğu haqqıda «Türk xalqlarının pedaqoji fikir tarixindən nümunələr» adlı tədris vəsaitində biz də öz fikir və mülahizələrimizi şərh etmişik. N.Tusinin XIII əsrdə pedaqoji prinsip, metodlar haqqında söylədiyi fikir və mülahizələr sovetlər birliyi dövründə pedaqogikaya aid tədris vəsaitlərində, dərsliklərdə öz əksini tapmamış, bu dahi pedaqoqun fikirləri sonrakı dövr pedaqoqlarının adına yazılmışdır. Onun «Əxlaqi-Nasiri» əsərində söylədikləri pedaqoji mülhizələr bu gün də aktual olarq qalmaqdadır. Bu əsərində o əqli, əxlaq, əmək, fiziki tərbiyə, siyasi mədəniyyət tərbiyəsi və s. haqqında dəyərli fikir və mülahizələr söyləmişdir. Müəllif elmi-tədqiqat işlərinin aparılması metodikası, şəxsiyyəti formalaşdıran amillər, özünütərbiyə, uşaqların yaş və fərdi xüsusiyyətləri, təlim və tərbiyənin prinsip və metodları, bu prosesin hərəkətverici qüvvələri, ailə tərbiyəsi və s. haqqında dəyərli fikir və mülahizələr söylənilmişdir ki, bunların bugünkü pedaqogikaya aid dərslik və dərs vəsaitlərində əks olunmasına ehtiyac vardır.

N.Tusi müasir psixologiya və pedaqogika elmləri üçün səciyyəvi olan birinci və ikinci siqnal sistemləri haqqında də dəyərli fikir söyləmişdir. O, insani və heyvani nəfsləri müqayisə edərək yazır: «… insani-nəfsi bütün heyvani nəfslərdən ayıran bircə qüvvə vardır ki, ona da nitq qüvvəsi deyilir» (43, s.48).

N.Tusi hazırki pedaqogika elmində özünə yer qazının «Müsbət keyfiyyətlərə əsaslanaraq, mənfi keyfiyyətlərin islah edilməsi (nikbinlik)» prinsipinin tətbiq edilməsini vacib şərt hesab edərək yazır: «Uşaqda xoşagələn bir hərəkət baş verdikdə, onu tərifləyib həvəsləndirmək lazımdır, əks hallarda hər dəqiqə danlayıb başına vurmaq doğru deyildir» (43, s.158). Mövcud pedaqoji ədəbiyyatda bu prinsipin əsaslandırılması A.S.Makarenkonun adı ilə bağlanır.

N.Tusinin siyasi mədəniyyət tərbiyəsi haqqında söylədiyi fikirlərə də geniş yer ayırmaq dərslik və dərs vəsaitləri müəlliflərinin qarşısında duran əsas vəzifələrdəndir.

Təəssüflə qeyd etmək lazımdır ki, kommunist ideologiyasının təsirindən hələ də azad olmayan bir sıra təhsil işçiləri yeni dövrdə siyasi tərbiyənin mahiyyətini dərindən anlamayaraq, onu SSRİ dövründə olduğu kimi hansısa bir ideologiyaya xidmət etməsi, məktəbin siyasətləşməsi kimi başa düşür və onun əleyhinə çıxış edirlər. Ümumbəşəri mahiyyət kəsb edən siyasi mədəniyyət tərbiyəsi haqqında N.Tusi yazır: «Ünsiyyət və əlaqə yalnız o zaman baş tutar ki, nəyin nizama aparıb çıxaracağını, nəyin pozğunluğa səbəb olacağını, hər kəslə tək-tək necə davranmaq lazım olduğunu öyrədən elmi hamı yaxşı bilsin, bu, ictimaiyyat elmidir. Deməli, hamı bu elmi öyrənməyə səy etməlidir ki, fəzilət sahibi olmağı bacarsın; əks halda rəftar, müaşirət və davranışda səhvlərə yol verilər və bu da qanunsuzluqlara səbəb olar» (43, s.177).

N.Tusi bu dəyərli əsərində gənc nəslin bu günü və gələcəyi üçün kifayət qədər faydalı fikir və mülahizələr söyləmişdir ki, bunların pedaqogikaya aid dərs vəsaitlərində əks olunması vacib şərtlərdəndir.

Yuxarıda qeyd etdiyimiz kimi, sovetlər birliyi dövründə türk xalqlarının, o cümlədən də Anadolu türklərinin zəngin pedaqoji irsinin öyrənilməsi diqqətdən kənarda qalmışdır. XVI əsrdə əxlaqa aid ilk dəfə türk dilində qələmə alınmış Əli Xınalızadənin «Əxlaqi-Əlayi» əsəri də kifayət qədər araşdırılmamışdır.

Tanınmış türk pedaqoqu prof. Yəhya Akyüzün «Türk egitim tarixi» əsərində (2) onun pedaqoji görüşlərinin tədqiqinə cəmi iki səhifə (124-125) ayrılmışdır.

Azərbaycanda ilk dəfə Əli Xınalızadə irsinə prof. F.A.Rüstəmov müraciət etmişdir. «Şərqdə pedaqogika tarixi» (Bakı, 2002) əsərində onun pedaqoji görüşlərinə iki səhifə ayrılmışdır (185-186).

Əli Xınalızadənin yuxarıda adıçəkilən əsərinin fəlsəfi, psixoloji və pedaqoji aspektləri tanınmış türk alimi Ayişə Sidiqə Oqtay tərəfindən qələmə alınmışdır. Onun «Kınalizade Ali Efendi və Ahlaki-Alai» əsəri 2011-ci ildə işıq üzü görmüşdür. Ərəb qrafikası ilə yazılmış geniş həcmli 520 səhifədən ibarət bu əsər Ayişə Sidiqə Oqtay tərəfindən latın qrafikasına çevrilmiş və uyğun kommentariyalar verilmişdir. Həmin əsərin əsasında Əli Xınalızadənin pedaqoji görüşləri tərəfimizdən də araşdırılmış, «Türk xalqlarının pedaqoji fikir tarixindən

nümunələr» dərs vəsaitində əks edilmişdir (60-87). Materialda adıçəkilən müəlliflərin toxunmadığı məslələri müasir pedaqogika elminin işığında araşdırmağa çalışmışıq.

Nəsrəddin Tusinin «Əxlaqi-Nasiri» əsərinin təsiri ilə ilk dəfə türk dilində əxlaqa dair yazılmış bu əsərdə Əli Xınalızadə əxlaq elmi, onun məzmununa daxil edilən elementlərin şərhinə geniş yer ayırır, ailə əxlaqı, dövlət əxlaqı məsələlərinə də toxunaraq müasir dövrümüz üçün də aktual olan problemlərin mahiyyətini elmi əsaslarla şərh edir.

Əli Xınalızadə bu əsərində şəxsiyyəti formalaşdıran üç amilə toxunur. İrsiyyət, mühitlə yanaşı tərbiyənin aparıcı rolunu xüsusi qeyd edir. O, tərbiyənin irsi olub dəyişməməsi ideyasına qarşı çıxaraq, mənfi davranış və hərəkətin tərbiyə yolu ilə islah edilməsinin mümkün olduğunu qeyd edir. O, yazır ki, təbii qazanılan xasiyyəti tərbiyə yolu ilə dəyişdirmək mümkündür (3, s.108-111).

Əli Xınalızadə bu əsərində tərbiyənin prinsip, metod və vasitələrinə də toxunur. Tərbiyədə yaş və fərdi xüsusiyyətləri nəzərə alaraq lazımi tərbiyə metodlarının seçilməsini vacib hesab edir.

İdrakı prosesə toxunan Əli Xınalızadə bu əsərində Bəhmənyarın bölgüsünə uyğun onu iki sferaya – zahiri və batini sferalara ayırır. Zahiri hissəyə toxunma, qoxubilmə, dadma, eşitmə və görməni aid edir. Batini hissəyə müştərək duyğu, xəyalgücü, vəhm gücü, bəlləmə gücü, yadda saxlama gücünü daxil edir (3, s.52).

Əli Xınalızadə bu əsərində ailə tərbiyəsi haqqında da dəyərli mülahizələr yürüdür. Tərbiyənin özülünün ailədə qoyulduğunu aydın görən müəllif qızların da təhsil almasını vacib hesab edir. Tərbiyədə ananın rolunu qeyd edərək, o yazır ki, nəsli artırmaqla bərabər qadın uşaqların tərbiyəsində də əhəmiyyətli rol oynayır (3, s.325). ata və ananın vəzifələrini aydın şərh edərək, onların yerinə yetirilməsinin uşaqların tərbiyəsində əhəmiyyətini əsaslandırır. Hər yaş dövründə uşaqlarla necə davranmağın yolunu göstərir.

Əli Xınalızadə bu əsərində siyasi mədəniyyət tərbiyəsinə də geniş yer ayırır. Siyasi mədəniyyət tərbiyəsini «dövlət əxlaqı» kimi araşdırır. Bu heç də təsadüfi seçilmiş anlayış deyildir. Çünki ümumbəşəri siyasi biliklərin öyrənilməsi təkcə

dövləti idarə edənlərin yox, bütün cəmiyyətin borcüdür. Cəmiyyətin hər bir üzvü, N.Tusinin qeyd etdiyi kimi, siyasi bilikləri dərindən bilməlidir ki, fəaliyyətində nöqsanlara yol verməsin.

Əli Xınalızadə irsinin araşdırıcısı Ayişə Sidiqə Oktay qeyd edir ki, o, cəmiyyəti daha böyük və geniş ailə olaraq düşünür. Dövlət başçısının ata rolunu oynadığını, cəmiyyətin digər fərdlərinin isə bu ailənin üzvlərindən olduğunu söyləyir (3, s.425).

Müəllifin bu kəlamı aydın şəkildə göstərir ki, dövlətin, xalqın maraqları şəxsi maraqlardan üstün olmalıdır. Bunu Azərbaycan xalqının görkəmli simaları A.A.Bakıxanov, M.Ə.Sabir, S.Ə. Şirvani, C.Məmmədquluzadə, H.Zərdabi, N.Nərimanov və digərləri öz yaradıcılığında xüsusi vurğulamışlar. Onlar xalqı dövlətin tərkib hissəsi hesab edir, dövlətin maraqlarını xalqın maraqları kimi qiymətləndirirlər.

A.A.Bakıxanov yazır ki, ümumin mənfəəti xatirinə xüsusi zərəri qəbul etmək lazımdır (7, s.23-24).

Yuxarıda söylənilən fikir və ideyalar XVI əsrdə yaşayıb yaradan Ə.Xınalızadə yaradıcılığında da siyasi mədəniyyət tərbiyəsinin əsası kimi qiymətləndirilir. O qeyd edir ki, bütün varlıqlar insan maraqlarına xidmət edir. İnsanlar da bir arada yaşayıb bir-birinə yardım və qulluq etməyə borcludurlar (3, s.431).

Əli Xınalızadənin belə dəyərli mülahizələri ali məktəb tələbələrinin peşə hazırlığı və gənc nəslin dünyagörüşü, siyasi mədəniyyətinin formalaşmasında, cəmiyyətdə həmrəyliyin yaranmasında əhəmiyyətli rol oynayır. Hər bir cəmiyyət üzvlərinin ümumxalq, ümumdövlət maraqlarına xidmət etməsinin vacib şərt olduğunu təsdiq edir.

«Türk xalqlarının pedaqoji fikir tarixindən nümunələr» adlı tərəfimizdən 2017-ci ildə çap edilən tədris vəsaitində Ziya Göyalp yaradıcılığına daha geniş yer ayrılır (s.87-145). Tədqiqatımızda Ziya Göyalpın Türkiyə Respublikasında çapdan çıxmış «Fəlsəfə dərsləri», «Türk tərbiyəsi», «Milli tərbiyə və maarif məsələləri», Azərbaycanda 1991-ci ildə çapdan çıxmış «Türkçülüyün əsasları» əsərlərinin pedaqoji təhlili aparılmışdır. Türkiyə Respublikasında çap edilən Yəhya Akyüzün

«Türk egitim tarihi» əsərində Ziya Göyalp yaradıcılığına cəmi üç səhifə ayrılmışdır (s.309-311). Müasir dövrümüz üçün də aktuallıq kəsb edən Ziya Göyalpın pedaqoji görüşlərinin tədris vəsaitləri, dərsliklərdə yer almasına ehtiyac vardır. Türk dünyasının milli qürur, milli iftixar, vətənpərvərlik hisslərinin formalaşmasında, türk dövlətçiliyinin qorunub saxlanılmasında onun irəli sürdüyü «türkçülük», «islamlaşmaq» və «müasirləşmək» nəzəriyyəsi əvəzsiz rol oynamışdır. Onun yazdığı «Elmi ictima dərsləri», «Elmi ictima hüququ», «Türkləşmək, islamlaşmaq, müasirləşmək», «Fəlsəfə dərsləri», «Türk mədəniyyət tarixi» və s. Türk dünyasının mənəvi saflaşmasında əhəmiyyətli vasitəyə çevrilmişdir.

Təsadüfi deyil ki, Türk xalqının dahi sərkərdəsi Kamal Atatürk onu özünün müəllimi hesab etmişdir.

Ziya Göyalp cəmiyyətin sosial, iqtisadi, mədəni inkişafını elmdə görürdü. O, elmi ümumbəşəri dəyər kimi qiymətləndirərək yazır ki, o, «aydın, əqli, qeyri şəxsi olmalıdır və təhqiq, isbat edilməlidir» (54, s.6).

«Fəlsəfə dərsləri» əsərində Ziya Göyalp elmi dünyagörüşün formalaşması strukturuna da toxunur. O yazır ki, ətraf aləm haqqında bilik əldə etmək kifayət deyil. Əsas məsələ onu duymaq, dərk etmək, izah etməyi bacarmaqdır. Bu əsərində müəllif əxlaq tərbiyəsi və onun məzmununa da toxunur.

Ziya Göyalp hüquq tərbiyəsini əxlaq tərbiyəsi ilə vəhdətdə araşdırır. O, qeyd edir ki, hüquqi əxlaqi prinsiplər bizi zikri keçən əxlaqın sahəsindən uzaqlaşdıra bilməz (54, s.271).

Müəllifin bu fikri hüquq tərbiyəsini əxlaq tərbiyəsindən ayırıb, onu tərbiyənin ayrıca bir tərkib hissəsi kimi qiymətləndirənlərə tutarlı cavabdır.

Müasir dövrümüzün ən aktual problemi olan «vicdanı» Ziya Göyalp əxlaq tərbiyəsinin aparıcı komponenti kimi qiymətləndirir. Halallığın, doğruçuluğun, haqqın, ədalətin, qayğıkeşliyin, humanizmin, məsuliyyətliliyin və s. kökündə «vicdanın» dayandığını elmi əsaslarla sübut edir. O qeyd edir ki, hər bir şəxsin gördüyü iş vicdanın diktə etdiyini yazmaqdır (54, s.276).

Ziya Göyalpın bu günümüz üçün aktual olan şəxsiyyətin formalaşması ideyasına dair söylədiyi mülahizələr də pedaqogikaya aid tədris vəsaitlərində özünə

layiqli yer qazanmalıdır. O, tərbiyədə irsi amilərlə yanaşı mühit və tərbiyənin aparıcı rolunu da qeyd edir. O yazır: «Uşaq dünyaya gəldiyi zaman nə dini, nə əxlaqi, nə hüquqi, nə estetik, nə dil, nə də məntiqi bir vicdanı özü ilə birgə gətirməz. Bu vicdanları ona öz milləti, millətin mədəniyyəti verir» (56, s.23, 27).

Ziya Göyalp XIX əsrdə İngiltərədə meydana gəlmiş və Avropada geniş yayılmış təhsilin məzmununa dair «maddi təhsil» nəzəriyyəsinin əleyhinə çıxış edərək yazır: «Türkiyədə son zamanlar tərbiyə üçün çox yanlış bir hədəf müəyyənləşdirildi: iqtisadi mənfəətlər. Atalara, məktəblilərə tərbiyənin qayəsi «çox pul qazanmaq» kimi göstərilir. Əcəba iyirminci əsrin mənəviyyatına sahib olan millətlər tərbiyəni beləmi anlayırlar?... Təhsilləndirici təlimlə yanaşı tərbiyəedici təlim də vardır ki, bu cür təlimin məqsədi hər bir şəxsin cəmiyyətə qulluq etməsi, onun dəyərlərinə uyğun davranmasıdır» (56, s.24).

Müəllif bu fikrini «Milli tərbiyə və maarif məsləələri» əsərində də təkrar edir (s.16).

Mövcud pedaqoji ədəbiyyatda «formal» və «maddi» təlim nəzəriyyələrinin birtərəfli yanaşma olduğunu sübut edənlərdən K.D.Uşinskinin adı çəkilir. Lakin Ziya Göyalpın yuxarıda göstərilən dəyərli fikirləri toxunulmamış qalır.

Ziya Göyalp J.J.Russonun «azad tərbiyə» nəzəriyyəsinin əleyhinə çıxış edir. Tərbiyə prosesini səmərəli prinsip və metodlar əsasında aparmağın vacib olduğunu qeyd edərək yazır: «Tərbiyəni fərdin təbiətinə uyğun şəkildə anlamaq başqa, fərdin cəmiyyətə, yaxud ictimai həyata uyğunlaşması şəklində anlamaq başqadır» (56, s.78).

Tərbiyədə stimullaşma metoduna toxunan Ziya Göyalp ictimai rəy, rəğbətləndirmə və cəzalandırmaya dair də dövrümüz üçün çox aktual olan mülahizələr söyləyir (56, s.108-112).

Müasir dövrümüz üçün həmahəng səslənən Ziya Göyalpın milli qürur, milli iftixar notları ilə zəngin olan «Türkçülüyün əsasları» əsərində vətənpərvərlik tərbiyəsi problem idə gənc nəsil üçün mayaq rolunu oynaya bilər.

Osmanlı imperiyasının süqutundan sonra türk dövlətinin mövcudluğu sual altında idi. Xaricdən dəstək alan erməni və türk olmayan digər millətlərin

«daxildən parçalama» siyasəti Türkiyənm olum və ölüm dilemması qarşısında qoymuşdur. Bu dövrdə Ziya Göyalpın «türkçülük» ideologiyası ulduzu parladı və onun işığı ətrafında minlərlə qeyrətli, milli ruhlu ziyalılar toplaşdı. Bu işıq get-gedə öz miqyasını genişləndirərək, milli şüur və əqidəyə çevrildi. Türk xalqının vətənpərvərlik hislləri daha da genişlənərək, kütləvi hala çevrildi və bunun nəticəsi idi ki, dahi sərkərdə Mustafa Kamal Paşanın rəhbərliyi ilə dişlərinə qədər silahlanmış rus, erməni, ingilis, fransız qəsbkarlarına fədakar, cəsur türk ordusu qalib gəldi, türk dövlətçiliyini qoruyub saxlay bildi.

İndiki dövrümüz və gələcəyimiz üçün faydalı olan bu əsərində Ziya Göyalp yazır ki, əgər türkləri türkçülük ideyaları ətrafında birləşdirərək çökmək təhlükəsindən qorumağı bacaran Mustafa Kamal Paşa olmasaydı, türkçülüyə dair bütün hərəkətlər nəticəsiz qalacaqdı (55, s.31).

Bu əsərində Ziya Göyalp milli şüur, milli həmrəyliyi vətənpərvərlikdən ayrı təsəvvür etmir. O qeyd edir ki, vətən əxlaqının yüksək olması milli həmrəyliyimizin özülüdür (55, s.75).

Ziya Göyalp bu əsərində beynəlmiləlçilik tərbiyəsinə də yer ayıraraq yazır ki, vətənə bağlı əxlaq xaricdən mərkəzə doğru olduğu halda, mədəni əxlaq (K.M.beynəlmiləlçilik) mərkəzdən xaricə doğrudur. Vətənlə bağlı əxlaq sevgimizi vətən çərçivəsində sıxlaşmağını və toplanmasını istədiyi halda, mədəni əxlaq bunların yavaş-yavaş millət hüdudlarını aşaraq, ümmət hüdudlarına və ümmət hüdudlarını da aşaraq millətlərarası mədəniyyət dairəsi hüdudlarına və mədəniyyət dairəsi hüdudlarını da aşaraq bütün insanlıq dünyasına genişlənməsini və yayılmasını istəyir (55, s.77).

Belə dəyrli fikir və mülahizələrin gənc nəslə çatdırılması bu günümüz üçün ən vacib məsələlərdəndir. Ziya Göyalpın bu kəlamlarının pedaqoji prosesdə öyrənilməsi vətənpərvərlik tərbiyəsinin əsasını təşkil edir.

Tədqiqat predmeti kimi araşdırdığımız Ziya Göyalp irsi müasir gənclərimizin mənəvi tərbiyəsində əvəzolunmaz bir mənbədir. Onun ideyalarının pedaqogikaya dair dərslik və dərs vəsaitlərinə daxil edilməsi günümüzün ən vacib tələblərindəndir.

Ümumiyyətlə, türk dünyasının dahi mütəfəkkirləri Əl-Fərabi, İbn Sina, Bəhmənyar, N.Tusi, Ə.Xınalızadə, Ziya Göyalp və digərlərinin tərbiyənin məqsədi, vəzifələri, şəxsiyyəti formalaşdıran amillər, tərbiyəyə dialektik yanaşmalar, pedaqoji prosesin prinsip, metod və s. aid dəyərli fikir və ideyaları bu günkü pedaqogika elmində özünə layiqli yer qazanmalıdır.

## 2.3. Türkiyə-Azərbaycan pedaqoji əlaqələrinin əsas istiqamətləri

Totalitar kommunist rejiminin süqutu Azərbaycanda siyasi, iqtisadi, mədəni sahələrdə ciddi dönüş yaratdı. Dövlətlərarası əlaqələr yüksək sürətlə genişlənməyə başladı. Müstəqilliyimizi ilk tanıyan Türkiyə Respublikası ilə siyasi, iqtisadi, mədəni əlaqələrin dövlət səviyyəsində genişlənməsi daha sürətlə həyata keçirilməyə başladı. Bu sahələrdə qardaş Türkiyə ilə imzalanan sazişlər elm, təhsil sahəsini də əhatə etdi. Bunun nəticəsi olaraq cürbəcür elm sahələri üzrə onlarla yüksək ixtisaslı mütəxəssislərimiz Türkiyə Respublikasının ali məktəblərinə dəvət olundular. Eləcə də Türkiyənin tanınmış mütəxəssisləri Azərbaycana dəvət edilərək elmi əməkdaşlığın həyata keçirilməsində öz səmərəli fəaliyyətini həyata keçirməyə başladılar və bu indi də davam etməkdədir.

Müstəqillik dövründə tələbə mübadiləsi problemi də diqqətdən kənarda qalmadı. Dövlətimiz ölkədə kadr potensialının artılırlması istiqamətində ciddi addımlar ataraq müxtəlif ölkələrə, o cümlədən də qardaş Türkiyəyə, təhsil almaq üçün tələbələr göndərdi. Bu proses ildən-ilə artırılaraq cürbəcür sahələr üzrə ixtisaslı mütəxəssislərin formalaşmasında xüsusi rol oynadı.

Tələbə mübadiləsi pedaqoji sahələrdə də həyata keçirilməyə başlandı. Anadolu türklərinin pedaqoji təcrübəsini öyrənmək üçün onlarla orta məktəb məzunları Türkiyə Respublikasına göndərildi. Türkiyə Respublikasından da pedaqoji biliklərin öyrənilməsi üçün xeyli sayda məzunlar ölkəmizin ali məktəblərinə daxil olaraq öz bilik və bacarıqlarını formalaşdırdılar. Bu proses magistratura pilləsində də həyata keçirilməkdədir.

Azərbaycanın pedaqoji universitet və fakültələrində də onlarla türk vətəndaşı olan magitsrantlar elmi biliklərini davam etdirməkdədir. Bu magistrantların dissertasiya mövzularının əksəriyyəti Türkiyə-Azərbaycan pedaqoji əlaqələrinin genişlənməsinə həsr edilərək pedaqogika elminin inkişafına təkan vermiş olur.

Müstəqillik dövründə Azərbaycan - Türkiyə pedaqoji əlaqələri doktorant hazırlığı yolu ilə də həyata keçirilməyə başladı. Bu sahədə əlaqələrin genişlənməsi intensiv xarakter alaraq bu gün də davam etməkdədir. Bunu aşağıdakı faktlarla təsdiq etmək olar.

Respublikamızın tanınmış pedaqoqu Ə.Ə.Ağayevin bu istiqamətdə fəaliyyətini təqdirəlayiq hal kimi qiymətləndirmək olar. Onun elmi rəhbərliyi ilə Türkiyə vətəndaşı Kurt İbrahim 2010-cu ildə «Azərbaycan və Türkiyə uşaq ədəbiyyatında mənəvi tərbiyə məsələləri (1908-1940-cı illər)» mövzusunda Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən müdafiə şurasında fəlsəfə doktoru elmi dərəcəsi almışdır.

2015-ci ildə onun rəhbərliyi ilə Naxçıvan Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən müdafiə şurasında türk vətəndaşı Mehmet Ali Ceyhan «Ali məktəb tələbələrinin akademik nailiyyətlərinin və ixtisas hazırlığının keyfiyyətinin yüksəldilməsində tyutorluq fəaliyyətinin rolu» mövzusunda pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiya müdafiə etmişdir.

Yenə də 2015-ci ildə türk vətəndaşı Mehmet Çinar ADPU nəzdində fəaliyyət göstərən müdafiə şurasında «Ümumtəhsil məktəbi şagirdlərində əxlaqi-mənəvi dəyərlərin formalaşmasının imkan və yolları (Türkiyə-Azərbaycan məktəblərinin materialları əssında)» mövzusunda pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiya işi müdafiə etmişdir.

Respublikamızın tanınmış pedaqoqu Bəşir Əhmədovun elmi rəhbərliyi ilə Türkiyə vətəndaşı Aşın Rasim Ali-İhsan 2011-ci ildə ADPU-nun nəzdində fəaliyyət göstərən müdafiə şurasında «Teatr elementlərinin təhsildə istifadəsi» mövzusunda pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiya işi müdafiə etmişdir.

Türkiyə-Azərbaycan pedaqoji əlaqələrinin inkişafı istiqamətində tərəfimizdən də pedaqoji kadrların hazırlığı həyata keçirilmiş, bizim elmi rəhbərliyimiz ilə beş doktorant müvəffəqiyyətlə dissertasiya işi müdafiə etmişdir. Belə ki, 2014-cü ildə Türkiyə vətəndaşı Ertaş Sofioğlu ADPU-nun nəzdində fəaliyyət göstərən müdafiə şurasında «Yeniyetmələrin dünyagörüşünün formalaşmasında islam dəyərlərindən istifadə üzrə işin sistemi» mövzusunda pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiya işi müdafiə etmişdir.

2015-ci ildə türk vətəndaşı Arslan Qaye Emin qızı ADPU-nun nəzdində fəaliyyət göstərən müdafiə şurasında «Məktəbəqədər yaşlı uşaqların əxlaq tərbiyəsində Azərbaycan və Türk folklor nümunələrindən istifadənin imkanları» mövzusunda pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiya işi müdafiə etmişdir.

Yenə də 2015-ci ildə türk vətəndaşı Yıldız Mehmet Söner İbrahim ADPU-nun nəzdində fəaliyyət göstərən müdafiə şurasında «Yunus Əmrə irsində mənəvi tərbiyə məsələləri» mövzusunda pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiya işi müdafiə etmişdir.

2016-cı ildə türk vətəndaşı Güder Aslan Mehmet Hasan «Türk şairi Mehmet Akif Ərsoyun əsərlərində tərbiyə məsələləri» mövzusunda ADPU-nun nəzdində fəaliyyət göstərən müdafiə şurasında pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiya işini müdafiə etmişdir.

Həmin ildə türk vətəndaşı Aydın Vəli Musa «Türk şairi Nəcib Fazil Qısakürəyin əsərlərində tərbiyə məsələləri» mövzusunda ADPU-nun nəzdində fəaliyyət göstərən müdafiə şurasında pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiya işini müdafiə etmişdir.

Yaradıcı pedaqoqlarımızdan olan prof. P.B.Əliyevin elmi rəhbərliyi ilə Türkiyə vətəndaşı Ufuk Sağlam Hasan 2015-ci ildə «Yeniyetmələrin fiziki inkişafının pedaqoji-psixoloji əsasları» mövzusunda pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiya işini müdafiə etmişdir.

Respublikamızın tanınmış pedaqoqu L.N.Qasımovanın elmi rəhbərliyi ilə iki türk vətəndaşının dissertasiya işi müzakirədən keçirilmiş və müdafiəyə təqdim edilmişdir.

Türkiyə-Azərbaycan pedaqoji əlaqələrinin genişləndirilməsində bu iki qardaş respublikalarda çap edilən monoqrafiya, tədris vəsaitləri də mühüm rol oynamışdır.

Dəyərli pedaqoji əsərləri ilə respublikamızda tanınan, öz dəsti-xətti ilə seçilən, pedaqoji kadrların hazırlanmasında, təkmilləşdirilməsində, ixtisasların artırılmasında böyük xidmətləri olan Rüfət Hüseynzadənin Türkiyədə «Egitim və Ögretimdə ögretmen-ögrençi ilişkileri» (Adana 1997) adlı iri həcmli monoqrafiyası nəşr edilmişdir. Qeyd edək ki, başqa elm sahələrinə dair, xüsusilə ədəbi əsərlərin Türkiyədə nəşr edilməsi çoxluq təşkil etsə də, pedaqoji əsərlərin Türkiyədə nəşri indiyə kimi mümkün olmamışdır. Bu cəhətdən Rüfət Lətif oğlu Hüseynzadənin Türkiyədə çap edilmiş pedaqoji əsəri birinci hesab edilə bilər və bu pedaqoji ictimaiyyətimiz üçün sevindirici və iftixarverici bir hal sayıla bilər.

Monoqrafiyaya Adana Milli Egitim müdiri Abdurrahman Yıldızın «Ön söz»ündən sonra əsər «Ümumtürk milli egitimində böyük problemlər» adlı fəsillə başlayır. Burada bir çox ortaq pedaqoji problemlər araşdırılır, daha sonra təhsilin humanist və demokratik prinsiplər əsasında qurulmasının pedaqoji əsasları, müəllim şagird münasibətlərində humanist və demokratik prinsiplər pedaqoji fakt və nümunələr əsasında təhlil edilir.

İlk fəsildə «Egitim nədir?» - sualına cavab axtarılır. Burada müəllif «Tərbiyə» sözünün izahını verir və bu sözün ərəb sözü olaraq «Rəbb» kəlməsindən törədiyini və bunun aşağıdakı üç mənanı ifadə etdiyini göstərir: «Rəbb» - «Doğru yol göstərmək», «Rəbb» - «bəsləmək», «böyütmək», «yetişdirib ərsəyə çatdırmaq», «Riba» - «artmaq», «çoxalmaq». «Tərbiyə» sözünün bu cür izahı R.L.Hüseynzadəyə məxsusdur.

Əsərin «Qərb pedaqoji uzmanları müəllim-şagird münasibətləri haqqında» bölümündə müəllif Con Lokk, Jan Jak Russo, İ.H.Pestalossi, A.Disterveq,

Y.A.Komenski kimi klassik pedaqoq və filosofların müəllim-şagird münasibətləri haqqında fikirlərini təhlil edir.

Monoqrafiyanın geniş bir bölümü «Egitim tarixinə bir baxış» adlanır. Bu bölümdə pedaqoji elmin az toxunulmuş sahələrinə əl atılmış, İslama qədərki dövrdə tərbiyə və təhsil məsələlərinə nəzər salınmış, qədim Hunlarda, Göytürklərdə tərbiyə və təhsil, qədim Şumerlərdə tərbiyə və təhsil məsələləri elmi fakt və nümunələr əsasında şərh edilmişdir.

Burada əski türk xalqlarının adət və ənənələrindən, uşaqlara, qadınlara münasibətindən, valideyn-övlad, müəllim-şagird münasibətlərindən ətraflı söhbət açılır. Müəllif göstərir ki, türklərdə xalqa, elə, obaya bağlılıq çox qüvvətli olmuş və qədim türklər – hunlar özlərinə «hun» demişlər ki, bu da «el - gün», «xalq» anlamına uyğun gəlir. Əsərdə qeyd olunur ki, tarix boyunca türklərdə uşaq sahibi olmaq və uşaq yetişdirmək ən böyük arzu olmuşdur. Oğlan uşağı atasına, qız uşağı anasına çəkməliydi. Yaxşı tərbiyə almış oğlan uşağına «Atac», qız uşağına «Anac» deyərmişlər. Oğlan uşağının yetişdirilməsində daha çox atanın, qız uşağının yetişdirilməsində daha çox ananın öhdəsinə böyük vəzifələr düşürdü.

Əsərdə islamda təlim, tərbiyə və müəllim-şagird münasibətləri təhlil edilir, maraqlı elmi nəticələrə gəlinir. Müəllif qeyd edir ki, İslamın meydana gəlməsi ilə tərəqqi, inkişaf, mədəniyyət baş vermişdir. Yəni islamda oxumağa, öyrənməyə, alimə, müəllimə yüksək qiymət verilir. Bu münasibətlə əsərdə Qurandan, Məhəmməd peyğəmbərin kəlam və hədislərindən maraqlı nümunələr verilir.

Əsərin dəyərli bir bölümü «Ögretmenlik» (Müəllimlik) adlanır. Burada müəllif «müəllim» sözünün ərəb sözü olaraq «elm öyrədən» mənasını verliyini göstərərək, müəllimlik peşəsinin səciyyəvi xüsusiyyətlərindən, dahilərin müəllim və müəllimlik peşəsi haqqında müdrik fikirlərindən, müəllim-şagird münasibətlərinin forma və metodlarından danışır.

Nəhayət, əsərin maraqlı, elmi faktlarla dolu olan son bölümü «Azərbaycan-Türkiyə ilişkiləri»nə həsr olunmuşdur. Müəllif bu iki qardaş ölkə arasında yaxın dostluq əlaqələrinin tarixi köklərdən gəldiyini, bunun təbii bir hal olduğunu və

daim bu ölkələrin bütün sahələrdə sıx qarşılıqlı əlaqələri mövcud olduğunu qeyd etmişdir.

Kitabda Türkiyə və Azərbaycan ədəbi-pedaqoji, maarifçilik əlaqələrinə nəzər salınmış, bu günkü günlərimizdəki təcrübə mübadilərindən, birgə keçirilən beynəlxalq simpozium və konfranslardan, tələbə, şagird və müəllim mübadilərindən söhbət açılmışdır.

2014-cü ildə İstanbul şəhəri «Çağdaş» mətbəəsində bizim tərəfimizdən 2011-ci ildə Azərbaycan dilində çap edilmiş «Şərq pedaqoji fikir tarixindən» adlı tədris vəsaiti anadolu türkcəsinə çevrilərək çap edilmişdir. Vəsait aşağıdakı məsələləri əhatə edir:

1. «Avesta»da egitim konuları.
2. «Kuran»da zihinsel, ahlak, emek, fiziksel egitim, ailə egitimi konuları.
3. El-Qazalinin «Amellerin mizanı» eserində pedaqoji fikir və düşüncələr.
4. N.Tusinin düşüncələrinin modern pedaqoji bilimində konumu.
5. Ali Hınalızadenin pedaqoji görüşləri.
6. Ziya Göyalpın pedaqoji görüşleri.

Türkiyə-Azərbaycan pedaqoji əlaqələrinin həyata keçirilməsində kitab mübadiləsinin həyata keçirilməsi də əhəmiyyətli rol oynaya bilər. Bədii ədəbiyyat sahəstndə görülən işlər daha təqdirəlayiqdir. Bu işi pedaqoji ədəbiyyat mübadiləsində də həyata keçirmək olar. Bunun kitabxanalar tərəfindən həyata keçirilməsi daha səmərəli nəticə verə bilər.

Bu sahədəki işi qənaətbəxş hesab etmək olmaz. Fərəhli haldır ki, müstəqillik əldə etdiyimizin ilk ilində Ziya Göyalpın «Türkçülüyün əsasları» əsəri Azərbaycan türkcəsinə çevrilmiş (1991) kütləvi tirajla çapdan çıxmışdır. Bu işi daha geniş miqyasda həyata keçirmək günümüzün əsas tələblərindəndir.

### 2.4. Yeni dövrdə ölkəmizdə pedaqogika elminin məzmununun təkmilləşdirilməsi.

Müstəqilliyimizin əldə olunmasından sonra pedaqogika elminin məzmununda da ciddi dəyişikliklər baş verdi. Kommunist ideologiyası

prizmasından araşdırılan problemlər ümumbəşəri dəyərlər aspektində təhlil edilməyə başladı. Bununla yanaşı dünya təcrübəsinin Azərbaycanda yayılmasına da geniş imkanlar açıldı. Ölkəmizin qabaqcıl pedaqoqları bunu öz əsərlərində əks etdirməyə nail oldular. Bu sahədə Təhsil problemləri institutu və onun mərhum direktoru prof. A.Mehrabovun araşdırmalarını yüksək qiymətləndirmək olar. Prof. A.Mehrabov öz sələflərindən fərqli olaraq, pedaqogika elminə samballı töhfələr verə bildi. A.Mehrabov, Ə.Abbasov, Z.Zeynalov, R.Həsənovun birgə hazırladığı «Pedaqoji texnologiyalar» monoqrafiyası müasir dövrümüzün aktual problemlərini əhatə etməklə, pedaqoji problemlərə yeni yanaşmaları özündə birləşdirir. Əsər özündə aşağıdakı aktual problemləri əks etdirir:

1. Pedaqoji texnologiyalar və onun inkişaf etdirilməsinin zəruriliyi;
2. Təlimdə yeni pedaqoji texnologiyaların tətbiqi;
3. Əməkdaşlıq şəraitində təlim;
4. Layihələr metodundan istifadə etməklə təlimin təşkili
5. Müxtəlif səviyyəli təlim
6. «Şagird çantası» təlim metodu kimi;
7. Humanitar və dəqiq elmlərdə yeni təlim texnologiyalarının tətbiqi;
8. Şagirdlərin müstəqil işinin təşkili və çalışmalar bankının yaradılması;
9. Yeni dövrdə müəllim sənətinə və fəaliyyətinə verilən tələblər (15 yarımfəsildə);
10. Milli Kurikulumun tətbiqi və yeni təhsil paradiqmaları və s. (kitabın həcmi 368 səh.)

Pedaqogika elminin məzmununun təkmilləşməsində prof.A.O.Mehrabovun «Azərbaycan təhsilinin müasir problemləri» (Bakı, 2007) əsərini pedaqogika elminə verilən töhvə kimi qiymətləndirmək olar. Müəllif burada Azərbaycan təhsilinin bugünkü problemlərini araşdırır və bu problemlərin həlli ilə bağlı yeni yanaşmalar, modellər müəyyənləşdirir, təhsilə verilən tələblərə münasibətini bildirir.

Əsərdə təhsilin modernləşdirilməsi ilə bağlı konseptual xarakter daşıyan problemlər, təhsil quruculuğu ilə əlaqədar yeni yanaşmalar, yeni təhsil

paradiqmaları, monitorinq və qiymətləndirmə və s. kimi aktual problemlər araşdırılır. Altı fəsildən ibarət olan bu əsərdə 36 yarımfəsil cəmlənir (cəmi 441 s.). Burada əks olunan problemləri qısa şəkildə aşağıdakı kimi vermək olar:

1. Qloballaşma Azərbaycan təhsil sisteminin modernləşməsinin mühüm amili kimi;
2. Azərbaycan təhsil sisteminin yeniləşməsinə yanaşmalar;
3. Təhsildə texnoloji yanaşmaların mahiyyəti;
4. Layihə metodu: məzmunu və tətbiqi xüsusiyyətləri;
5. Profilli təlim və elektiv kurslar;
6. Demokratik cəmiyyətdə rəqabətə davamlı mütəxəssislərin formalaşması;
7. XXI əsrdə yeni təhsil paradiqmaları;
8. XXI əsrdə təhsilin inkişafının əsas prioritetləri;
9. Ümumi təhsildə məzmun islahatları;
10. Monitorinq və qiymətləndirmə təlim prosesinin səmərəliliyinin əsası kimi;
11. Təhsil sisteminin idarə olunmasının müasir problemləri və s.

Prof. A.O.Mehrabovun «Müasir təhsilin konseptual problemləri» (Bakı, Mütərcim, 2010, 516 s.) əsəri də yeni dövrün aktual pedaqoji problemlərinin həllinə yönəlmişdir. Əsər 6 bölmə, 39 yarımfəsildən ibarətdir. Burada təhsil sistemi qarşısına qoyulan vəzifələr, onların həyata keçirilməsində ortaya çıxan çətinliklər, bu çətinlikləri doğuran səbəblər araşdırılır, əldə olunan nəticələr ümumiləşdirilir, həyata keçirilməsi vacib olan təkliflər irəli sürülür.

Təhsil işçiləri üçün vacib olan bu əsər aşağıdakı problemləri əhatə edir:

1. Şəxsiyyətyönümlü təlimin reallaşmasında humanistləşdirilmə və humanitarlaşdırma problemi;
2. Rəqabətə davamlı mütəxəssislərin formalaşmasında təhsilin rolu;
3. İstedadlı şagirdlərin aşkar edilməsinin texnoloji əsasları;
4. Müəllim-şagird münasibətlərinin tənzimlənməsində interaktiv yanaşmaların rolu;
5. Təlim prosesində səmərəli fəaliyyətin təşkili və onun inkişaf dinamikası;

6. Təlim nailiyyətlərinin qiymətləndirilməsinin pedaqoji və psixoloji əsasları;
7. İnnovasiyaların tətbiqinin pedaqoji və psixoloji əsasları;
8. Tibbi və pedaqoji təhsilin inteqrasiyası innovativ proses kimi;
9. Əlavə təhsil sisteminin yeniləşməsində innovasiyaların rolu və s.

Prof. A.O.Mehrabovun pedaqoji problemlərə yanaşmalarını yeni dövrün nailiyyətləri kimi qiymətləndirmək olar.

Respublikamızın tanınmış pedaqoqu prof. F.A.Rüstəmovun «Humanist pedaqogika, yoxsa pedaqogikada humanizm?» adlı əsərində (Bakı, Elm və təhsil, 2018) müasir pedaqogika elminə verilən töhvə kimi qiymətləndirmək olar.

Müəllif bu əsərində problemə dair dövri mətbuatda gedən müzakirələrə öz münasibətini bildirir. Qədim dövrlərdən başlayaraq bu günümüzə qədər humanist pedaqoji fikrə aid mövcud olan yanaşmalara öz münasibətini bildirir. Humanistlik ideyasının təhsil haqqında Qaunuda da, təhsili həyata keçirən müəssisələrin fəaliyyətində də özünə layiqli yer qazanması haqqında dəyərli mülahizələr söyləyir.

Müəllif dünyada baş verən ictimai-siyasi, iqtisadi dəyişikliklər prizmasından yanaşaraq humanizm ideyasının bərqərar olmasının vacibliyini əsaslandırır. O qeyd edir ki, ikili standartların tətbiqi nəticəsində dinlər, millətlərarası qarşıdurmalar artır, humanizm ideyaları unudulur. Belə bir şəraitdə humanizm ideyalarının bərqərar olmasının dövlətlərin siyasi fəaliyyətində də gözlənilməsini əsas şərt hesab edir. Qloballaşma dövründə yeni pedaqoji təfəkkürün formalaşmasını əsas tələb kimi irəli sürür. Bu istiqamətdə aparılan işlərin mətbuatda müzakirəsinə dair fikirləri işıqlandırır və nəticənin çıxarılmasını oxucunun öz əhdəsinə buraxır. O qeyd edir ki, bir qrup tədqiqatçılar bütövlükdə pedaqoji prosesin humanistləşməsini, unudulmuş klassik humanist ənənələrin bərpasını zəruri hesab edir, digər qrup isə «Humanist pedaqogika» adlı yeni elm sahəsinin yaradılması fikrini müdafiə edir (48, s.13).

Prof. F.A.Rüstəmov «Humanist pedaqogika manifesti» yarımfəslində (48, s.54-55) problemin beynəlxalq konfrans və seminarlarda da müzakirələrin

aparılmasının nəticələrini şərh edir, Təhsil problemləri institutunda «Respublika Humanist Redaqogika Mərkəzinin» yaradılmasını göstərir. Tanınmış pedaqoq Ş.A.Amonaşvilidən iqtibas gətirərək yazır: «O humanist pedaqogikanın mənası və əhəmiyyəti haqqında yazanda «humanist pedaqogika» deyil, «humanist pedaqoji fikir» anlayışından istifadə edir» (48, s.55-56).

Hörmətli professorlar Ş.A.Amonaşvili və F.A.Rüstəmovun yanaşmalarını doğru hesab edərək «pedaqogikada humanizm» ideyasına tərəfdar oluruq.

«Humanist pedaqogika» ideyasının ayrı bir elm sahəsi kimi qəbul edilməsi doğrudan da yanlış mülahizədir. Çünki «humanizm» anlayışı əxlaq tərbiyəsinin bir elementidir. Məntiqə görə əxlaqın onlarla elementləri haqqında da ayrı elm sahəsi formalaşdırmaq olar (vətənpərvərlik pedaqogikası, beynəlmiləlçilik pedaqogikası, xeyirxahlıq pedaqogikası və s.).

Bütövlükdə prof. F.A.Rüstəmovun bu əsərini həm də ötən əsrin II yarısında formalaşan təhsilin məzmununa dair «pozitiv-texnokrat» və «abstrakt-humanizm» cərəyanlarının tərəfdarlarına verilən samballı cavab kimi də qiymətləndirmək olar.

Müstəqillik dövründə pedaqoji prosesə yeni yanaşmalardan biri də kommunist ideologiyasının mayasını təşkil edən «sinfilik» ideyasına münasibətdir. İlk dəfə «Azərbaycan müəllimi» qəzetində (1995, №12) biz bu problemə öz münasibətimizi bildirərək, tərbiyənin ümumbəşəri dəyər olduğunu, onun məqsəd və vəzifələrinin bütün dövrlərdə cəmiyyətin sosial, iqtisadi həyat tərzi ilə şərtləndiyini qeyd edərək, varlıların da, yoxsulların da bu sosial sifarişi həyata keçirilməsinə çalışdığını sübut etdik. Problemin ətrafında qızğın diskussiyalar başladı. «Azərbaycan müəllimi» qəzeti bu məqalə ilə əlaqədar «Pedaqoji prosesin aktual problemləri» rubrikasını açdı. Müxtəlif fikir, mülahizələr səsləndi. Samballı filosof və pedaqoqlar fikrimizə tərəfdar çıxaraq «sinfilik» ideologiyasının tərbiyəyə şamil edilməsinin yanlış olduğunu sübut etdilər.

Tərbiyənin ümumbəşəri dəyər olduğunu və onun heç bir ideologiyaya tabe olmadığını sübut edən mülahizələr tərəfimizdən çap edilən «Ümumbəşəri dəyərlərin mənimsənilməsi əsasında yuxarı sinif şagirdlərinin elmi dünyagörüşünün formalaşması (rus dilində, 1993)» adlı tədris vəsaitində də

işıqlandırılmışdır. Burada «kommunist dünyagörüşünə» öz münasibətimizi bildirərək onun elmi dünyagörüşündən fərqli cəhətlərini açıqlamağa çalışmışıq. Həm də onun nəzəri və metodoloji əsaslarının nədən ibarət olduğunu göstərmişik.

Bu tədris vəsaitində elmi dünyagörüşün formalaşması strukturuna da toxunaraq onun metodoloji əsasında fəlsəfənin sistem-struktur yanaşma metodunun dayandığını sübut etməyə çalışmışıq. Burada görkəmli filosofların fikir və mülahizələrinə əsaslanaraq elmi dünyagörüşünün formalaşması strukturuna yanaşmalarda buraxılan səhvlərin bu metodoloji tələblərə cavab vermədiyini əsaslandırmağa çalışmışıq və strukturun sadə formulunu vəsaitdə əks etdirmişik.

Müstəqillik dövründə ölkəmizdə pedaqogika elminin məzmununun təkmilləşməsinə nümunə olaraq tərəfimizdən magistr pilləsi üçün hazırlanan və 2013-cü ildə çapdan çıxan «Elmi-tədqiqat işlərinin metodikası» adlı dərs vəsaitini də göstərmək olar. Pedaqoji kadrlar hazırlayan ali məktəblərdə istifadə edilən bu dərs vəsaiti aşağıdakı problemləri özündə cəmləşdirir:

- elmi-tədqiqat işlərinin nəzəri əsasları. Buraya elmi-tədqiqat işlərinin əsas elementləri, onu metodoloji əsasları, fəlsəfi, psixoloji və pedaqoji aspektləri daxil edilir.

- Empirik tədqiqat metodları. Buraya eksperimentin, pedaqoji müsahibə, anket sorğuları, riyazi və statistik metodlar və s. aprarılması metodikası haqqında məlumat verilir.

Dərs vəsaitində elmi-tədqiqat işlərinin metodoloji problemlərinə, eksperiment və onun ayrı-ayrı mərhələlərinin aparılması metodikasına geniş yer verilir. Bu problemlər üzrə geniş məlumat verməyimiz aşağıdakı səbəblərdən irəli gəlir: sovetlər birliyi dövründə ümumbəşəri mahiyyət kəsb etməyən kommunist ideologiyası elmdə, mədəniyyətdə və s. normativ, tənzimləyici qaydalar kimi qəbul edilirdi. Yeni dövrdə də kommunist ideologiyasının təsirindən xilas olmayan «mütəxəssislər» milli ideologiyamız formalaşmayıb, hansı istiqamətdə tədqiqat aparmağı bilmirik, - deyənlər də var idi. Biz öz doktorluq dissertasiyamızda fəlsəfi qanunları tədqiqatın metodoloji əsası kimi götürdüyümüz üçün hücuma da məruz qalmışdıq. «Sən tədqiqatında bir tərəfdən ideoloji yanaşmaları tənqid edirsən, o bri

tərəfdən də kor-koranə ideologiyaya yuvarlanmısan!», - deyərək qınaq obyektinə çevrilmişdik. Bu «mütəxəssisin» iradlarına mətbuat vasitəsilə cavab verməli olmuşduq (Bax: «Azərbaycan müəllimi» qəzeti, 1995, №19; 1996, №22; «Xalq» qəzeti 1997, №290, «Musavat» qəzeti, 2003, №140).

Müəllifi olduğumuz bu dərs vəsaitində tədqiqat işlərində rast gəldiyimiz çatışmazlıqlara rəğmən metod və metodologiya anlayışlarına aydınlıq gətirməyə çalışmışıq. Elmi-tədqiqat işlərinin metodologiyasını aşağıdakı qruplarda vermişik:

1. Ümumelmi metodoloji prinsiplər. Buraya tarixilik, varislik, məxfilik, sistemlilik, ardıcıllıq, tamlıq, bütövlük, analiz, sintez və s. aid edilir.
2. Ümumfəlsəfi metodoloji prinsiplər. Buraya fəlsəfi qanun və kateqoriyaları, nəzəriyyələri daxil edirik. Dərs vəsaitinin 1.2. yarımfəslində bu problemə daha geniş yer verilir.
3. Fəndaxili və ya xüsusi metodoloji prinsiplər. Buraya pedaqoji nəzəriyyələr, prinsiplər, metodlar, qanun və qanunauyğunluqlar daxil edilmişdir.

Bəzi elmi-tədqiqat işlərində eksperiment, onun növləri, mərhələlərinin aparılması metodikasında da xeyli qüsurlara yol verilmişdir. Belə tədqiqat işlərində eksperimentin mərhələlərini onun növləri kimi verənlər də olmuşdur. Eksperimentin birinci mərhələsini bir məkanda, ikinci mərhələsini başqa məkanda, üçüncü mərhələsini isə digər məkanda aparılması kimi yanlışlığa yol verilmişdir.

Bir sıra tədqiqat işlərində fərziyyə olmur, eksperiment haqqında uzun-uzadı mülahizələr yürüdülür və əksinə, fərziyyələr göstərilir, lakin eksperimentin aparılması haqqında məlumat verilmir. Eksperimentin nəticələri və onun reallığının əks etdirilməsinə dair materialların olmaması fərziyyənin doğruluğunu şübhə altına alır.

Müəllifi olduğumuz bu dərs vəsaitində ümumfəlsəfi metodoloji problemlərə də aydınlıq gətirməyə çalışmışıq. Mövcud tədqiqat işlərinin əksəriyyətində onilliklərdir ki, yuxarıda qeyd etdiyimiz kimi standart fikir təkrar edilir.

Yüzilliklərlə mövcud olan fəlsəfi qanun və nəzəriyyələr normativ tənzimləyici dəyərlər olaraq öz aktuallığını saxlayır və gələcəkdə də saxlayacaqdır.

Bu tədris vəsaitində didaktik prosesin metodoloji əsası olan idrak nəzəriyyəsinin formalaşmasının tarixinə nəzər salmış, onun əsasında XI əsrin dahi filosofu Əbülhəsən Bəhmənyarın (K.M. bir sıra mənbələrdə Bəhmənyar Əl-Azərbaycaninin) verdiyi strukturun dayandığını sübut etməyə çalışmışıq (37, s.27).

Adıçəkilən bu dərs vəsaitində ayrı-ayrılıqda ümumelmi, ümumfəlsəfi və fəndaxili metodoloji prinsiplərinin hər birisinin şərhinə geniş yer vermişik.

Bütövlükdə bu tədris vəsaitində elmi-tədqiqat işlərinin sistemli şəkildə aparılması metodikası araşdırılaraq, ümumiləşdirmələr aparılmış, dövrün tələblərinə uyğun təkliflər və tövsiyələr irəli sürülmüşdür.

Yeni dövr pedaqogika və psixologiya elmlərinin zənginləşməsində Hikmət Əbdül oğlu Əlizadənin rolu böyük olmuşdur. O, ilk tədqiqatlarını tərbiyənin demoqrafik problemlərinə həsr etmişdir.

Bu istiqamətdə SSRİ-miqyasında ilk dəfə tədqiqat aparan H.Əlizadə bunu belə əsaslandırır ki, keçən əsrin ortalarında dünya əhalisinin həyat fəaliyyətinə təsir edə biləcək demoqrafik proseslərdə köklü dəyişikliklər yaranmağa başladı. Bu dəyişikliklər insanların həyat-fəaliyyətinin bütün sahələrinə olduğu kimi, ailədaxili münasibətlərin formalaşmasına da öz təsirini göstərdi (12).

Prof. H.Əlizadə bu dəyişikliklərin ailədaxili münasibətlərə təsirini belə izah edir: XX əsrdə dünya əhalisinin sayı böyük sürətlə artmağa başladı. Bu artım ilk növbədə şəhər əhalisinin kənd əhalisi ilə müqayisədə nisbətinin çoxalmasına səbəb oldu. Bu urbanizasiya (kənddən şəhərə) proseslərinin intensivləşməsinin nəticəsi idi. Əsrlər boyu ailələr çoxuşaqlı olmaları ilə əlamətdar idisə, ailələrdə uşaqların sayı sürətlə azalmağa başladı. Bu xüsusən şəhər ailələri üçün xarakterik idi. Kənd əhalisi öz həyat tərzində mürəkkəb ailə tipinə üstünlük verirdi.

Prof. Hikmət Əlizadənin fikrincə, mürəkkəb ailədə baba və nənə həm uşaqlara (nəvələrə), həm də ata və anaya nəzarət etdiyi üçün bu ailə tipində ailədaxili münasibətlər müsbət fonda inkişaf edir.

Prof. Hikmət Əlizadə "ailənin demoqrafik tipləri" anlayışını pedaqogika elminə gətirdi.

Tərbiyənin demoqrafik problemlərini tədqiq edərkən Hikmət Əlizadə ailənin demiqrafık tipləri ilə yanaşı, ailədə uşaqların sayı, valideynlərin peşə - təhsil səviyyəsinin şagird şəxsiyyətinin formalaşmasına təsirini araşdırdı.

Prof. H.Əlizadə tədqiqat apararkən ailənin hər bir demoqrafik tipini ailədə uşaqların sayı və valideynlərin peşə - təhsil səviyyəsi ilə təsnif edərək, ailədə uşağın sayından və valideynlərin peşə - təhsil səviyyəsindən asılı olaraq müxtəlif ailə yarımqrupları müəyyən etdi. Özü-özlüyündə maraq kəsb edən bu təsnifata əsasən hər bir ailə qrupunda şagird şəxsiyyətinin formalaşma mexanizmini göstərdi. H.Əlizadə qeyd olunan demoqrafik amillərdən asılı olaraq ailə yarımqruplarım müəyyən etdikdən sonra, tədqiqatın xarakterindən irəli gələrək, müxtəlif meyarlar əsasında şagird şəxsiyyətinin səviyyəsini müəyyən etmək üçün onun yüksək, orta və aşağı səviyyələrini ayırd etmişdir.

Tədqiqat nəticəsində məlum oldu ki, bütün ailə yarımqruplarmda şagird şəxsiyyətinin inkişafı baxımından həm yüksək, həm orta, həm də aşağı səviyyəyə malik şagirdlər vardır. Yəni,elə bir ailə yarımqruplarına rast gəlinməmişdir ki, orada yalnız yüksək və ya orta və ya aşağı səviyyəyə malik şagirdlər olsunlar. Şəhər ailələrində aparılan bu tədqiqatda şagird şəxsiyyətinin formalaşması baxımından ən yüksək nəticə valideynlərin ali təhsilli olduğu üç uşaqlı nuklear ailələrdə, ikinci ən yüksək nəticə isə mürəkkəb ailələrdə (şəhərdə az da olsa mürəkkəb ailə tipinə malik ailələr vardır) olmuşdur. Tədqiqatda ən aşağı nəticə isə orta uşaqlı (3-4 uşaq) aşağı peşə - təhsil səviyyəsinə malik boşanma nəticəsində yaranmış natamam ailələrə təsadüf etmişdir.

Prof. H.Əlizadə əldə etdiyi nəticələri "eks-post faktum" metodundan istifadə edərək, təhlil etmişdir. Bu metod olmuş hadisələrin müqayisəli təhlili nəticəsində mövcud fərqləri müəyyən edərək, nəticə çıxarmaq imkanı verir. H.Əlizadə bu metod vasitəsi ilə çoxlu sayda hadisələri təhlil edərək demoqrafik amillərin şagird şəxsiyyətinin formalaşmasına təsirinin səbəb - nəticə əlaqələrini müəyyən etmişdir. O, demoqrafik amillərin şagird şəxsiyyətinə təsirinin hansı hallarda pozitiv, hansı hallarda neqativ xarakter daşımasının səbəblərini müəyyən edə bilmişdir. Aparılan təhlillər nəticəsində o, müəyyən edir ki, demoqrafik amillər şagird şəxsiyyətinin

inkişafına birbaşa deyil, ailədaxili münasibətlər vasitəsi ilə təsir edir. Ailədə qarşılıqlı münasibətlər sistemində neqativ meyllərin yaranması təkcə valideynlərlə uşaqlar arasındakı münasibətləri deyil, həm də bacı ilə bacı, qardaş ilə bacı, qardaşla qardaş arasındakı qarşılıqlı münasibətlərinin bu və ya digər dərəcədə pozulması ilə nəticələnir.

Bu problemləri təhlil edərkən H.Əlizadə ailədə mənəvi əlaqələrin və ünsiyyətin pozulması şəraitində «küçə qruplarının» uşağa təsir miqyasını daha da genişləndiyini müəyyən edir. Ünsiyyət tələbatını təmin etməkdən ötrü məhz ailədən kənarda özünə həmdərd, tərəfkeş yoldaş və dost axtarmağa "məcbur olan" uşaq küçə (həyat) qruplarında və qeyri-formal uşaq qruplarında rahatlıq tapır.

Özünü müxtəlif yaşlı dostları və yoldaşları içərisində xoşbəxt sanır. Günü xoş keçdikdə, küçə qrupu onun üçün sözün əsl mənasında referent qrupa çevrilir və yeniyetmə özü də hiss etmədən onun ünsüyyət tələbatının təmin edilməsində küçə qrupu əsas rol oynamağa başlayır.

Prof. H.Əlizadə tədqiqat prosesində müəyyən edir ki, küçə qruplarının təsiri ilə şagirdin təlimə münasibətlərində tədricən ciddi dəyişikliklər əmələ gəlməyə başlayır: bunun ilk əlamətləri yeniyetmə oğlanların, bəzən isə qızların diqqət və marağında təzahür edir. O, dərsdə müəllim və yoldaşlarına qulaq asmır, kənar işlərlə məşğul olur, bir qayda olaraq dərsə gecikir, ev tapşırıqlarını yerinə yetirmir, dəftər və kitablarını tez-tez «itirir», çox vaxt dərs buraxır və ya dərsdən qaçır, bütün gününü əslində öz sadiq «dostları» və ya «rəfiqələri» ilə keçirir. Bu həyat tərzi uşaq və yeniyetmələrin asudə vaxtının mədəniyyət.səviyyəsini istər-istəməz kəskin surətdə aşağı salır. Bir sıra hallarda onların qrupdaxili fəaliyyəti antisosial xarakter daşımağa başlayır. Ailədə «xoş gün görməyən, nəzarətdənkənar olan küçə qruplarına qoşulan uşaqların əksəriyyəti sinif kollektivindən təcrid olunurlar».

Şagirdin meylləri sistemində dərs, məktəb tədricən öz əhəmiyyətini itirməyə başlayır. Təlim artıq onun həyat fəaliyyətində mühüm yer tutmur, idrak maraqları zəifləyir, bütövlükdə isə maraqlarının istiqaməti dəyişir, qrup fəaliyyəti yönümündə formalaşmağa başlayır. Belə hallarda uşaqlar məktəbdə, sinifdə, eləcə də həyətdə çox vaxt dərslərindən geri qalan intizamsız şagirdlərlə yoldaşlıq və

dostluq edirlər. Dostluğun «çoğrafiyası» genişləndikcə, onlar özlərinin boş vaxtlarını artıq bilavasitə həyətdə, məhəllədə deyil, şəhərin müxtəlif yerlərində keçirir, məktəbdənkənar tədbirlərdə iştirak etmir, məktəbin və oxuduğu sinfin ictimai həyatından tədricən uzaqlaşırlar. Onların nəinki - sosial aktivliyi, həm də sərvət meylləri, dəyərlərinin xarakteri dəyişir. Şagirdin həm təlim, həm də dərsdən sonrakı fəaliyyətində asosial motivlərə əsaslanan keyfiyyət dəyişiklikləri əmələ gəlir.

Prof. H.Əlizadə bu materialları müqayisəli şəkildə təhlil edərək göstərir ki, müvafiq neqativ təsirlər vaxtında islah olunmursa, aradan qaldırılmırsa, daha ağır pedaqoji fəsadlarla nəticələnir. Şagird nəinki təlimdə geri qalır çox vaxt asanlıqla "çətin" yeniyetməyə, bir sıra hallarda isə sadəcə olaraq yetkinlik yaşma çatmamış cinayətkara çevrilir. Müəyyən demoqrafik şəraitdə, xüsusən ata və ana "yadlaşanda", uşaq və yeniyetmənin sərvət meyllərində, ilk növbədə, ünsiyyət tələbatının təmin olunmasında küçə qrupları xüsusi yer tutanda ailə özü öz qüvvəsi ilə həmin mürəkkəb pedaqoji vəzifənin öhdəsindən gələ bilmir. Bu şəraitdə neqativ demoqrafik təsirlərin korreksiya olunmasında və aradan qaldırılmasında məktəbin rolu xüsusilə artır.

Göründüyü kimi, demoqrafik proseslər şagird şəxsiyyətinin formalaşmasına bilavasitə deyil, dolayısı ilə, aralıq fenomenlər vasitəsilə təsir göstərir. Bu aralıq fenomenlər psixoloji cəhətdən sistemli xarakter daşıyır. Hər bir konkret halda həmin sistemin başlıca xüsusiyyətləri şagirdin ailədaxili münasibətlərdəki yeri ilə şərtlənir.

Prof. H.Əlizadə demoqrafik amillərin neqativ təsirlərinin yollarını axtararkən, belə bir müddəa irəli sürür ki, məktəb ailə münasibətlərini bilavasitə idarə və tənzim edə bilməz. Bu, məktəbin funksiyasına daxil də deyil. Lakin məktəb nəinki kuçə qruplarının neqativ təsirlərini neytrallaşdırmalıdır, bu həm də onun çox mühüm sosial aktivliyinin artırılması, meyllərinin formalaşdırılması üçün son dərəcə böyük əhəmiyyətə malikdir. Lakin belə bir əsaslı fakt nəzərə alınmalıdır ki, demoqrafik amillərin neqativ təsirləri, ilk növbədə, şagirdin həyat

fəaliyyətinin məhz məktəbdənkənar sahəsində özünü göstərir. Məhz bu məsələləri həll etmək üçün şagirdin asudə vaxt mədəniyyətinin artırılması, asudə vaxtın məzmun və formasının zənginləşdirilməsi, asudə vaxtın təşkili yolu ilə şagirdin ünsiyyət tələbatının təmin edilməsi vacibdir. Bu işdə o məktəbin rolunun artırılmasının zəruri olduğunu vurğulayır və qeyd edir ki, neqativ demoqrafik təsirlərin aradan qaldırılmasında şagirdlərin asudə vaxtlarının təşkili xüsusi yer tutur. Lakin bu ümdə məsələni şagirdin həyat fəaliyyətinin təkc.ə bir sahəsi ilə məhdudlaşdırmaq elmi cəhətdən səhv, praktik baxımdan isə zərərli olardı. Neqativ demoqrafik təsirlərin aradan qaldırılmasına sistemli yanaşma onun məzmununu dəqiq müəyyən etməyi, bu sistemdə çoxcəhətli tərbiyə işininin bütün vasitələrinin özünəməxsus yerini və qarşılıqlı əlaqəsini nəzərə almağı tələb edir. Bu istiqamətdə neqativ demoqrafik amillərin aradan qaldırılmasında dərsin imkanlarının ətraflı öyrənilməsini və asudə vaxtın təşkilinin təlimin məzmunu ilə əlaqələndirilmə məqsədəuyğun yol kimi qiymətləndirir. Onun təbirincə, asudə vaxt elə təşkil olunmalıdır ki, o, şagirdin nəinki özünə, özünün gələcək perspektivlərinə, başqa adamlara, həm də təlimə münasibətini dəyişsin, onun ünsiyyət tələbatının məktəb vasitəsilə təmin olunmasında həlledici rol oynasın. Bu baxımdan şagird-müəllim, eləcə də şagird-şagird münasibətlərinin humanistləşdirilməsinə, məktəbdə şagirdin bütün həyatının əməkdaşlıq pedaqogikasının prinsipləri əsasında təşkil olunmasına xüsusi diqqət yetirilməsini zəruri sayır. Məktəbdə müxtəlif yollarla (dərs, sinifdənkənar və məktəbdənkənar işlər və s.) aparılan pedaqoji korreksiya işinin səmərəsi bütün şərtlərlə yanaşı, şagird-müəllim, şagird-şagird münasibətlərinin humanistləndirməsindən bilavasitə asılıdır. Valideynlərin maarfləndirilməsi üçün məktəb və ailənin əlaqə formalarını səmərəli istifadəni və ailə qruplarının (əmi, dayı, bibi, xala) tərbiyə işinə cəlb edilməsini təklif edir. Bu tədqiqatın nəticələri onun “Tərbiyənin demoqrafik problemləri” monoqrafiyasında, “Sosial pedaqogikanın aktual məsələləri”, “Təhsilin sosial- pedaqoji məsələləri” ,

"Sosial pedaqogika" dərs vəsaitində və eləcə də çoxlu sayda məqalələrdə öz əksini tapmışdır.

Prof. Məcid İsmixanov da Azərbaycan pedaqoji fikrinin inkişafında mühüm rol oynamış, pedaqogika nəzəriyyəsi və tarixinin formalaşmasına töhvələr vermişdir.

M.İsmixanov respublikamızda dövlət müstəqilliyinin bərpa olunmasının ilk illərində sovet ideologiyası, onun təhsil siyasəti və stereotiplərindən azad ilk pedaqogika dərslik və dərs vəsaitlərindən birinin ("Pedaqogika. Təlim və təhsil nəzəriyyəsi - Didaktika", 1998) müəllifi olmuşdur. O, ənənəvi təhsil üçün müəyyən dərəcədə səciyyəvi olan təlimin nəticəsinə görə bütün məsuliyyəti müəllimin üstünə atmaq meylini tənqid şagirdlərin məsuliyyət hissindən kənarda qalmasını yanlış yanaşma hesab edir. Müəllif fikrini davam etdirərək yazır ki, təlimdə son nəticə üçün məsuliyyət hər iki tərəfin - müəllim və şagirdin (tələbənin) üzərinə düşür: bilik və bacarıqların keyfiyyəti onların birgə fəaliyyətindən, səyindən, qarşılıqlı əlaqəsindən asılıdır. Çünki təlim ikitərəfli, bütöv prosesdir; o, müəllim və şagirdin (tələbənin) məqsəd ümumiliyində, hər iki fəaliyyətin bir-birini şərtləndirməsində ifadə olunur. Müəllifin bu fikri interaktiv təlim metodunun tələblərinə cavab verir.

Ənənəvi təlim üçün səciyyəvi olan daha bir məsələ müəllifin diqqətindən yayınmamışdır: o da öyrənmə prosesinin fəlsəfi-qnoseoloji əsasları, elmi idrakın təbiəti, onun öyrənmə prosesi ilə oxşar və fərqli cəhətlərini müəyyənləşdirməklə, təlim prosesini elmi idraka yaxınlaşdırmaqla bağlı məsələ idi. Müəllif təlim prosesini idrak nəzərriyyəsi (qnoseologiya) əsasında nəzərdən keçirərək göstərirdi ki, məktəbdə şagirdin öyrənmə prosesi özünəməxsus xüsusiyyətləri olan idrak fəaliyyətidir. Biliklərə yiyələnmə prosesində şagirdin şüurunda maddi aləm düzgün, təhrif olunmamış şəkildə əks olunur; o təbiət və cəmiyyət qanunlarını dərk etməyi və tətbiq etməyi öyrənir. Bu proses bir neçə pillədən keçir: hissi, məntiqi idrak və praktika. Ətraf aləmin dərk olunması hissi idrakdan-duyğu və qavrayışlardan başlanır. Bu yolla əldə olunan faktiki materiallar məntiqi idrak pilləsində-mücərrəd təfəkkürdə təhlil olunur, ümumiləşdirilir və nəticə çıxarılır.

Çıxarılan nəticə praktikada yoxlanılır. Müəllif burada idrak nəzəriyyəsi, onun mərhələləri, hər mərhələnin struktur elementlərinin qiymətləndirilməsini vacib hesab edir.

Müəllif qeyd edir ki, şagirdin (tələbənin) öyrənmə yolu elmi idrak yoluna müvafiq olsa da, onunla tam eyni deyildir; müəyyən fərqli cəhətləri, özünəməxsus xüsusiyyətləri vardır. *Bu fərq idrak məqsədində* (alim yeni qanunauyğunluqları üzə çıxardır, tələbə isə elmə məlum olan bilikləri öyrənir), *idrak pillələrinin sistemində* (elmi idrakdan fərqli olaraq təlimdə pillələrin ardıcıllığı dəyişir, möhkəmlətmə pilləsinə ehtiyac duyulur), *idraka rəhbərlik işində* (alimdən fərqli olaraq tələbənin idrak fəaliyyəti müəllimin rəhbərliyi altında gedir) və s. özünü göstərir. Təlim prosesində bu xüsusiyyətlər nəzərə alınmalı; *şagirdin (tələbənin) idrak fəaliyyətinin tədricən elmi idraka yaxınlaşması üçün* şərait yaradılmalıdır. Təlim elə qurulmalıdır ki, şagird (tələbə) idrakın bütün pillələrindən keçsin: müşahidələr etsin, təhlil və ümumləşdirmələr aparsın, problemləri həll etsin, nəzəri biliklərini həyata tətbiq etsin, müstəqil, yaradıcı düşünsün və fəaliyyət göstərsin. Başqa sözlə, təlimdə canlı müşahidə, mücərrəd təfəkkür və praktikanın vəhdəti təmin edilməlidir. Yalnız bu şərtlə biliklərin şüurlu mənimsənilməsi mümkündür.

Müəllif mənimsəmə prosesində anlamanın həlledici rol oynadığını göstərərək qeyd edir ki, anlama təfəkkürlə sıx bağlı olub ətraf aləmdəki cisim, hadisə və proseslərin ümumi və mühüm əlamətlərinin, onlar arasındakı əlaqə və asılılıqların dərk edilməsinə kömək göstərir. Anlamanın tam və düzgün olması üçün təhsilalanları təfəkkür əməliyyatlarına - təhlil, tərkib, müqayisə, ümumiləşdirmə, konkretləşdirməyə və s. cəlb etmək vacibdir. Əks halda biliklərin əsl mənada mənimsənilməsindən və tətbiqindən danışmaq olmaz. Bu səbəbdən şagird, adətən, tərifi, qaydanı əzbərdən söylədiyi halda onu izah və tətbiq edə bilmir. Təlimdə formalizmlə mübarizə aparmaq üçün əsas şərt anlayışın, tərif və qaydanın arxasında duran həyat hadisələrinin şüurlu dərk edilməsi, onların konkret hallara tətbiqidir (26, s.39)

Prof. M.İsmixanov mənimsəmə prosesində möhkəmlətmə və tətbiqetmənin də çox mühüm rol oynadığını, məktəb təcrübəsində bu sahədə ciddi nöqsanlara yol

verildiyini göstərir. O qeyd edir ki, təlim təcrübəsində bəzən belə faktlarla qarşılaşmaq olur: bütün proqram materialı keçilmiş, jurnalda gündəlik qiymətlər yazılmışdır. Lakin şagirdlər öyrəndikləri mövzular üzrə adi suallara cavab verə bilmir, imtahanlarda çətinlik çəkir, bəzən də kəsilirlər. Bu hal onunla izah olunur ki, keçilən materiallar vaxtaşırı möhkəmləndirilməmiş, təkrar və tətbiq edilməmişdir. Möhkəmləndirmə ilə bağlı digər bir nöqsan bu prosesin ancaq təkrarlama ilə məhdudlaşmasından ibarətdir. Şagird (tələbə) eyni materialları dəfələrlə oxuyub təkrar edir ki, bu da yorucu, cansıxıcı bir işdir; ən əsası isə lazımi səmərə vermir. Çünki ancaq yaddaşa, hafizəyə əsaslanır, bu prosesdə təfəkkür iştirak etmir, mexaniki xarakter daşıyır. Belə nöqsanı aradan qaldırmaq üçün möhkəmləndirmə zamanı məntiqi hafizəyə daha çox istinad etmək, öyrənilən bilikləri əlaqələndirmək, bir-biri ilə müqayisə etmək, onları sistemə salmaq, ümumiləşdirmələr aparmaq (cədvəl, sxem tərtib etmək), bilikləri müxtəlif hallara tətbiq etmək və s. vacibdir.

Tətbiqetmə təlimin çox mühüm ünsürü olub, bir tərəfdən, bacarıq və vərdişlərin formalaşmasına, digər tərəfdən isə nəzəri biliklərin möhkəmləndirilməsinə və onlara inamın artmasına kömək göstərir. Müəllif göstərir ki, bu mənada "tətbiqetmə biliyin anasıdır" fikrinə haqq qazandırmaq olar. Tətbiqetmənin səmərəsi tətbiq olunan nəzəri biliklərin düzgün yada salınmasından, çalışmaların rəngarəngliyindən, şagirdlərin (tələbələrin) fəndaxili və fənlərarası əlaqələrə əsaslanan yaradıcı xarakterli tapşırıqlara daha çox cəlb edilməsindən asılıdır.

Müəllif yazır ki, əgər müstəqil təlim fəaliyyətinin formalaşdırılması, yəni "öyrənməyi öyrənmək" işində uşağa vaxtında kömək edilməsə o, yaşa dolduqca - sinifdən-sinfə keçdikcə zehni işdə irəliyə doğru hərəkət edə bilməz. Buna görə də ibtidai təlimdə şagirdlərin təhsil fəaliyyətini formalaşdırmaq üçün əlverişli şərait yaratmaq və müntəzəm iş aparmaq vacibdir. Bu məqsədlə onlarda təhsil fəaliyyətinin başlıca ünsürlərini təşkil edən bacarıqların aşılanması qeydinə qalmaq lazımdır. Müəllif həmin bacarıqlar sırasında aşağıdakıları qeyd edir: qarşıda duran məqsədin dərk olunması, onun icrasının səmərəli yollarının öyrənilib tətbiq edilməsi, özünə nəzarət bacarıqları. Təlimin müvəffəqiyyəti şagirdlərin bu bacarıqlara nə dərəcədə yiyələnmələrindən çox asılıdır. Müəllim yerinə yetiriləcək

işdə şagirdlərin qarşıda duran təhsil vəzifəsini aydın dərk etmələrinə, tapşırığın həllinin səmərəli yollarım tapıb tətbiq etmələrinə xüsusi diqqət yetirməlidir. Qabaqcıl müəllimlər interaktiv təlim metodlarının tələblərinə uyğun şagirdlərə hazır bilik və nəticələr vermir, onları fakt və hadisələr üzərində düşünməyə, təhlil-tərkib, müqayisə, ümumiləşdirmə və digər zehni iş priyomlarmı tətbiq etməyə, nəticə çıxarmağa geniş cəlb edirlər. Şagirdin təhsil fəaliyyəti təkcə bu zehni iş priyomları ilə məhdudlaşmır. Burada təhsil əməyi priyomları da mühüm rol oy-nayır. Belə priyomlara bir çox fənlərdə tətbiq edilən ümumi priyomlar - planlaş-dırma, kitab üzərində iş, məsələ və çalışma həlli, təcrübə işləri aparmaq, eləcə də özünüyoxlama və qiymətləndirmə daxildir.

Müəllif qeyd edir ki, şagirdin ağlına heç bir qida verməyən, ancaq hafizəyə əsaslanan təlim beynin inkişafını ləngidir, onun müstəqil fikrini oyatmır, psixi in-kişafına mane olur. Halbuki məktəbin əsas vəzifəsi bilikləri təkcə yadda saxlamağı yox, həm də şüurlu mənimsəməyi, müstəqil fikirləşməyi, yaradıcı düşünməyi və işləməyi öyrətməkdir. Yaddaş, necə deyərlər, tısbağada və qurbağada da vardır, ağıl isə ancaq insana məxsusdur; bu əvəzsiz neməti inkişaf etdirmək lazımdır. Prof. M.İsmixanov bu fikri ümumiləşdirərək göstərir ki, məktəb şagirdlərə təkcə hazır biliklər verməməli, onları bu biliklərə müstəqil yiyələnməyin açarı - öyrənmənin səmərəli yolları ilə təmin etməlidir. Əks halda şagirdin də, müəllimin də əməyi, enerjisi, vaxtı hədər gedəcək; uşaq və gənclər gələcək fəaliyyət və həyat üçün zə-ruri bacarıq və biliklərə kifayət qədər yiyələnməyəcəklər. Müəllif müstəqil təhsil fəaliyyətinə hazırlanmayan şagirdi pis üzgüçü ilə müqayisə edərək yazır: “Bu, insana üzməyi öyrətmədən onun dənizə atılmasını tələb etməyə bənzəyir. Belə “üzgüçünün” aqibəti, şübhəsiz ki, uğursuz olacaqdır. Buna görə də şagirdi “bilik dənizində” təkbaşına buraxmaq olmaz; ona kömək göstərmək, müstəqil işləməyi öyrətmək vacibdir. Ancaq bu şərtlə o çətin təlim prosesini uğurla keçə bilər, həyat yollarında büdrəməz (26, s.49-50).

Prof. M.İsmixanov təlim prosesinin elmi-metodoloji əsaslarının işlənməsinə xüsusi diqqət yetirmiş, təlimin qanun və qanunauyğunluqları, prinsip və metodlarım bu baxımdan nəzərdən keçirmiş, özünəməxsus yanaşmaları ilə diqqəti

cəlb etmişdir. Prof. M.İsmixanov bu məsələlərə aydınlıq gətirməyə çalışmışdır. Onun redaktorluğu ilə hazırlanan "Pedaqoji terminlərin izahlı lüğəti" kitabında "pedaqoji qanun", "qanunauyğunluq" və "prinsip" anlayışları belə səciyyələndirilmişdir: "Pedaqoji qanunauyğunluq pedaqoji hadisələr, proseslər və pedaqoji sistemin komponentləri arasında obyektiv şəkildə mövcud olan ümumi, zəruri, sabit və təkrarlanan əlaqələri, səbəb-nəticə asılılıqlarını ifadə edən kateqoriyadır. Pedaqoji qanun isə dərk olunmuş və praktikada yoxlanılmış qanunauyğunluğu ifadə edən kateqoriyadır. Fəlsəfədə qanunauyğunluq qanuna nisbətən geniş anlayış kimi səciyyələndirilir. Belə ki, qanun hər hansı sahə ilə bağlı müəyyən əlaqə və asılılığı əks etdirir; qanunauyğunluq isə bir çox əlaqə və asılılığı ifadə edir.

Öz təbiətinə görə yaradıcı, qeyri-standart, dəyişkən olan təlim (eləcə də tərbiyə) prosesində qanunun reallaşması üçün zəruri şərtlər (sabit, təkrarlanan əlaqə və asılılıqlar) və müvafiq şərait tələb olunduğundan pedaqogikada daha çox təlim və tərbiyə prosesinin qanunauyğunluqları müəyyən edilmişdir. Qanun və qanunauyğunluqlar praktikaya birbaşa təsir göstərmir; onlar təlim (tərbiyə) prinsipləri vasitəsilə reallaşır.

"Lüğət"də təlim prinsipləri təlim prosesinin qanunauyğunluqlarını əks etdirən və təlimin səmərəli qurulmasına imkan verən ilkin ideyalar, əsas tələblər kimi səciyyələndirilir: prinsiplər onların əsasında duran müvafiq qanunauyğunluqlarla bağlı olub, onları reallaşdırmağa xidmət edir.

Prof. M.İsmixanov təlim (eləcə də tərbiyə) prosesinin qanunauyğunluq və prinsiplərini əlaqəli şəkildə nəzərdən keçirmiş, müvafiq təsnifatını aparmışdır. Belə sistemli kompleks təsnifat "Pedaqoji terminlərin izahlı lüğəti" kitabında sxem şəklində öz əksini tapmışdır (s.111).

Təlim prosesinin ünsürləri, onlar arasındakı əlaqə və asılılıqları əks etdirən təlimin qanunauyğunluqları və hər bir qanunauyğunluqla bağlı təlim prinsipləri məntiqi əlaqədə nəzərdən keçirilmişdir. Bu cür ümumiləşdirmə təlim prosesinin ünsürləri, qanunauyğunluqları və prinsipləri arasındakı asılılığı daha yaxşı dərk etmək baxımından əhəmiyyətlidir.

Belə yanaşma tərbiyə prosesinin qanunauyğunluqları və prinsiplərinin təsnifatında da özünü göstərir.

Tərbiyə prosesinin qanunauyğunluqları və prinsiplərinin əlaqəli şəkildə sistemləşdirilməsi və ümumiləşdirilməsi onların mahiyyəti və əlaqəsini başa düşməyə, tərbiyə təcrübəsində onlardan daha yaxşı istifadə etməyə imkan verir.

Təlim və tərbiyə proseslərinə əlaqəli, dialektik yanaşma prof. M.İsmixanovun pedaqoji yaradıcılığı üçün səciyyəvidir. Bu təlim və tərbiyə metodları, onların təsnifatı məsələlərində də özünü göstərir.

Pedaqoji ədəbiyyatda təlim metodları müxtəlif şəkildə şərh olunur (psixoloji, qnoseoloji, pedaqoji aspektlərdə); bu məsələ ilə bağlı fərqli rəylər mövcuddur. Bəzi mənbələrdə uzun müddət "metod" ifadəsi ərəb sözü olan "üsul" ifadəsi kimi işlədilmiş, hazırda da işlədilməkdədir. Prof. M.İsmixanov hələ 1998-ci ildə yazdığı "Pedaqogika (Didaktika bölməsi)" dərs vəsaitində bu məsələyə münasibət bildirmiş, beynəlxalq termin kimi "metod" (yunanca yol deməkdir)ifadəsinin işlədilməsinin məqsədəmüvafıq olduğunu, pedaqogikada "metodika", "metodologiya" terminlərinin çoxdan qəbul edilib işləndiyini qeyd etmişdir.

Prof. M.İsmixanov təlim metodlarının təsnifatına da öz münasibətini bildirmişdir. O, göstərilən təsnifatlarda təlim prosesi üçün səciyyəvi olan iki fəaliyyət növünün müəllim və şagirdlərin fəaliyyətinin bir-birindən təcrid edilməsini təlim prosesinin mahiyyətinə zidd olduğunu qeyd etməklə, bu məsələni sistemli-struktur yanaşma prinsipi baxımından nəzərdən keçirməyi vacib sayır, təlim metodlarını idrak nəzəriyyəsindən çıxış edərək əsas didaktik məqsədlərə görə təsnif edir. O göstərir ki, metodlar təlimdə qarşıya qoyulan məqsədlərə çatmaq üçün istifadə olunan yollardır. Təlimdə əsas məqsəd isə şagirdlərin şüurunda dünyanın düzgün, dolğun mənzərəsini yaratmaqdan, habelə onların intellektual inkişafını və tərbiyəsini təmin etməkdən ibarətdir. Dünyanın şüurda əks etdirilməsi isə özünəməxsus formalarda - təsəvvürlər, anlayışlar, qanunlar və qanunauyğunluqlar formasında həyata keçirilir.

Müəllifə görə, metodların belə təsnifatı idrakın bütün pillələrini, habelə təlim prosesini bütövlükdə əhatə etməyə imkan verir: I qrup metodlar hissi idrakı, II qrup

- məntiqi idrakı, III qrup - biliklərin praktikaya və çalışmalara tərbiqini, IV qrup - nəzarət və qiymətləndirməni təmin edir. Əlbəttə, bu təsnifat şərtidir, çünki təlim prosesində, bütün metodlar qarşılıqlı əlaqədə çıxış edir, bir-birini tamamlayır.

Prof. M.İsmixanov qeyd edir ki, pedaqogikadan bəzi dərslik və dərs vəsaitlərində təlim metodlarının təsnifatına əhəmiyyət verilmir. Bu isə onarm praktik tətbiqini çətinləşdirir. Metodlar, əsasən,məqsədə görə seçilib tətbiq edildiyindən təlimdə onların praktik istifadəsi asanlaşır. Müəllif təlim metodlarının tətbiqi zamanı məktəb təcrübəsində yol verilən bir anlaşılmazlığa da aydınlıq gətirir. Bəzən müəllimlər bir və ya iki metoddan istifadə edir və özlərinə haqq qazandırmağa çalışırlar: "Mənim öz iş metodum var". Aydındır ki, bir metod üzərində qurulan dərs heç bir səmərə verməz və cansıxıcı olar. Bəziləri isə yeni (interaktiv) metodlardan istifadə edərək, ənənəvi metodlardan imtina edirlər. Müəllifə görə, belə yanaşma yanlışdır. Metodların hər biri təlimdə özünəməxsus dominant funkisyanı yerinə yetirir. Məsələn, az vaxta daha çox informasiya vermək vəzifəsini hər hansı yeni metodla (məsələn, "beyin həmləsi", "ziqzaq", "klaster" və b. metodlarla) yox, müəllimin şərhi metodu ilə daha yaxşı həyata keçirmək olar. Yaxud, bacarıq və vərdiş yaratmaq üçün çalışma metodu daha səmərəlidir. Bu mənada heç bir metodu, o cümlədən ənənəvi (söz, əyani, praktik) metodları köhnəlmiş hesab etmək və onlardan imtina etmək düzgün deyildir. Təlimdə (dərslərdə) bütün metodlardan yerinə görə optimal şəkildə istifadə edilməlidir. Müəllimin pedaqoji ustalığının mühüm göstəricilərindən biri də budur 25, s.116).

Prof. M.İsmixanov tərbiyə metodlarının mahiyyəti və təsnifatı məsələsində də özünəməxsus paradiqmadan çıxış etmişdir. Pedaqogikadan əksər dərslik və dərs vəsaitlərində tərbiyə metodlarının qrupları və hər qrupa daxil olan metodlar göstərilir. Lakin aydın olmur ki, belə bölgü hansı məntiqi əsasa görə aparılıb. Nəticədə tərbiyə metodlarının mahiyyəti, məntiqi sistemi yaxşı açılmamış qalır. Prof. M.İsmixanov bu məsələyə də elmi-nəzəri baxımdan aydınlıq gətirmişdir. O, tərbiyə metodlarının mahiyyətinin şərhi və təsnifatında metodların psixoloji amilləri və tərbiyə prosesinin bütövlüyü prinsipini məntiqi əsas kimi qəbul etmiş və gös-

tərmişdir ki, insanın fəaliyyəti müxtəlif psixoloji amillərlə bağlıdır: bizim fəaliyyətimiz şüur, iradə və adətlərin, habelə hisslərin məhsuludur, insan şüurlu məxluqdur.

Biz prof. Məcid İsmixanovun təlim və tərbiyə nəzəriyyələri üzrə bəzi məsələlərlə bağlı fikir, mülahizə və yanaşmalarını qısaca nəzərdən keçirdik. Bunlar onun çoxcəhətli pedaqoji yaradıcılığının cüzi bir hissəsidir. Əslində, alimin pedaqogika nəzəriyyəsi və tarixi üzrə yaradıcı fəaliyyət sahəsi çox genişdir. O, 3 monoqrafiyanın, 20 kitabın (o cümlədən, 13 dərslik və dərs vəsaitinin), 15 proqramın, 300-dən artıq elmi məqalənin müəllifidir. Onun yazmış olduğu dərslik və dərs vəsaitləri pedaqogikanın müxtəlif sahələrini əhatə edir. Onunj qələminin məhsulu olan

- Məktəbin idarə edilməsi (B., ADPU, 2012)
- Pedaqogikanın əsasları (B., BDU, 2013)
- Pedaqoji etika (B., ADPU, 2013)
- Sosial pedaqogika (B., ADPU, 2016)
- Ümumi təhsil kurikulumunun əsasları (Dərslik. B., ADPU, 2015)
- Müəllimlik ixtisasına giriş (B., ADPU, 2015)
- Təhsilin əsasları (Dərslik. B., ADPU, 2016)
- Ali məktəb pedaqogikası.(B., ADPU, 2019) və s. Azərbaycan təhsil sistemində geniş istifadə edilməkdədir.

Göstərilən kitabların bir çoxunu respublikamızda ilk dərslik və ya dərs vəsaiti kimi qiymətləndirmək olar.

Prof. M.İsmixanov nəzəri-pedaqoji səpkidə əsərlərlə yanaşı, müəllimlər üçün praktik əhəmiyyət daşıyan 15-dən artıq kitab və tədris-metodik vəsaitinin də müəllifidir: “Dərsin səmərəli təşkili”, “Kiçik məktəblilərdə təhsil əməyi bacarıqlarının formalaşdırılması”, “Təlimdə şagirdlərin müstəqil işinə pedaqoji rəhbərlik”, “Məktəb, ailə və ictimaiyyət” (dos. İ.Vəlixanlı ilə birlikdə), “Gənclik və mənəvi tərbiyə”, “Pedaqogika kursu üzrə sxemlər”, “Ali məktəb pedaqogikası sxemlərdə” və b.

Yaradıcı pedaqoqlar sırasından olan Prof. Rüfət Lətif oğlu Hüseynzadənin də müstəqillik dövründə elmə verdiyi töhvələri qeyd etməti vacib hesab edirik. Onun tərtib etdiyi iki cildlik "Pedaqogika" adlı dərsliyini (Bakı, Mütərcim, 2013) diqqətəlayiq mənbə hesab etmək olar.

Dərslikdə pedaqogikanın 5 əsas bölməsi - Pedaqogikanın ümumi əsasları, Didaktika, Tərbiyə nəzəriyyəsi, Məktəbşünaslıq və Pedaqogika tarixi ətraflı şərh və izahlarla təqdim olunur.

Dərslikdə təhsilin Bolonya prosesi, kredit sistemi, yeni pedaqoji - texnologiyalar, innovasiyalar, interaktiv təlim metodları, pedaqoji proseslərə yanaşmada yeni pedaqoji təfəkkür ümumiləşmiş şəkildə şərh olunur, müasir pedaqoji elmin və son pedaqoji təcrübələrin nailiyyətləri əsasında pedaqogikanın nəzəri və praktiki məsələləri geniş planda təqdim olunur.

İlk dəfə olaraq Pedaqogika dərsliyində ənənəvi, interaktiv təlim metodlarının səciyyəvi cəhətləri təhlil olunur və interaktiv metodlarının üstünlükləri şərh olunur. Dərslik Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən təsdiq edilmiş "Pedaqogika" proqramı əsasında hazırlanmış və Bolonya prosesi, kredit sistemi üzrə ali pedaqoji məktəblərin bakalavr pilləsi üçün nəzərdə tutulmuşdur.

"Ailə pedaqogikası" adlı dərslik də (Bakı: ADPU, 2015) onun qələminin məhsuludur.

Ailə dövlətin təməli olduğu kimi, insanlığın, bəşəriyyətin də davamı üçün çox önəmli bir ünsür, hamının rahatlıqla sığınıb isindiyi bir ocaqdır. Ailə məsələsi bütün dövrlərdə insanları, dövlətləri düşündürən, onlar üçün hər şeydən zəruri olan bir məsələdir. Onun necə olması, hansı təməllər üzərində qurulması, inkişafı, övladların tərbiyəsi millətin və dövlətin gələcəyinin əsas şərtlərindəndir.

Dərslikdə xalqımızın ümummilli lideri Heydər Əliyevin bütün həyatı və fəaliyyəti nəsillərə nümunə olaraq göstərilir. Onun ailə dəyərlərinə verdiyi qiymət həmişə hörmətlə xatırlanır. Dərslikdə Heydər Əliyev həm öz ailəsinə göstərdiyi qayğı və diqqət həm də milli-mənəvi dəyərlərimizin qarantı kimi ailənin müqəddəsliyinə daim böyük önəm verən şəxsiyyət kimi göstərilir.

“Ailə pedaqogikası” ailə mühitindən, ailə tərbiyəsindən, valideyn məhəbbətindən bəhs edir. O qeyd edir ki, müstəqil Respublikamızın Konstitusiyasının 17-ci maddəsində göstərilir ki, “Cəmiyyətin özəyi kimi ailə dövlətin xüsusi himayəsindədir, uşaqların qayğısına qalmaq və onları tərbiyə etmək valideynlərin borcudur. Bu borcun yerinə yetirilməsinə dövlət nəzarət edir”.

Dərslikdə göstərilir ki, uşağı qorumaq, tərbiyə etmək və ona əxlaqi dəyərləri qazandırmaq vəzifəsi ailənin üzərinə düşür. Məhz bu baxımdan ailə münasibətlərinin-uşaqların tərbiyəsində roluna xüsusi diqqət yetirilməlidir. Ailədə böyüməkdə olan uşaqların tərbiyəsində valideynlərin şəxsi nünunəsi və nüfuzu, uşağa münasibətləri, istifadə etdikləri tərbiyə üsulları ailə tərbiyəsinin səmərəliliyini tənzimləyir və xüsusi rol oynayır.

Dərslikdə ailə peadqogikası ilə əlaqədar sosial və psixoloji yönümdə tədqiqat aparan, ailə münasibətlərinin formalaşmasına aydınlıq gətirən alimlərdən Ə.Bayramov, Ə.Əlizadə, H.Əlizadə, B.Əliyev, S.Allahverdiyeva, Ə.Baxşəliyev, Q.Əzimli, Ə.Qədirov, M.Həmzəyev, R.İ.Əliyev, N.Çələbiyev,. N.Rzayeva və başqaları göstərilir.

Tədqiqatçı qeyd edir ki, akademik pedaqogikanın ilkin pilləsi olan “Ailə pedaqogikası” tərbiyə işində çox mühüm ərhələ hesab edilmiş və ailədə tərbiyə işinin təhlili öz aktuallığı ilə daim diqqət mərkəzində olmuşdur. Məhz bu baxımdan pedaqoji təmayüllü ali məktəblərdə bakalavr təhsil pilləsində tədris olunan “Ailə pedaqogikası” fənninin tədrisi xüsusi əhəmiyyət kəsb edir. Valideyn olmağa hazırlaşan gənclərimiz bu fənni öyrənərkən ailə etikasına, ailədə məhəbbət, qarşılıqlı hörmət, nikahın uğurlu şərtləri, ailədə valideynlərin vəzifələri, uşaqların hüquqları, ailədə uşaqların tərbiyəsi və s. bu kimi məsələlərlə tanış olurlar ki, bu da onalarm gələcək ailə həyatına hazırlığında mühüm əhəmiyyət kəsb edir.

Prof. R.Hüseynzadənin “Tərbiyə: hüquqi-normativ əsaslar” (Bakı: ADPU, 2015) adlı dərs vəsaiti də yeni dövrün tələblərinə cavab verən mənbədir. Vəsaitdə qeyd edilir ki, Azərbaycan Respublikası milli müstəqilliyinə qovuşduqdan sonra keçən müddət ərzində " ölkəmizdə istər milli dövlətçilik sahəsində, istərsə də sosial-iqtisadi və mədəni quruculuq sahəsində əsaslı islahatlara başlanılmış və

islahatların aparılmasının hüquqi-normativ bazası yaradılmışdır. Müstəqil dövlət quruculuğunda aparıcı amillərdən biri də təhsil sahəsində dünya standartlarına uyğun, milli və ümumbəşəri dəyərlər, demokratik, dünyəvi prinsiplər əsasında təhsil sisteminin yaradılmasıdır. Təhsil sistemində islahatların zəruriliyi respublikanın sosial- iqtisadi, ictimai-siyasi və dövlət quruculuğunda baş vermiş köklü dəyişikliklərlə bağlıdır.

Keçən əsrimiz müstəqil Azərbaycanın təhsil tarixinə islahatlar ili kimi daxil olmuşdur. Bu dövrdə təhsil sisteminin hüquqi-normativ bazasının daha da təkmilləşdirilməsi, yaradılması istiqamətində əsaslı işlər görülmüşdür.

Müəllif qeyd edir ki, Təhsil Sahəsində İslahatlar Proqramı demokratikləşdirmə, humanistləşdirmə, inteqrasiya, diferensiallaşdırma, humanitarlaşma prinsiplərinə əsaslanaraq, təhsil alanın şəxsiyyət kimi formalaşdırılmasını, onun təlim-tərbiyə prosesinin əsas subyektinə çevrilməsini başlıca vəzifə hesab edən bütün qurumların fəaliyyətini təhsilalanın mənafeyinə xidmət məqsədi ətrafında birləşdirən yeni təhsl sisteminin yaradılması zərurətini doğurdu.

Respublikada aparılan təhsil islahatları, Boloniya təhsil prosesinə keçid, təhsil prosesində baş verən yeniliklər, təhsilimizin dünya standartlarına uyğunlaşması, xüsusilə ali pedaqoji təhsilin ardıcıl olaraq təkmilləşdirilməsi yüksək ixtisaslı, səriştəli müəllim kadrlarının hazırlığına, məktəbdə təlim və tərbiyə işlərinin təşkilinə yeni qaydalarla yanaşmağı tələb edir.

Təlim və tərbiyəyə dair hüquqi normativ sənədlər təhsil işçiləri üçün, müəllimlər üçün rəhbər pedaqoji sənəd hesab edilir. Bu sənədlərdə məktəblilərin, gənclərin tərbiyəsinə dair qanun səviyyəsində tələblər qoyulur, vəzifələr göstərilir, istiqamətlər müəyyənləşdirilir.

Dövlət təhsil sisteminə rəhbərliyi təhsil nazirliyi, təhsil şöbələri, təhsil qurumları, təhsil rəhbərləri vasitəsilə həyata keçirir. Dövlət məktəblərin qorunması, normal fəaliyyəti və inkişafı üçün lazımi şərait yaradır. Çünki məktəb gələcəyimizi müəyyən edəcək olan nəslin formalaşmasında mühüm rol oynayan dövlət-ictimai müəssisədir. İnsanlara həyatları boyu lazım olacaq bir çox şəxsi keyfiyyətlər,

həyati biliklər, elmlərin əsasları, cəmiyyətdəki davranış normaları, əxlaqi keyfiyyətlər məhz məktəbdə əsaslı şəkildə aşılanır.

Gənc nəslin təlim və tərbiyə işlərinin milli zəmin üzərində qurulması, onların milli-mənəvi ruhda tərbiyəsi, tariximizin, mədəniyyətimizin, pedaqoji fikrimizin, zəngin mənəvi irsimizin dərindən öyrənilməsi, habelə praktik təlim və tərbiyə işlərində bəşəri dəyərlərin, yeni pedaqoji texnologiyaların mənimsənilməsi və bütün bu işlərdə tərbiyə və təhsil işlərinin hüquqi- normativ sənədlərindən istifadə edilməsi "Tərbiyənin hüquqi-normativ əsasları" fənninin tədrisinin aktuallığını şərtləndirən əsas amillərdəndir.

Bu dərs vəsaitində tərbiyə prosesinin mahiyyəti izah edilir, tərbiyə prosesində istinad ediləcək hüquqi-normativ əsaslar, təhsilə dair dövlət sənədləri, "Azərbaycan Respublikasında Təhsilin inkişafı üzrə Dövlət Strategiyası" - 24 oktyabr, 2013-cti il prezidentin sərəncamından irəli gələn təhsilimizin qarşısında duran vəzifələr, təhsilin inkişafı üçün strateji istiqamətlər geniş şərh olunur, təhsilin milli zəmin üzərində qurulması, səriştəli müəllim kadrları hazırlığı problemi, təlim və tərbiyə prosesində yeni pedaqoji texnologiyalardan, İKT-dən istifadə ilə bağlı pedaqoji fikirlər hüquqi - normativ sənədlər əsasında ətraflı izah edilir.

Bu kursun başlıca məqsədi ilk növbədə magistr pilləsində təhsil alan magistrantları və ümumiyyətlə isə təhsil işçilərini, təhsillə məşğul olan insanları, habelə pedaqoji tədqiqatçıları təhsil, tərbiyə işlərinə dair hüquqi-normativ əsaslarla tanış etmək, bu əsaslar üzərində pedaqoji bilik, bacarıq və vərdişlər formalaşdırmaq, praktik pedaqoji fəaliyyətdə hüquqi-normativ sənədlərə əsaslanaraq onlardan istifadə etmək bacarıq və qabiliyyətləri formalaşdırmaqdır.

Prof. R.L.Hüseynzadənin "Qədim və erkən orta əsrlərdə Azərbaycanda tərbiyə, təhsil və pedaqoji fikir" (Bakı, Nurlar, 2007) monoqrafiyası da pedaqogika elminə verilən töhvələrdəndir.

Monoqrafiyada ən qədim dövrlərdən başlamış erkən orta əsrlər dövrünə qədər, habelə tədqiqatın tələbi ilə orta əsrlər dövrünə nəzər salmaqla Azərbaycanda tərbiyə, təhsil və pedaqoji fikrin inkişafı məsələləri təhlil edilmişdir.Əsərdə

Qobustan qayalarında, Gəmiqayada, Azıx mağarasında və digər tarixi abidələrimiz üzərində həkk olunmuş yazıların, piktoqrafik işarələrin, rəsmlərin, daş kitabələrin pedaqojifikir tariximizdəki yeri və əhəmiyyəti göstərilmiş, qədim Azərbaycan ərazisində mövcud olmuş ən qədim tayfa birliklərində, feodal dövlətlə- rində- Aratta, Lullubi, Kutium, daha sonra Manna, Midiya, Albaniya, Atropatena kimi dövlətlərdə, həmçinin Zərdüşt məktəblərində tərbiyə və təhsil, yazı, oxu mədəniyyəti məsələləri şərh edilmişdir.

Şəxsiyyətin mənəvi, əxlaqi keyfiyyətlərinin formalaşdırılmasnda, kamil insan tipinin yetişdirilməsində erkən orta əsr mütəfəkkirlərinin pedaqoji ideyaları, xalqımızın qədim ədəbi abidələri olan "Oğuznamə"lərdə, Dədə Qorqud dastanlarında, xalq müdrikliyində öz əksini tapmış dəyərli fikirlər öz əksini tapmışdır.

Prof. R.Hüseynzadənin "Tərbiyə işi və onun metodikası" adlı vəsaiti də diqqəti cəlb edir. Dərs vəsaitində tərbiyənin məzmunu, inkişaf mərhələləri, tərbiyə prosesin səciyyəvi xüsusiyyətləri, tərbiyə prosesinin təşkilinə verilən pedaqoji və metodiki tələblər, tərbiyə prosesinin istiqamətləri, sinif rəhbərinin şagirdlərlə, valideynlərlə və müəllimlərlə apardığı işin metodikası və s. məsələlər araşdırılmışdır.

Dərs vəsaiti universitetlərin və pedaqoji kolleclərin tələbələri, magistr, doktorant və dissertantları, məktəb rəhbərləri, tərbiyə işləri üzrə təşkilatçılar və sinif rəhbərləri, fənn müəllimləri və tərbiyəçilər üçün nəzərdə tutulmuşdur.

Alimin "Məktəbdə pedaqoji prosesin təşkili" (Bakı, Aktiv, 2013) adlı metodik vəsaiti təqdirəlayiq mənbələrdəndir.

Müəllimin peşə ustalığının artırılması; müəllimin diqqətinin pedaqogikanın başlıca məsələlərinə yönəldilməsi məktəbdə həyata keçirilən pedaqoji işə ən böyük köməkdir. Müəllim gündəlik fəaliyyətində bütün pedaqoji məsələ və problemlərlə, onların həlli və həyata keçirilməsi ilə yanaşı, diqqətini bu qədər məsələ içərisində onların ən mühümlərinə yönəltməsi işin müvəffəqiyyəti üçün əsas şərtlərdəndir.

Bu baxımdan prof. Rüfət Hüseynzadənin və Nazim Əkbərovun “Məktbdə metodik işin təşkili” adlı metodik vəsaiti müəllimlər, sinif rəhbərləri və məktəb rəhbərləri üçün dəyərli bir vəsaitdir.

Pedaqoji ictimayyətə təqdim edilən bu vəsait sadə bir dillə pedaqoji kadrlara metodiki, pedaqoji tövsiyələrdən ibarətdir. Vəsait pedaqoji prosesə yeni yanaşma tərzi, məktəbdəki pedaqoji proseslərin şərhi və təhlilinə yeni pedaqoji təfəkkürdən yanaşılması ilə fərqlənir.

Metodik vəsaitdə pedaqoji prosesin metodiki məsələlərinə xüsusi yer verilmişdir. Belə ki, məktəbdə ən çətin və mürəkkəb proseslərdən biri planlaşdırma işləridir. Bu vəsaitdə məktəb rəhbərlərinin, sinif rəhbərlərinin müxtəlif növlü planlaşdırma məsələlərinə dair dəyərli metodiki, pedaqoji məsləhətlər verilir. Məktəbin illik fəaliyyətinin planlaşdırılması, pedaqoji prosesə rəhbərliyin həyata keçirilməsində dərs dinləmənin yeri, üsulu və əhəmiyyəti kimi məktəb rəhbərlərinin vazkeçilməz məsələlərinin izah və şərhindən başlamış sinif rəhbərinin tərbiyə işinin səciyyəvi xüsusiyyətləri, sinif saatı, planlaşdırma və sair bu kimi məsələlər kifayət qədər geniş izah edilmişdir.

“Tərbiyədə diaqnostik qiymətləndirmə və onun tətbiqinə dair” adlı yazıda müəlliflər respublikamızda pedaqoji aləmdə həyata keçirilən kurikulum islahatı ilə qiymətləndirmə sisteminə gətirilən təlimdə diaqnostik qiymətləndirməni tərbiyə sahəsinə tətbiq etməyi təklif edir və bunun əhəmiyyətini izah etməklə də qalmır, işin üsulları da lazımi səviyyədə təqdim edilir. Bu pedaqogikamızda yenilik kimi qiymətləndirilə bilər və inanırıq ki, tərbiyə işinin ölçülməsi və qiymətlənirilməsi məqsədi ilə təklif edilən bu məsələ pedaqoji ictimaiyyətin marağına səbəb olacaq, məsələ ətrafında daha fərqli və çox sayda fikirlərin meydana çıxmasına səbəb olacaqdır. Çünki etiraf edək ki, tərbiyədə ölçmə və qiymətlənrmə işi yeni təklifdir və kurikulum islahatının həyata keçirilməsində çox böyük əhəmiyyət kəsb edər.

Bu dəyərli metodik vəsait Azərbaycan Beynəlxalq Təhsil Mərkəzi, Azərbaycan Təhsil Şurası, ümumtəhsil məktəblərinin pedaqoji kollektivləri üçün pedaqoji-metodiki vəsait olaraq hazırlansa da, geniş pedaqoji ictimaiyyət üçün də, pedaqoji təmayüllü ali məktəb tələbələri, magistr və doktorantalar üçün də böyük

əhəmiyyət kəsb edir. Əmin olduğumuzu bildiririk ki, vəsait tezliklə pedaqoji ictimaiyyətin diqqətini cəlb edəcək, pedaqoji kadraların rəğbətini qazanacaqdır.

Müəllifin “Müəllim hazırlıgının aktual problemləri və modernləşdirilməsi” (Bakı, ARTPİ, 2015) metodik vəsaiti, “T. Sidqi dilimiz və məktəbimiz haqqında” (Bakı: Müəllim, 2010), “Müasir məktəb və yeni pedaqoji düşüncələr” (Bakı: MMC, 1997), “Təhsilin humanistləşdirilməsi və demokratikləşdirilməsi” (Bakı: MMC, 1998), “Qədim və erkən orta əsrlər dövründə Azərbaycanda məktəb və pedaqojiı fikir” (Bakı: Nurlar, 2005) monoqrafiyası  və s. Müstəqillik dövrümüzün samballı mənbələrindəndir.

Müstəqillik dövrümüzün yaradıcı pedaqoqlarından prof. Müseyib İlyasovun adını xüsusi qeyd etmək lazımdır. Onun tədqiqat sahəsi olduqca geniş diapazona malikdir. Bunlar aşağıdakı problemləri əhatə edir: pedaqogika nəzəriyyəsi, pedaqogika tarixi, ali məktəb pedaqogikası, sosial pedaqogika, psixopedaqogika, pedaqoji publisistika və s.

M.İ.İlyasovun tədqiqatlarında əsas iki istiqamət xüsusilə diqqəti cəlb edir.

Bunlardan biri şagirdlərin peşə seçməyə hazırlanması, ikincisi isə müəllim hazırlığı və müəllimin pedaqoji ustalığa yiyələnməsi problemləridir. Bu məsələlər onun xüsusən aşağıda adları göstərilən əsərlərində öz əksini tapır:

1. Məktəbdə peşəyönümü işinin sistemi. Dərs vəsaiti. Bakı: ADPU, 1997.
2. Şagirdlərin peşə seçməyə hazırlanmasının müasir problemləri. Bakı: “Elm” nəşriyyatı, 2005.
3. Şagirdlərin peşə seçməyə hazırlanması. Monoqrafiya. Bakı: “Elm” nəşriyyatı, 2009.
4. Peşəyönümünün əsasları. Dərs vəsaiti. Bakı : “Mütərcim” ,2011.
5. Müəllimin pedaqoji ustalığı. Dərs vəsaiti. Bakı: “Elm və təhsil”, 2013.
6. Peşə ixtisas seçimi. Yeniyetmə və gənclər üçün elmi-metodik vəsait. Bakı: ADPU, 2015.
7. Didaktika. Dərs vəsaiti. Bakı: ADPU, 2015.
8. Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri. Monoqrafiya. Bakı: “Elm və təhsil”, 2018.

Şagirdlərin peşə seçməyə hazırlanması problemini məktəbin təlim-tərbiyə işinin əsas tərkib hissələrindən biri kimi tədqiqata cəlb edən müəllif onu sistemli şəkildə tədqiq etmiş, xüsusən "Məktəbdə peşəyönümü işinin sistemi". Dərs vəsaiti (Bakı: ADPU, 1997), "Şagirdlərin peşə seçməyə hazırlanmasınınpcdaqoji əsasları" (Bakı: "Elm" nəşriyyatı, 2005), "Şagirdlərin peşə seçməyə hazırlanması". Monoqrafiya (Bakı: "Elm" nəşriyyatı, 2009) və "Peşəyönümünün əsasları". Dərs vəsaiti (Bakı : "Mütərcim", 2011) əsərlərində bu problemin elmi- nəzəri əsaslarını işləyib hazırlamışdır.

M.İlyasovun peşəyönümü probleminə həsr etdiyi tədqiqatlarında peşəyönümü və onun son mərhələsi kimi şagirdlərin peşə seçməyə hazırlanması bir sistem kimi nəzərdən keçirilir. Bu sistemdə peşəyönümü probleminə təkcə pedaqoji problem kimi deyil, eyni zamanda sosial, psixoloji, iqtisadi və tibbi problem kimi yanaşılır və əsaslandırılır. Problemin həllinə hələ aşağı siniflərdən başlanılmasma, şagirdlərin yaş və fərdi xüsusiyyətlərini nəzərə almaqla kompleks halda yanaşılmasına xüsusi önəm verən tədqiqatçı onun həllinə məktəbin ailə və təhsil müəssisələri ilə qarşılıqlı şəklidə fəaliyyət göstərmələri nəticəsində nail olmağın mümkünlüyünü göstərir. Tədqiqatlarına bu istiqamətlərdən yanaşan M.İlyasov müasir sosial-iqtisadi şəraitin məktəblilərin peşəyönümü işlərinin qarşısına qoyduğu tələbləri təhlilə cəlb edir və problemin bu tələblər baxımından həll edilməsinin zəruriliyini əsaslandırır. M.İlyasovun tədqiqatlarında şagirdlərin peşə seçməyə hazırlanması işinin pedaqoji əsaslarını - problemin mahiyyəti, məzmunu, prinsipləri, metodları və vasitələri təşkil edir. Tədqiqatlarında bunlara geniş yer verən tədqiqatçı peşəseçmə probleminə dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsi əsasında müasir yanaşmaları və mövcud tendensiyaları təhlilə cəlb edir və diaqnostik-tərbiyəvi istiqaməti əsas götürərək probleminin bu aspektdə həllini zəruri hesab edir.

"Şagirdlərin peşə seçməyə hazırlanması" adlı monoqrafiyada (2009) M.İlyasov peşəyönümü probleminin yaranması və müasir dövrümüzə qədər inkişaf istiqamətlərini, hazırkı dövrdə bu problemin mahiyyəti, məqsədi və vəzifələrini geniş təhlilə cəlb etmiş və onun elmi şəkildə həllinin təkcə ayrı-ayrı fərdlər üçün

deyil, bütövlükdə cəmiyyət üçün nə dərəcədə vacib bir problem olduğunu əsaslandırmışdır. M.İlyasov peşəyönümü probleminin tarixən qədim bir problem olduğunu və bəşəriyyətin bütün inkişaf tarixi dövründə əktual bir problem olduğunu və bu gün də müasir, aktual bir problem kimi qaldığını qeyd edir və onun müsbət həllinin gələcək cəmiyyət üçün onun son dərəcə vacib olduğunu qeyd edir.

M.İlyasov məktəbdə şagirdlərin peşə seçməyə hazırlanması işinin sistemini aşağıdakı kimi nəzərdən keçirir:

- Peşə maarifi
- Peşə diaqnostikası və ya peşəyönümü məqsədilə şagird şəxsiyyətinin öyrənilməsi
- Peşə məsləhətləri
- Peşələr üzrə seçmə
- Peşə adaptasiyası
- Peşə tərbiyəsi üzrə işlərin aparılması

M.İlyasov şagirdlərin peşə seçməyə hazırlanması işində onların hərtərəfli öyrənilməsini, bu sahədə geniş diaqnostik işlərin aparılmasını zəruri hesab edir və onun texnoloji tərəflərini geniş işıqlandırır. Müxtəlif müxtəlif istiqamətli araşdırmalar aparmağı və şagirdlərin seçdikləri peşə və ixtisaslarla bu sahənin şəxsiyyətə verdiyi tələblərin uzlaşdırılmasını vacib .hesab edir. Peşə-ixtisas tələbləri ilə şəxsiyyətin bilik, bacarıq, vərdişlərinin, həmçinin psixofizioloji imkanlarının uyğun olması şəraitində seçimin olmasını peşəseçmənin ən uğurlu nəticəsi kimi dəyərləndirir.

M.İlyasov peşəyönümü işlərində ailənin xüsusi yer tutduğunu qeyd edir və valideynlərin xüsusi təsir imkanlarına malik olduğunu və bu səbəbdən də övladlarının peşə seçmələrinə həsslıqla yanaşmalarının vacibliyini əsaslandırır.

M.İlyasov şagirdlərin peşə seçməyə hazırlanması işinə kompleks tədbirlər kimi yanaşır və onu bütövlükdə məktəbin təlim-tərbiyə işinin tərkib hissəsi kimi müasir dövrdə başlıca problemlərdən biri kimi tədqiq edir. Bu problemin müvəffəqiyyətlə həll edilməsinin mümkün nəticələrinin cəmiyyətin inkişafı üçün

nə dərəcədə vacib olduğunu əsaslandırır. Bu baxımdan M.İlyasov şagirdlərin peşə seçməyə hazırlanmaları işinin əsasına aşağıdakı bir sıra problemlərin həllini qoyur:

1. gənc nəslin peşə və ixtisas seçimi sərbəst, şüurlu və elmi şəkildə həll edilmiş olsun, onlar həyatda öz yerlərini düzgün müəyyən edə bilsinlər;

2. gənc nəslin seçdikləri peşə və ixtisas onların maraq və tələbatlarına, bilik, bacarıq və qabiliyyətlərinə uyğun olaraq müəyyənləşdi nisin;

3. peşə və ixtisas seçən gənclər gələcək cəmiyyətin sosial, iqtisadi və mədəni həyatında fəal və yaradıcı şəxslər kimi iştirak edə bilsinlər;

4. peşəyönümü işi şəxsiyyətin sosiallaşması kimi mühüm bir problemin həllinə kömək etmiş olsun;

5. gənclər rəqabətqabiliyyətli mütəxəssislər kimi formalaşa bilsinlər;

6. aparılan işlərdə kadrlara olan tələbat nəzərə alınması təmin edilsin, kadr axıcılığı kimi hallara yol verilməsin;

7) gənclər seçdikləri peşə və ixtisasa ürəkdən bağlansınlar, onu sevsinlər və bu sahdə kariyera qurmaq imkanlarım genişləndirsinlər və s.

M.İlyasovun apardığı tədqiqatlar içərisində müəllim hazırlığı, müəllimin pedaqoji ustalığı və peşə səriştəliliyinə yiyələnməsi problemi xüsusi yer tutur. Bu problemlər onun "Müəllimin pedaqoji ustalığı" adlı dərs vəsaitində (2013) və "Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri" adlı monoqrafiyasında ( 2018) xüsusi yer tutur.

Ali pedaqoji təhsilin magistratura səviyyəsi üçün nəzərdə tutulan "Müəllimin pedaqoji ustalığı" adlı dərs vəsaitində M.İlyasov pedaqoji ustalığın bir sıra müasir problemlərini tədqiqata cəlb etmişdir.

Müəllif müəllimin pedaqoji ustalığının mahiyyətini izah edərək qeyd edir ki, müəllimin pedaqoji ustalığı onu həm bir şəxsiyyət, həm də əsl müəllim kimi xarakterizə edən başlıca keyfiyyətlərdəndir. Pedaqoji ustalığa malik olan müəllim peşəsini və ixtisasını dərindən bilən, onu sevən və yüksək məharətlə gənc nəslə öyrədən müəllimdir. Belə müəllimlər əsl müəllim kimi yaşayır, yaradır və yetirmələri tərəfindən yüksək qiymətləndirilir. Lakin pedaqoji ustalıq birdən-birə

yaranmır. Buna nail olmaq müəllimdən pedaqoji talant, yaradıcı düşüncə, peşəsindən zövq almaq, onu sevmək, səbr və dözüm tələb edir.

M.İlyasovun bu kitabı gənc müəllimlərdə ustalığa yiyələnməyin əsasları haqqında müəyyən bilik, bacarıq və vərdişlərin aşılanması məqsədi daşıyır. Vəsait magistrantlar üçün nəzərdə tutulsa da, tələbələr, doktorontlar, orta, orta ixtisas və ali məktəb müəllimləri, pedaqoji fəaliyyətlə məşğul olan digər insanlar üçün də faydalı bir mənbədir. Müəllif müəllimin pedaqoji ustalığını xarakterizə edərək yazır: " Müasir təlim texnologiyalarından istifadə, təhsilin humanistləşdirilməsi, yeni təhsil paradiqmalarının yaranması, şəxsiyyətyönümlü təhsilin inkişaf etdirilməsi, dünya təhsil standartlarına keçid, təhsildə qloballaşma siyasəti, təhsil kurikulumlarının yaranması və s. kimi yeniliklər bunları reallaşdırmağa qabil olan yeni pedaqoji təfəkkürə malik olan usta müəllimlər tələb edir."

M.İlyasov müəllimin pedaqoji ustalığını yüksək qiymətləndirir. Usta müəllimin fəaliyyətini "dərs deyən" müəllimlərdən fərqləndirərək onların fəaliyyətinin məzmun və xarakterini səciyyələndirir. Bu istiqamətdə veriyi şərhlərdə müəllif müəllim peşəsi, cəmiyyətdə müəllimin rolu və vəzifəsi, fəaliyyət xüsussiyyətləri (məqsədyönlü olması, fəaliyyət mərkəzində şagird şəxsiyyətinin formalaşmasının dayanması, çoxsahəli olması, fəaliyyətin məqsəd və məzmunu arasında vahidliyin olması və s.) məsələlərini geniş işıqlandırmışdır.

Kitabda müəllim hazırlığının mərhələlərinə toxunan müəllif respublikamızda bunun dörd istiqamətdə: - ailədə və ümumtəhsil məktəblərində; ali və orta ixtisas pedaqoji təhsil müəssisələrində; bilavasitə pedaqoji fəaliyyət prosesində; pedaqoji kadrların ixtisasartırma fakültələrində həyata keçirildiyini qeyd edir və bunları ayrı-ayrılıqda xarakterizə edərək bir-birini tamaladığını şərh edir. Pedaqoji təhsil müəssisələrində isə müəllim hazırlığının üç istiqamətdə: a) ümumnəzəri və intellektual, b) ixtisas və c) peşə hazırlığı istiqamətlərində aparıldığını qeyd edərək bu zaman tələbələrdə pedaqoji ustalığın ilkin rüşeymlərinin yaradılmasını zəruri məsələlərdən biri kimi əsaslandırır və bunun gələcək müəllimlərin peşə fəaliyyətində nə qədər önəmli rol oynayacağım qeyd edir.

Kitabda müəllimin pedaqoji ustalığının spesifik xüsusiyyətləri, onun əsasında peşə biliklərinin durması, müəllimdən tələb olunan keyfiyyətlər, xüsusən müəllimin peşə qabiliyyətləri, müəllimin pedaqoji texnikaya yiyələnməsinin vacibliyi məsələlərinə də geniş yer ayıran müəllif müəllimin pedaqoji ustalığını müəllimin pedaqoji fəaliyyəti yüksək səviyyədə, peşəkarlıqla həyata keçirə bilmə qabiliyyəti kimi xarakterizə edir.

Kitabda diqqəti cəlb edən əsas məsələlərdən biri müəllim şəxsiyyətinin və onun malik olduğu bir sıra peşə keyfiyyətlərinin, həmçinin müəllimin pedaqoji etikası, müəllim nüfuzu kimi amillərin pedaqoji ustalıqda yeri və əhəmiyyətinin məzmunlu və geniş şəkildə şərh olunmasıdır. Müəllimin ümumi, xüsusi və spesifik peşə keyfiyyətlərini xarakterizə edən müəllif pedaqoji ustalıq üçün bunlara yiyələnməyin vacibliyini vurğulayır və gənc müəllimlərə bir sıra qaydalara riayət etməyi tövsiyyə edir.

Pedaqoji ustalığa malik olmanın bir sıra şərtlərini açıqlayan müəllif müəllimin əxlaqi siması, şəxsi, əxlaqi və estetik mədəniyyəti kimi amillərə də geniş yer verir və onların pedaqoji ustalıqdakı rolunu izah edir.

M.İlyasov müəllimin pedaqoji ustalığına geniş aspektdən yanaşır. Pedaqoji fəaliyyətdə incəsənət motivləri, onların bir-biri ilə əlaqəsi problemlərinə toxunur və müəllimin pedaqoji ustalığında onun nitqinin əsas vasitə olmasını, müəllimin nitqinə verilən tələbləri geniş təhlil edir. Müəllimin pedaqoji texnikası və pedaqoji prosesdə istifadə edilən müasir texnologiyalar pedaqoji ustalığın əsas vasitələri sırasına daxil edilməklə onların elmi-pedaqoji funksiyaları açıqlanır.

Kitabda müəllim-şagird ünsiyyəti pedaqoji ustalığın vasitəsi kimi araşdırılır. Ünsiyyət üslubları, onların pedaqoji ustalığa təsiri, müəllim-şagird ünsiyyətinə təsir edən amillər və onun formalaşması yolları kimi məsələləri geniş şərh edən müəllif pedaqoji ünsiyyətdə müəllim və şagirdlərin qarşılıqlı əxlaqi münasibətlərinin əsas yer tutduğunu konkret faktlar və nümunələrlə əsaslandırır.

M.İlyasovun bu dərs vəsaitinin dəyərini artıran amillərdən biri hər fəslin sonunda ayrı-ayrı mövzuya uyğun tələbələrə praktik işlərin verilməsidir. Bu işlər öyrənilən hər bir mövzuya uyğun tələbələrdə praktik bacarıq və vərdişlərin

formalaşdırılması məqsədi daşıyır və pedaqoji ustalığın mühüm çalarlarını özündə əks etdirir.

M.İlyasovun müəllim mövzusunda ikinci kitabı “Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri” adlı monoqrafiyadır (2018). Bu monoqrafiyanı prof. F.Rüstəmovun yazdığı kimi: “Müəllimin pedaqoji ustalığı” kitabının davamı kimi qəbul etmək də olar. Burada araşdırılan, tədqiq olunan problemlər peşəkar və səriştəli müəllim modelinin elə mühüm tərəflərini əks etdirir ki, bunlar öz işinin əsl ustası, yəni peşəkar və səriştəli müəllimin pedaqoji fəaliyyətinin bütün istiqamətlərini özündə əks etdirir və “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nda qarşıya qoyulan müasir müəllim modelinin formalaşdırılması tələbləri ilə səsləşir.”

Monoqrafiyada müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin bir sıra aktual məsələləri araşdırılır. Peşəkarlıq və səriştəliliyin mahiyyət və məzmununun nələrdən ibarət olması, onların spesifik xüsusiyyətləri, pedaqoji peşə və peşəkarlığın təşəkkülü və inkişaf istiqamətləri, yaddaş məktəbindən təfəkkür məktəbinə keçidin müəllimlərin qarşısına qoyduğu tələblər, bu sahədə mövcud problemlər ilk olaraq tədqiq edilir, araşdırılır. Müəllif peşəkar və səriştəli müəllimlərə xas olan keyfiyyətləri yeddi parametr üzrə səciyyələndirir və onları sistemli şəkildə oxuculara təqdim edir. Bunlarla yanaşı, monoqrafiyada müəllimin peşəkar fəaliyyətində uğur qazanmasına təsir edən amillərin də yeddi maddə üzrə sıralanması və onların xarakterizə edilməsi monoqrafiyanın uğurlu cəhətlərindən biri kimi diqqəti cəlb edir.

M.İlyasov müəllim peşəkarlığı və səriştəliliyində onun pedaqoji peşə mədəniyyətinə yiyələnməsini önə çəkir və onun mahiyyət və məzmununu izah etməklə onun yüksək mənəviyyata, humanist keyfiyyətlərə malik olmasım, əqidəli, ünsiyyətcil, vətənpərvər, səmimi, mədəni, nikbin, səbrli, dözümlü və təmkinli insan olmasını yüksək qiymətləndirir və müəllim üçün bu keyfiyyətlərin zəruriliyini vurğulayır.

Monoqrafiyada müəllimin peşə səriştəliliyin meyarıarınm araşdırılması, pedaqoji dəstəyin şagird şəxsiyyətinin formalaşmasında rolu, müəllimin səriştəli

mövqeyinin şagird şəxsiyyətinin formalaşmasına müsbət təsiri, yeni pedaqoji təfəkkür probleminin araşdırılması, müəllimin həm də yüksək təşkilatçılıq qabiliyyətinə malik olmasının vacibliyi kimi məsələlər geniş tədqiq edilir və səriştəli müəlli haqqında geniş təsəvvür yaradır.

Monoqrafiyanın son iki fəsli pedaqoji peşəkarlıq və səriştəliliyin formalaşdırılması yolları və müəllim hazırlığı prosesində gələcək müəllimlərdə peşəkarlıq və səriştəliliyin ilkin elementlərinin formalaşdırılmasına həsr olunmuşdur. M.İlyasov müəllim peşəsinin gələcək inkişaf perspektivlərini proqnozlaşdırır, peşəkarlıq və səriştəliliyin formalaşdırılması imkanlarını üzə çıxarır və bu prosesdə müəllimin psixoloji biliklərinin, ünsiyyət bacarıqlarına malik olmasının, pedaqoji texnikaya yiyələməsinin və müəllimlərin tədqiqatçılıq bacarıqlarına malik olmasının vacib olduğunu xüsusi qeyd edir və əsas amillər kimi tədqiqata cəlb edir.

Tədqiqatçı belə bir doğru qənaətə gəlir ki, müəllimlərdə peşəkarlıq və səriştəliliyin formalaşdırılmasma onun pedaqoji təhsil illərindən başlamaq lazımdır. Bunun üçün ilk növbədə tələbələrdə peşəkarlıq və səriştəlilik motivlərinin formalaşdırılmasmm zəruriliyini qeyd edən müəllif buistiqamətli motivlərin təbiətini xarakterizə edir və onların yaradılması yollarını göstərir. Bununla yanaşı, təhsil prosesində yeni texnologiyalardan geniş istifadə edilməsini, müxtəlif tədris texnologiyalarının tədrisə gətirilməsini, inkişafetdirici təlimə xüsusi yer verilməsini vacib hesab edən müəllif tələbələrin pedaqoji təcrübəsini gələcək müəllimlərdə peşəkarlıq və səriştəliliyin formalaşmasında ilk məktəb kimi xarakterizə edir və onun bu sahədə imkanlarını və funksiyalarım araşdırır.

Beləliklə, pedaqogika üzrə elmlər doktoru, professor M.İlyasovun əsərlərinin təhlili göstərir ki, o bir tədqiqatçı kimi müxtəlif istiqamətli araşdırmalarında, apardığı çoxsahəli pedaqoji tədqiqatlarda ənənəviliklə müasirliyin sintezini yaratmağa, müsbət ənənələri qoruyub saxlamaqla yenilikləri nəzəri və praktik fəaliyyətə gətirməyə üstünlük verən novator alimlərimizdəndir.

Yarımfəsildən göründüyü kimi, sovetlər birliyi dövründə pedaqogika nəzəriyyəsinə dair elmi ədəbiyyat, dərslik və dərs vəsaitlərini barmaqla saymaq

olardı. Kitabxanalarda elmi ateizmə dair mənbələrə daha çox rast gəlmək olurdu. Rus dilində çap edilmiş materiallar tədris prosesində daha çox istifadə edilirdi ki, bundan da geniş oxucu kütlələri istifadə edə bilmirdi.

Müstəqillik əldə etdikdən sonra həm pedaqogika tarixi, həm də nəzəriyyəsinə dair xeyli sayda monoqrafiyalar, dərslik və dərs vəsaitləri meydana gəldi və geniş oxucu kütlələrinin istifadəsinə verildi. Alternativ dərslik və dərs vəsaitlərinin meydana gəlməsi həm də pedaqogika elminin inkişafına təkan verdi. Elmin məzmununun zənginləşməsinə şərait yaratdı. Bunların kitabxanalarda saxlanılması və gələcək nəsillərə ötürülməsi indiki dövpün tələblərindəndir.

## Ədəbiyyat


1. Abbasov A.N., Əlizadə H.Ə. Pedaqogika. Bakı, Renessans, 2000.
2. Akyüz Yahya. Türk egitim tarihi. Ankara, 2013.
3. Ayişə Sidika Oktay. Khnalizade Ali Efendi. İstanbul, 2011.
4. Ağayev Ə.Ə. Milli pedaqogikaya dair. Azərbaycan müəllimi 11 dekabr 1991.
5. Azərbaycan Respublikasının Təhsil sahəsində İslahatlar Proqramı. Bakı, Çaşıoğlu, 1999.
6. Azərbaycan Respublikasında ümumi Təhsil Konsepsiyası. Bakı, 2006.
7. Bakıxanov A.A. Seçilmiş əsərləri. Bakı, Avrasiya press, 2005.
8. Əbu Həmid Əl-Qəzali. Əməllərin mizanı. Bakı, Adiloğlu, 2007.
9. Əhmədov Ə. İslam əxlaqı. Bakı, Maarif, 1993.
10. Əhmədov H.M. Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Bakı, ABU, 2001.
11. Əhmədov H.H., Zeynalova N. Pedaqogika. Bakı, Elm və təhsil, 2016.
12. Əlizadə H.Ə. Tərbiyənin demoqrafik problemləri. Bakı, Maarif, 1993.
13. Əlizadə H.Ə. Sosial pedaqogikanın aktual məsələləri. Bakı, Renessans, 1998.
14. Əlizadə H.Ə. Təhsilin sosial-pedaqoji məsələləri. Bakı, Turan evi, 2008.
15. Əlizadə H.Ə. Sosial pedaqogika (dərslik). Bakı, 2015.
16. Hüseynzadə R.L. Ögretmen-ögrençi ilişkileri. Adana, 1997.
17. Hüseynzadə R.L. Pedaqogika. Dərslik. Bakı, Mütərcim, 2013.
18. Hüseynzadə R.L. Tərbiyə işi və onun metodikası. Bakı, ADPU, 2012.
19. Hüseynzadə R.L. Məktəbdə pedaqoji prosesin təşkili. Bakı, 2013.
20. Hüseynzadə R.L. Tərbiyə: hüquqi-normativ əsasları. Bakı, ADPU, 2015.
21. Hüseynzadə R.L. Ailə pedaqogikası. Bakı, ADPU, 2015.
22. Hacı Nərimanoğlu. Turan aşiqləri. Bakı, 2011.
23. İlyasov M.İ. Müəllimin pedaqoji ustalığı. Bakı, Elm və təhsil, 2013.
24. İlyasov M.İ. Peşə ixtisas seçimi. Bakı, ADPU, 2015.

25. İsmixanov M.A. Pedaqogikanın əsasları. Bakı, ADPU, 2013.
26. İsmixanov M.A. Pedaqogika: Təlim və təhsil nəzəriyyəsi. Bakı, ADPU, 1998.
27. İsmixanov M.A. Pedaqoji terminlərin izahlı lüğəti. Bakı, ADPU, 2018.
28. İsmixanov M.A. Pedaqoji etika. Bakı, ADPU, 2013.
29. İsmixanov M.A. Ali məktəb pedaqogikası. Bakı, ADPU, 2019.
30. İsmixanov M.A. Sosial pedaqogika. Bakı, ADPU, 2016.
31. Kazımov N.M., Haşımov Ə.Ş. Pedaqogika. Bakı, Maarif, 1998.
32. Kazımov N.M. Milli pedaqogika yollarında. Bakı, Adiloğlu, 2001.
33. Mehrabov A., Abbasov Ə., Zeynalov Z., Həsənov R. Pedaqoji texnologiyalar. Bakı, Mütərcim, 2006.
34. Mehrabov A.O. Azərbaycan təhsilinin müasir problemləri. Bakı, Mütərcim, 2007.
35. Mehrabov A.O. Müasir təhsilin konseptual problemləri. Bakı, Mütərcim, 2010.
36. Məmmədov K.A. Pedaqogika elminin metodoloji problemləri. «Fəlsəfə» jurnalı, 2006, №3,4.
37. Məmmədov K.A. Elmi-tədqiqat işlərinin metodikası. Bakı, Mütərcim, 2013.
38. Məmmədov K.A. Şərq pedaqoji fikir tarixindən. Bakı, Mütərcim, 2011.
39. Məmmədov K.A. Türk xalqlarının pedaqoji fikir tarixindən nümunələr. Bakı, Mütərcim, 2017.
40. Məmmədov K.A. Tərbiyə sinfi xarakter daşımır. Azərbaycan müəllimi, 1995, №9.
41. Məmmədov K.A. İdeologiya və ideya-siyasi tərbiyə. Azərbaycan müəllimi. 1996, №22.
42. Məmmədov F., İmamverdiyeva N., Şıxəliyeva İ. Pedaqogika. Bakı, Sabah, 2015.
43. Nəsrəddin Tusi. Əxlaqi-Nasiri. Bakı, Elm, 1989.
44. Pedaqogika. Dərs vəsaiti. Red. M.Ə.Muradxanov. Bakı, 1964.

45. Paşayev Ə.X. Milli pedaqogika elmi yaratmaq məsələsinə dair. Azərbaycan müəllimi, 11-17 may 2000-ci il.
46. Paşayev Ə.X., Rüstəmov F.A. Pedaqogika. Yeni kurs. Bakı, Çaşıoğlu, 2002.
47. Rüstəmov F.A. Şərqdə pedaqogika tarixi. Bakı, Nasir, 2002.
48. Rüstəmov F.A. Humanist pedaqogika, yoxsa pedaqogikada humanizm? Bakı, Elm və təhsil, 2018.
49. Səməd Vurğun. Seçilmiş əsərləri. Beş cilddə. V cild. Bakı, Şərq-Qərb, 2005.
50. Seyidov F.Ə. Türk xalqlarının tərbiyə və məktəb tarixi. Bakı, 1997.
51. Seyidov F.Ə. Soy kökümüzdən gələn pedaqoji fikir. Bakı, 2004.
52. Sadıqov F.B. Pedaqogika. Dərs vəsaiti. Bakı, Adiloğlu, 2011.
53. Talıbov Y.R. və b. Azərbaycanda məktəb və pedaqoji fikir tarixi. Bakı, Ünsiyyət, 2000.
54. Ziya Göyalp. Fəlsəfə dərsləri. Konya, 2006.
55. Ziya Göyalp. Türkçülüyün əsasları. Bakı, Maarif, 1991.
56. Ziya Göyalp. Türk tərbiyəsi. İstanbul, 2005.
57. Ziya Göyalp. Milli tərbiyə və maarif məsələləri. Ankara, 1972.

**Rus dilində:**

58. Абу Али Ибин Сина. Избранные стихи. Ташкент: 1981.
59. Абу Али Ибин Сина. Данышнаме (книга знаний). Под ред. А.М.Богоутдинова. Сталиабад, 1957.
60. Абулгасан Бахманяр. Аль-Тахсил. Баку, Элм, 1986.
61. Аль-Фараби. Социально-этические трактаты. Алма-Ата, 1973.
62. Аль-Фараби. Логические трактаты. Алма-Ата, 1975.
63. Аль-Фараби. О разуме и науке. Алма-Ата, 1975.
64. Афанасьев В.Г. Общество: системность, познание и управление. М. Политиздат, 1981.
65. Маркс К., Энгельс Ф. Сочинение, Т.1, М., Политиздат, 1958.

66. Мамедов К.А. Формирование научного мировоззрения учащихся на основе освоения ими общечеловеческих ценностей. Баку, Мутарджим, 1993.
67. Наследие Аль-Фараби и мировая культура. Материалы между народного конгресса. Алматы, 2001.
68. Нойнер Г., Бабанский Ю.К. Педагогика. Учебное пособие. Совм.изд. ГДР и СССР. М., Просвешение, 1984.
69. Общая психология. Под ред. В.В.Богусловского. М., Просвещение, 1973.
70. Проблемы формирования коммунистического мировоззрения. Под ред. М.Н.Алексеева и М.Г.Огурцова. Мн., Нарасвета, 1975.
71. Сысоенко И.В. Теоретические и методологические проблемы формирования мировоззрения. М., Просвещение, 1979.
72. Философский словарь. Под ред. И.Т.Фролова. М., Политиздат, 1991.
73. Формирование научного мировоззрения учащихся. Совм.изд. СССР и ЧССР. Под ред. Э.И.Моносзона, Р.Правдика и Р.М.Роговой. М., Педагогика, 1985.
74. Хрестоматия по истории зарубежной педагогики. Под ред. А.И.Пискунова. М., Просвещение, 1971.
75. Юдин Э.Г. Системный подход и принципы деятельности. М.Наука, 1978.